Xalqın qəzeti!

# Xalq qəzeti

№ 68 (30762) 9 aprel 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan–İran: intensiv dialoq birgə əməkdaşlığa yeni imkanlar yaradır

## Prezident İlham Əliyev İranın yol və şəhərsalma nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan–İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının həmsədri Fərzanə Sadiqi qəbul edib.**

Prezident İlham Əliyev son dövrlərdə Azərbaycanın və İranın yüksəksəviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin intensiv xarakter daşımasını məmnunluqla qeyd edərək, bunun ölkələrimiz arasında dostluğun möhkəmləndirilməsinə və ikitərəfli əməkdaşlığımızın daha da inkişaf etdirilməsinə yaxşı imkan yaratdığını dedi.

Dövlətimizin başçısı Fərzanə Sadiqin ölkəmizə səfəri çərçivəsində Azərbaycan–İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının iclasının keçirilməsini müsbət qiymətləndirdi və komissiyanın gündəliyində iqtisadi-ticari, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığımızın inkişaf etdirilməsi üçün vacib layihələrin olduğunu qeyd etdi.

Qonaq, ilk növbədə, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.

İranın ölkəmizlə münasibətləri bütün sahələrdə inkişaf etdirməkdə maraqlı olduğunu deyən Fərzanə Sadiq xalqlarımızın tarixi, mədəni, dini və qohumluq əlaqələrinin olduğunu bir daha vurğuladı. Qonaq qeyd etdi ki, İran Prezidentinin ölkəmizə planlaşdırılan səfəri öncəsi Hökumətlərarası Birgə Komissiyanın iclasının keçirilməsi gündəlikdə duran vacib məsələlərin müzakirəsi baxımından olduqca əhəmiyyətlidir.

Görüşdə Şimal–Cənub nəqliyyat dəhlizinin inkişafı, Araz çayı üzərində Ağbənd və Kələlə məntəqələrini birləşdirən avtomobil körpüsünün tikintisi layihəsi və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

*AZƏRTAC*

# Azərbaycandan Avropaya enerji körpüsü




**Son günlərdə Bakıda baş verənlər təkcə regionun yox, bütün Avrasiyanın enerji mənzərəsini formalaşdırır. Cənub Qaz Dəhlizi və Yaşıl Enerji Məşvərət Şuralarının son toplantısı bir daha göstərdi ki, Azərbaycan qlobal enerji gündəminin mərkəzində dayanan, təşəbbüs irəli sürən və tərəfdaşlıqlar yaradan əsas "oyunçu"lardan biridir. Nazirlərin iclasında 24 ölkə, 52 beynəlxalq təşkilat və şirkətin iştirakı Bakının artıq simvolik bir enerji platformasına çevrildiyini təsdiqləyir. Bu platformada təkcə təbii qazdan yox, həm də "yaşıl enerji"dən danışılır. Təchizatın etibarlılığı qədər, enerjinin gələcəyi də bu müzakirələrin əsas mövzusudur.**

(ardı 4-cü səhifədə)

# Xankəndidə "Yeni dünya nizamı"na çağırışlar



**Dünən Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə "Yeni dünya nizamına doğru" mövzusunda VII ADA Siyasi Forumu öz işinə başlayıb. Beynəlxalq məclisə 44 ölkədən 80-dən çox nümayəndə dəvət edilib.**

(ardı 5-ci səhifədə)

# Qarabağ separatçıları Ermənistan hakimiyyətinə qarşı



**Ermənistanda sığınacaq əldə etmiş separatçı tör-töküntülər "fəallaşıblar". Onları "fəallaşdıran" isə ölkənin Xarici işlər nazirliyinin bəyanatıdır. Söhbət konkret olaraq, nədən gedir, bu barədə söz açacağıq. Ancaq əvvəlcə qısa arayış verək.**

Prezident İlham Əliyev aprelin 2-də ölkəmizdə səfərdə olan Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə mətbuata birgə bəyanatından sonra jurnalistlərin suallarını cavablandırarkən real danışıqların bir il əvvəl başlandığını bildirib: "Danışıqların əsas maneəsi ondan ibarət idi ki, 2024-cü ilin yanvar ayına qədər Ermənistan təkidlə sülh müqaviləsinə "Dağlıq Qarabağ respublikası"nın taleyini salmaq istəyirdi. Biz isə buna qəti etiraz edirdik. Çünki "Dağlıq Qarabağ" adlı respublika yoxdur. Bu, ancaq Ermənistanın xülyalarında mövcud olub. Azərbaycanın Qarabağ bölgəsi mövcuddur. Bu, bizim daxili işimiz olduğu üçün biz təbii ki, dövlətlərarası müqaviləyə belə bir bəndin salınmasına heç vaxt razı ola bilməzdik. Ancaq 2023-cü ilin sentyabr ayında Qarabağ torpağında separatizmə son qoyulandan bir neçə aydan sonra Ermənistan təkidlə irəli sürdüyü o maddəni sülh müqaviləsinin mətnindən çıxarmağa razı oldu. Faktiki olaraq real danışıqlar təqribən bir il bundan əvvəl başlamışdır".

(ardı 3-cü səhifədə)

# AŞPA Gürcüstan məsələsinə qayıdır




**Aprelin 10-da Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yaz sessiyasında Gürcüstandakı vəziyyətlə bağlı debat keçiriləcək. Müzakirələr zamanı qurum tərəfindən Gürcüstan nümayəndə heyətinin mandatının ratifikasiyasına dair qətnamə ilə bağlı gələcək tədbirlər müzakirə olunacaq. Yeni qətnamənin qəbul ediləcəyi gözlənilir. Baş nazir İrakli Kobaxidze AŞPA-da Gürcüstanla bağlı müzakirələrin aparılmasına münasibət bildirib. O, AŞPA-nın qərarının Gürcüstan hakimiyyəti üçün maraqlı olmadığını qeyd edib: "Təşkilatın çıxaracağı qətnamə bizim üçün maraqlı deyil. İndi onların qərar vermək üçün praktiki olaraq heç bir şeyləri yoxdur. Bizim bu qurumda fəaliyyətimiz dayandırılıb".**

(ardı 4-cü səhifədə)

# Avropa "Yaşıl enerji dəhlizi"nə qapı açır

**Bolqarıstanın Energetika Nazirliyinin məlumatına əsasən, bu həftə Sofiyada "Azərbaycan – Türkiyə – Gürcüstan – Bolqarıstan yaşıl enerji dəhlizi"nin reallaşdırılması üzrə texniki işlərə start veriləcək. Başqa sözlə, Cənub Qaz Dəhlizi və Yaşıl Enerji Məşvərət şuraları çərçivəsində nazirlərin iclaslarında Bolqarıstanda 4 ölkənin Bakıda memorandum imzaladığı "Yaşıl enerji dəhlizi"nin yaradılması üzrə texniki işlərə başlanacaq. Müvafiq nazirliklərin nazir müavinləri və enerji operatorlarından ibarət qrup yeni enerji dəhlizi üzərində işə başlamaq üçün Sofiyada bir araya gələcək.**

(ardı 8-ci səhifədə)



# "Böyük manipulyator"




Səhifə ⇨ 6

# Arşakyan da populist çıxdı



Səhifə ⇨ 4

# "Qafqazın Xirosiması" xarabalıqdan boy atır



Səhifə ⇨ 9

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!**

Müqəddəs Ramazan bayramı münasibətilə Zati-alinizi İraq xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik etməkdən məmnunluq duyuram.

Uca Allahdan Sizə cansağlığı və səadət, Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq arzulayıram.

**Ən dərin ehtiramla,**

***Məhəmməd Şiya əs-SUDANİ***
***İraq Respublikasının Baş naziri***

# M.C.Əliyevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ilə Rusiya arasında əlaqələrin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli ictimai fəaliyyətinə görə Məmmədbağır Cavad oğlu Əliyev "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 aprel 2025-ci il**

# Daxili işlər naziri Şəkidə vətəndaş qəbulu və sıra baxışı keçirib



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 7-də və 8-də Şəki Şəhər Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Şəki şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Şəki Şəhər Rayon Polis Şöbəsində Şəki, Balakən, Zaqatala, Qax, Oğuz, Qəbələ şəhər və rayonlarından qəbula gələn 312 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.



Vətən müharibəsinin 34 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 198 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***XQ***

# Milli Məclisin deputatları AHİK-də

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvləri ilə görüş keçirilib.**



Konfederasiya sədri Sahib Məmmədov ölkəmizdə həmkarlar ittifaqlarının səmərəli fəaliyyəti üçün yaradılan əlverişli şəraitdən, ölkə rəhbərliyinin bu sahəyə diqqət və qayğısından danışıb, ittifaq üzvlərinin əmək, sosial, iqtisadi hüquqlarının müdafiəsi, sağlamlığının qorunması, müalicə və istirahətinin təşkili istiqamətində görülən işlər barədə məlumat verib.

Tədbirdə AHİK-də aparılan struktur islahatları, həyata keçirilən layihələr, tətbiq olunan yeniliklər, Əmək və Sosial Münasibətlər Akademiyasında kadr hazırlığı üçün yaradılmış əlverişli şərait deputatların diqqətinə çatdırılıb. Bildirilib ki, yeni layihələrdən olan "AHİK Könüllüləri" uğurla davam etdirilir, "Layiqli Əmək Səfirləri" layihəsinə başlanılıb, yaxın vaxtlarda isə ittifaq üzvləri üçün xüsusi endirimlər nəzərdə tutan "AHİK Plus" proqramına start veriləcək. Qeyd olunub ki, yollayışların vahid mərkəzdən verilməsi üçün "Kurort" Turizm İnformasiya Mərkəzi yaradılıb, prosedur sadələşdirilib, prosesin tam rəqəmsallaşdırılması işləri davam etdirilir.

AHİK-in 2025-2027-ci illər üzrə inkişaf strategiyasının təsdiqləndiyini vurğulayan Konfederasiya sədri beynəlxalq təcrübəyə və müasir çağırışlara uyğunlaşdırılması üçün həmkarlar ittifaqları ilə bağlı qanunvericiliyə dəyişikliklərin hazırlandığını qeyd edib.

Deputatlar – Fazil Mustafa, Sahib Alıyev, Azər Allahverənov və Səbinə Salmanova çıxışlarında əmək münasibətlərinin tənzimlənməsi, ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafında həmkarlar ittifaqlarının xidmətlərindən bəhs edib, qurumun işinə uğurlar arzulayıblar.

***XQ***

# "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir"

## *Çoxcildliyin təkrar nəşrinin 6-cı kitabı çapdan çıxıb*

**"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin təkrar nəşrinin 6-cı kitabı çapdan çıxıb. Bu kitabda yer alan materiallar 1994-cü il dekabrın 11-dən 1995-ci il martın 8-dək olan dövrü əhatə edir. Kitaba ulu öndər Heydər Əliyevin çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri, məktubları daxil edilib. Nəşrdəki materiallarda Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu prosesindən, ictimai-siyasi, iqtisadi, mədəni həyatın bir çox sahələrindən, xarici ölkələrlə əlaqələrin genişləndirilməsindən bəhs olunur.**




Bu kitabda ulu öndər Heydər Əliyevin İslam Konfransı Təşkilatının (indiki İslam Əməkdaşlıq Təşkilatının) Kasablankada 7-ci Zirvə toplantısı çərçivəsində keçirdiyi çoxsaylı görüş və çıxışları, müsahibələri yer alıb. Məsələn, 1994-cü il dekabrın 11-də Zirvə toplantısına yola düşərkən Bakıda hava limanında jurnalistlərlə görüşən Ümummilli lider İƏT-in fəaliyyətini yüksək qiymətləndirərək demişdi: "İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edir. Onların 1 milyarddan artıq əhalisi var. İslam Konfransı Təşkilatı bu ölkələrin ümumi potensialından istifadə edərək, həm ümumbəşəri proseslərdə iştirak edir, həm də İslam ölkələrinə məxsus spesifik problemlərin həll olunmasına çalışır. Mən şəxsən hesab edirəm ki, hər bir regional təşkilat əhəmiyyətlidir və bu kimi təşkilatların hamısı öz səylərini, nəhayət, birləşdirə bilsələr, dünyada sülh daimi olar, əmin-amanlıq, təhlükəsizlik təmin edilə bilər".

Görkəmli dövlət xadimi Heydər Əliyev 1994-cü il dekabrın 13-də Zirvə toplantısında söylədiyi nitqdə İslam dünyasının bəşər sivilizasiyasına layiqli töhfələr verdiyini qeyd edib, müsəlman ölkələrinin inkişafına mane olan problemlərin aradan qaldırılmasının vacibliyini vurğulayaraq deyib: "İslam dünyası ümumbəşəri sivilizasiyaya öz layiqli töhfəsini vermişdir və neçə əsrdir onun mənəvi inkişafına və təkmilləşdirilməsinə kömək edir. Bu gün dünyada mürəkkəb, ziddiyyətli proseslər getməkdədir. Viranedici qlobal müharibənin qarşısının alınması, dünyanın təhlükəsizliyinin yeni təməlinin qoyulması kimi müsbət meyillər regional münaqişələrin artması ilə, yırtıcı millətçiliklə və dövrün başqa bəlaları ilə qarşılaşır. Bizim ölkələrimiz bu proseslərin qaynağındadır və biz beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə, sülh və tərəqqi qüvvələrinin qələbəsinə layiqli yardım etməli, öz səylərimizi göstərməliyik. Bunun naminə müsəlman ölkələrinin inkişafına mane olan əngəllər aradan qaldırılmalı, bir-birimizə yardım əli uzatmalıyıq, parçalanmanın və təklənmənin qarşısını almalıyıq, dara düşmüş qardaşlarımıza birlikdə kömək etməliyik".

Qeyd edək ki, Zirvə toplantısının yekun iclasında Asiya dövlətləri adından təbrik nitqini də görkəmli dövlət xadimi Heydər Əliyev söyləyib. Həmin Zirvə görüşünün yekun sənədinə Ermənistanın Azərbaycana qarşı təcavüzünü ittiham edən bəndlər (Yekun Kommünikenin 68-71-ci bəndləri) salınıb. Bu bəndlərdə BMT Təhlükəsizlik Şurası Azərbaycana qarşı təcavüz edildiyini qəbul etməyə və buna qarşı öz Nizamnaməsinə uyğun olaraq müvafiq tədbirlər görməyə çağırılıb.

Bu kitabda Ümummilli liderin böyük Azərbaycan rəssamı Səttar Bəhlulzadənin 85 illiyinə həsr edilmiş tədbirdə söylədiyi nitqi də verilib. Ulu öndərin bu nitqi həm də onun incəsənətin rəssamlıq qolunu necə dərindən bildiyini göstərir: "Onun yaratdıqları adi rəsm əsərləri deyildir. Səttar Bəhlulzadə yaradıcılığa klassik üslubdan başlayıb – biz sərgidə bunun nümunəsini gördük, sonra isə özünəməxsus, öz aləminə, öz dünyasına, öz fəlsəfəsinə məxsus bir rəssamlıq yolu seçib və həmin yola daim sadiq olubdur. O vaxtlar – 50-ci, 60-cı illərdə, yəni Səttar Bəhlulzadənin ilk əsərləri yaranan zaman bəziləri onu anlamırdılar, bəziləri qəbul etmirdilər. Bəziləri isə bu əsərlərin nə qədər qiymətli olduğunu bilmirdilər. Ona görə də bəzən klassik üslubda çəkilən əsərlərə üstünlük verilirdi, Səttar Bəhlulzadənin əsərləri isə kənarda qalırdı. Ancaq zaman keçdi və Səttar Bəhlulzadə çox inadla öz yaratdığı üslubu, öz məktəbini davam etdirdi və yeni bir rəssamın yaranmasını nəinki Azərbaycana, həm də bütün dünyaya nümayiş etdirdi".

Dahi rəhbər Heydər Əliyev gərgin iş qrafikinə baxmayaraq, ölkənin mədəni həyatını həmişə diqqətində saxlayırdı, bununla bağlı bir sıra tədbirlərdə şəxsən iştirak edirdi. Belə tədbirlər sırasında Cəlil Məmmədquluzadənin ev-muzeyinin açılışını və ədibin 125 illiyinə həsr edilmiş mərasimi də qeyd etmək olar. Tədbirdə çıxış edən ulu öndər Heydər Əliyev Cəlil Məmmədquluzadənin əsərlərini yüksək qiymətləndirmiş, "Ölülər" pyesinin aktuallığına diqqət çəkərək demişdi: "Biz indi öz dinimizə qayıtmışıq. Din mənəvi mənbələrimizdən biridir. İslam dininin, "Qurani-Kərim"in Azərbaycan xalqı üçün açdığı yol davam edəcək və biz get-gedə dinimizin hər yerdə özünə layiq yer tutmasına imkan yaradacağıq. Ancaq biz Cəlil Məmmədquluzadənin "Ölülər" əsərindən bu gün də bəhrələnməlyik. Çünki bu gün də dini təhrif edənlər, dindən öz məqsədləri üçün istifadə edənlər, dindən istifadə edərək xalqımızı cəhalətə uğratmağa çalışanlar az deyil. Mirzə Cəlil isə belələri ilə o vaxt mübarizə aparıb və "Ölülər" əsəri ilə bizə bu vəsiyyəti edibdir. Biz də onun vəsiyyətini yerinə yetirməliyik".

Oxucu bütün bu çıxışların mətnləri ilə çoxcildliyin 6-cı kitabında tanış ola bilər.

Nəşrdə Ümummilli liderin aqrar bölmədə islahatlara həsr olunmuş respublika müşavirəsində söylədiyi nitqin, habelə "Reklamnıy Vestnik"in müxbirinə müsahibəsinin mətnləri də yer alıb. Bu cilddə, həmçinin Azərbaycan dövlətinin möhkəmləndirilməsi, ölkənin bazar iqtisadiyyatına keçid dövründə yaranmış çətinliklərin aradan qaldırılması, respublikamızın ərazi bütövlüyünün bərpası üçün ölkə rəhbərinin beynəlxalq aləmdə apardığı intensiv danışıqlara, erməni təcavüzünün ağır nəticələrinin aradan qaldırılmasına, daxili və xarici siyasətin başlıca istiqamətlərinə dair materiallara geniş yer verilib.

Kitabın buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.

# İran heyəti Nazirlər Kabinetində



**Aprelin 8-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan tərəfindən həmsədri Şahin Mustafayev ölkəmizdə səfərdə olan İran İslam Respublikasının yol və şəhərsalma naziri, Komissiyanın İran tərəfindən həmsədri Fərzanə Sadiqlə görüşüb.**

Nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə keçirilən görüşdə Azərbaycan və İran prezidentləri arasında təmasların ikitərəfli gündəliyin müəyyən edilməsi, həmçinin dövlətlərarası münasibətlərin müxtəlif istiqamətlərdə inkişafı baxımından böyük önəm kəsb etdiyi vurğulanıb.

Qeyd edilib ki, prezidentlər arasında təmaslar və konstruktiv dialoq son dövrlərdə Azərbaycan ilə İran arasında müxtəlif səviyyələrdə ikitərəfli səfərlərin intensiv xarakter daşımasına təkan verib, bu da əlaqələrin dinamik inkişafının təzahürüdür.

İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə ölkəmizə baş tutacaq səfərinin əhəmiyyətinə toxunularaq, bu səfərin tarixən dostluq və mehriban qonşuluqdan qaynaqlanan ikitərəfli münasibətlərin inkişafında yeni səhifə açacağına əminlik ifadə olunub.

Azərbaycan–İran əlaqələrinin bu gün müxtəlif sahələrdə müsbət dinamika nümayiş etdirdiyi diqqətə çatdırılıb. Bununla yanaşı, bir çox istiqamətlərdə, xüsusilə də ticarət, investisiya, nəqliyyat, neft-qaz, energetika, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğu bildirilib.

İqtisadi-ticari əməkdaşlığın inkişafından məmnunluq ifadə olunaraq, qarşılıqlı ticarət dövriyyəsinin həcminin ötən il 32 faizdən çox artdığı qeyd edilib. Prezidentlər tərəfindən verilən tapşırıqlara uyğun olaraq ticarət əlaqələrinin daha da möhkəmləndirilməsi istiqamətində mövcud potensialın maksimum dərəcədə reallaşdırılması üçün hökumətlər səviyyəsində birgə səylərin göstərildiyi diqqətə çatdırılıb.

İnvestisiya sahəsində əməkdaşlığın inkişafı vurğulanıb, Azərbaycanda fəaliyyət göstərən İran investisiyalı kommersiya qurumlarının sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət və xidmət sahələrini əhatə etdiyi qeyd olunub.

Nəqliyyat sahəsi ikitərəfli əməkdaşlığın əsas istiqamətlərindən biri kimi dəyərləndirilib. Bildirilib ki, 2024-cü ildə Azərbaycan ilə İran arasında ikitərəfli yükdaşımaların həcmi 20 faiz, tranzit daşımaları isə 23 faizdən çox artıb.

Nəqliyyat sahəsində prezidentlər səviyyəsində əldə olunmuş razılaşmaların hər iki hökumət üçün yol xəritəsi olduğu bildirilərək, bu kontekstdə bir sıra qarşılıqlı faydalı layihələrin icra olunmasından, digər əhəmiyyətli layihələr üzrə isə səmərəli işbirliyinin davam etməsindən məmnunluq ifadə olunub. Vurğulanıb ki, bu layihələr hər iki ölkənin nəqliyyat əlaqələrinin genişlənməsi ilə yanaşı, regionun xüsusilə nəqliyyat və logistika imkanlarının artmasına hesablanıb. Bunların sırasında Şimal–Cənub nəqliyyat dəhlizinin təşviqi, o cümlədən Astara yük terminalının tikintisi üzrə davam edən işlər və Astaraçay çayı üzərində inşa olunmuş yeni avtomobil və piyada körpüsü xüsusi qeyd edilib. Həmçinin Şərq–Qərb dəhlizinin inkişafının, o cümlədən İran ərazisindən keçməklə Naxçıvanla ən qısa əlaqəni təmin edəcək Ağbənd-Kəlalə avtomobil və dəmir yolu bağlantısının yaradılmasını, Siyahrud-Ordubad avtomobil körpülərinin inşasını nəzərdə tutan Şərqi Zəngəzur–Naxçıvan nəqliyyat infrastrukturunun əhəmiyyəti vurğulanıb, habelə müvafiq sərhəd-gömrük infrastrukturunun tikintisinin önəmi diqqətə çatdırılıb.

Eyni zamanda, Ağbənd–Cəbrayıl–Ağdam–Yevlax–Gürcüstan avtomobil marşrutunun, bununla yanaşı, Ağbənd–Laçın–Kəlbəcər–Gəncə–Gürcüstan marşrutunun da gələcəkdə istifadəyə verilməsinin regionda yük və sərnişin daşımaları baxımından yeni imkanlar açacağına əminlik ifadə olunub. Bu marşrutların körfəzi Qara dənizlə birləşdirən ən əlverişli marşrutlardan birinə çevriləcəyi vurğulanıb.

Energetika sahəsində əməkdaşlığın da uğurlu layihələrlə müşayiət olunduğu və nümunəvi xarakter daşıdığı bildirilib. Araz çayı üzərindəki "Xudafərin" və "Qız qalası" hidroqovşaqları, su elektrik stansiyaları, həmçinin Ordubad və Marazad su elektrik stansiyaları ilə bağlı Azərbaycan–İran əməkdaşlığının önəminə toxunulub.

Bildirilib ki, elektrik enerjisi sahəsində əməkdaşlıq istiqamətində qarşılıqlı fəaliyyət davam etdirilib. Azərbaycan ilə İran arasında 5 nöqtədə ümumi ötürmə gücü 860 MVt olan elektrik ötürücü xətlərin qarşılıqlı bağlantısı mövcuddur, bu da enerji təhlükəsizliyinin və dayanıqlı əməkdaşlığın təmin olunmasında mühüm rol oynayır.

Bununla yanaşı, Şərqi Zəngəzur iqtisadi rayonunu İran ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək elektrik verilişi xəttinin tikintisinin enerji təhlükəsizliyinin təmin olunmasına xidmət etməklə bərabər, ölkələrimiz arasında elektroenergetika sahəsində əməkdaşlığın möhkəmlənməsinə də böyük töhfələr verəcəyinə əminlik ifadə olunub.

Neft-qaz sahəsində həyata keçirilən uğurlu layihələrin önəmi vurğulanaraq, bu sahədə əməkdaşlıq üçün yeni imkanların mövcud olduğu məmnunluqla qeyd edilib.

Səfər zamanı həmsədrlər ikitərəfli layihələrin bir neçəsinin icra vəziyyəti, həmçinin bir sıra infrastruktur obyektlərinin fəaliyyəti ilə tanış olacaqlar.

Tərəflər Azərbaycan–İran əlaqələrinin müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğulayaraq, mövcud potensialın reallaşdırılması istiqamətində birgə səylərin davam etdirilməsi ilə bağlı razılığa gəliblər.

Görüşün sonunda bu il yanvarın 22-də Tehran şəhərində keçirilən Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 16-cı iclasının nəticələrinə dair imzalanmış Anlaşma Memorandumunun Azərbaycan və fars dillərində olan əsl nüsxələrinin mübadiləsi həyata keçirilib.

***XQ***

# Pakistanın Milli Günü münasibətilə rəsmi qəbul

**Aprelin 8-də Pakistanın Azərbaycandakı səfirliyi tərəfindən bu ölkənin Milli Gününün 85-ci ildönümü münasibətilə Bakıda rəsmi qəbul təşkil edilib.**

Çıxış edən Pakistanın Azərbaycandakı səfiri Qasım Mohiuddin iki ölkə arasındakı tarixi dostluq ənənələrindən danışaraq, ikitərəfli münasibətlərin gələcəkdə daha da inkişaf edəcəyinə ümidvarlığını bildirib.

Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayev çıxış edərək ölkələrimiz arasında münasibətlərin qarşılıqlı etimada əsaslandığını diqqətə çatdırıb, iqtisadi və mədəni əlaqələrin yüksələn xətlə inkişaf etdiyini bildirib.

Sonra Pakistanın qazandığı nailiyyətlər, ölkənin turizm imkanları, tarixi abidələri barədə videoçarx nümayiş olunub.

***XQ***



# Qarabağ separatçıları Ermənistan hakimiyyətinə qarşı

(əvvəli 1-ci səhifədə)



Əlbəttə, Prezident İlham Əliyev fikirləri ilə Ermənistanın danışıqlardakı mövqeyinə ümumi şəkildə yanaşmış, İrəvanın Qarabağ motivinin real məqsədinin nəyə hesablandığını diqqətə çatdırmışdı. Yəni ölkəmizin lideri başlıca mahiyyəti açıqlamış, detallardan uzaq dayanmışdı. Ermənistan XİN isə öz aləmində Prezident İlham Əliyevin bildirdiklərinin, guya, düzgün olmadığını vurğulayıb. Daha doğrusu, bununla bağlı bəyanat yayıb. Sənəd rəsmi İrəvanın özünü separatçılıqdan uzaq, onu müdafiə etməyən tərəf kimi göstərmək istəyinin ifadəsi idi. Bunun belə olmadığı məlumdur və sonda diqqətə çatdıracağımız bir məqamın kontekstində də məsələyə aydınlıq gətirəcəyik.

Ermənistan XİN bildirmişdi: “Biz əvvəllər dəfələrlə bəyan etmişik ki, Ermənistan Azərbaycanla apardığı danışıqlarda Dağlıq Qarabağ ermənilərinin təhlükəsizliyini və hüquqlarını təmin etməyə, o cümlədən bu məsələlərin həlli üçün beynəlxalq mexanizmin yaradılmasına çalışır. Buna görə də Azərbaycanla Dağlıq Qarabağ ermənilərinin üçüncü ölkələrdə görüşünü təşkil etmək cəhdlərimiz olub, lakin bu, Dağlıq Qarabağ tərəfindən geri çevrilib. Dağlıq Qarabağ ermənilərinin zorla qovulmasına və Dağlıq Qarabağın buraxılmasına dair fərmandan sonra məsələ Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlərin nizamlanması gündəliyindən çıxarılıb”.

Qarabağdakı keçmiş xunta rejiminin Ermənistanda məskunlaşmış tör-töküntülərini qəzəbləndirən də elə diqqətə çatdırdığımız bu fikirlərdir. Onlar “Artsax informasiya qərargahı” deyilən strukturun adından bəyanat yayaraq bildiriblər ki, Ermənistan XİN-in mövqeyinin heç bir hüquqi əsası yoxdur və bu dövlət qurumu ictimaiyyətin diqqətini real problemlərdən yayındırmaq üçün uğursuz cəhd göstərir. Real problemlər nədən ibarətdir, bu barədə hansısa fikir açıqlanmır. Ancaq məlum olur ki, sən demə, separatçılar indiyədək dözürmüşlər və daha səbr kasaları daşıb. Görəsən, dözməyib nə edəcəkdilər?

*

Beləliklə, separatçıların dedikləri budur ki, qondarma rejimin ləğvi ilə bağlı 2023-cü il sentyabrın 26-da, yəni lokal xarakterli antiterror tədbirlərindən sonra imzalanmış “fərmanın” hüquqi əsası yoxdur. Həqiqətən, sözügedən kağız parçası əhəmiyyətsiz şeydir. O anlamda ki, özünün hüquqi əsası olmayan quruluşun hansısa sənədi etibarlı sayıla bilməz. Ancaq bir məsələ var. Haqqında söz açılan “fərman” təslimiyyət aktı və aman diləmək idi. Əgər 44 günlük müharibənin yekunlarını təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat Ermənistanın kapitulyasiya aktına çevrilmişdisə, 26 sentyabr 2023-cü il tarixdəki “fərman” da eyni mahiyyət daşımış, bu dəfə İrəvanın dəstəklədiyi rejim “ağ bayraq” qaldırdığını açıqlamışdı. Reallıqda isə Ermənistan ikinci rüsvayçılığı ilə üzləşmişdi. Bu, təkcə hərbi yox, həm də diplomatik məğlubiyyət idi.

Doğrudur, Qarabağdakı separatçı rejim iflasa uğradıqdan sonra baş nazir Nikol Paşinyan administrasiyasının təmsilçiləri özlərini elə apardılar ki, guya, xuntanın onlara heç bir aidiyyatı yoxdur. Amma belə deyil. Çünki rəsmi İrəvan 2020-ci ildən 2023-cü ilədək çox çalışdı ki, Qarabağ iddiası saxlanılsın. Əlbəttə, bir qədər fərqli tərzdə. Məsələn, Qarabağ ermənilərinə beynəlxalq təminat məsələsi ilə. Məlumdur ki, bu, bölgənin əlahiddəliyini vurğulamağa hesablanmış gediş idi.

Bəli, Ermənistan rəhbərliyinin bütün cəhdləri uğursuzluğa düçar olduqdan sonra rəsmi İrəvan Qarabağ ermənilərinin ərazidən köçürülməsi qərarını verdi. Məntiq bu idi: Bir halda ki, Qarabağ ermənilərinin bölgədəki mövcudluğu Ermənistanın maraqlarından irəli gəlmir, deməli, həmin əhalinin ərazidə qalmasına lüzum yoxdur. Beləcə, Qarabağın erməni sakinlərinin Azərbaycan vətəndaşları kimi ömür sürmələrinin qarşısı alındı.

Lakin Paşinyan administrasiyası yenə avantürizmi kənara qoymadı. Erməni iqtidarı Qarabağı sonuncu erməni (az bir qismi qalıb) tərk etdikdən dərhal sonra Azərbaycanın, guya, etnik təmizləmə həyata keçirdiyinə dair sərsəm təbliğat aparmağa başladı. Rəsmi İrəvan bu dəfə erməni sakinlərin qayıdışı məsələsini Azərbaycanla müzakirə predmetinə çevirməyə girişdi. Amma mövcud istiqamətdəki cəhdlər də puça çıxdı. Nəhayət, Prezident İlham Əliyevin də bildirdiyi kimi, sülh danışıqları real, yəni, belə demək mümkünsə, Qarabağsız məcraya qədəm qoydu.

İndi qondarma rejimin buraxılmasına dair “fərmanın” heç bir hüquqi əsasının olmadığını bildirən İrəvanda məskunlaşmış beş-altı separatçı onu da deyir ki, sözügedən kağız parçası, guya, Qarabağ ermənilərini qırğından qurtarmaq məqsədi daşıyırmış. Sanki, Azərbaycan Ordusu dinc insanları qanlarına-qəltan edəcəkmiş. Əslində, Qarabağın erməni əhalisinin bölgəni tərk etməsini də bu sayaq cəfəngiyyatlar şərtləndirib. Sıravi ermənilər rəsmi İrəvan tərəfindən dəstəklənən təbliğatın təsiri ilə qorxuya düşüblər. Məhz qorxunun nəticəsindəki davranış, yəni köç erməni iqtidarının anti-Azərbaycan fəaliyyətinə yeni motiv qazandırıb. Söhbət haqqında söz açdığımız etnik təmizləmə şousundan gedir. O şou ki, məğzində Qarabağ ermənilərinin taleyi ilə manipulyasiya dayanmışdı və yenə aktuallığını saxlayır.

*

Onu da bildirək ki, Paşinyan iqtidarı ilə canını tapşırmış separatçı rejim arasında hər zaman ixtilaf yaşanıb. Birinci ikincini Qarabağ avantürasının davamı baxımından etibarlı saymayıb. Nikol Ermənistanda köhnənin qalığı olan dövlət aparatına qarşı repressiv metodlara əl atdığı kimi, Qarabağdakı xuntanın tərkibinə də “əl gəzdirmək” istəyib. Lakin buna müvəffəq ola bilməyib. Ola bilər, mövcud istiqamətdə zəruri “mexanizm” tapmayıb.

Ona görə də Paşinyan 2019-cu ildə Xankəndidə “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını səsləndirdi. Əlbəttə, bu bəyanat Azərbaycanla danışıqlar prosesini pozmaq yönümlü destruktiv yanaşma, xalqımızın heysiyyatına toxunmaq idi. Ancaq məsələyə digər aspektdən də yanaşaq. Nikolun sərsəmliyi, eyni zamanda, erməni avantürizmini keçmişin qalığı olan separatçıların inhisarından çıxarmaq əzminin göstəricisi idi. Paşinyan avantürizmin mövcudiyyət trayektoriyasını fərqli axara daşımaq istəyirdi. Nikolun düşüncəsinə görə, Qarabağ Ermənistandırsa, deməli, oradakı idarəçiliyi də İrəvan tənzimləməli idi.

Daha dəqiq desək, Ermənistan Koçaryanlı və Sarkisyanlı Qarabağ klanından qurtulubsa, Qarabağın özündə də klana yaxın strukturun aradan qalxmasına ehtiyac duyulmuşdu. Həm də ona görə ki, keçmişin təcrübəsi var. Axı 1998-ci idı Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanı devirən, 2018-ci ilədək hakimiyyəti zəbt edən həmin klan olmuşdu. Aydındır ki, Paşinyan qazanın qaynamasına, özünün də nə vaxtsa həmin qazanda yanmasına yol verə bilməzdi. Lakin, necə deyərlər, bu həna, o həna deyildi.

*

Əlqərəz, hazırda İrəvanda məskunlaşmış beş-altı separatçı müxtəlif “hüquqi” əsaslandırmalar aparıb, öz aləmində Ermənistan XİN-ə qarşı çıxdığını göstərirərək bildirir ki, xunta rejiminin buraxılmasına dair “fərman” etibarsız olduğundan, erməni baş diplomatiya idarəsinin Ermənistan və Azərbaycan arasında dövlətlərarası münasibətlərin tənzimlənməsində “Artsax” və onun “xalqı” məsələsini gündəliyə salmaq üçün heç bir hüquqi maneəsi yoxdur.

Göründüyü kimi, separatçılar Paşinyan iqtidarını gözdən salmaq istəyirlər. Yəni, bildirirlər ki, Nikol və tərəfdarları Qarabağla bağlı Azərbaycana qarşı heç nə edə bilmədilər, yalandan “fərmanı” əsas kimi götürməsinlər, bəhanə gətirməsinlər. Separatçıların yanaşmaları yerindədir. Yəni, məsələn, Ermənistan parlamentinin spikeri, hakim komandanın üzvü Alen Simonyan deməməlidir ki, Qarabağı istəyirdinizsə, döyüşərdiniz, bölgədən qaçmazdınız. Skiper həm də ona görə belə danışmamalıdır ki, bölgənin sıravi sakinləri məhz rəsmi İrəvanın təhriki ilə ərazidən çıxıblar.

*

Ermənistan XİN-in İrəvandakı separatçıların qəzəblə qaşıladıqları bəyanatı ilə əlaqədar daha bir vacib məqamın üzərində dayanaq. Məlumdur ki, Paşinyan hakimiyyətinin təmsilçiləri zaman-zaman Rusiyanı Ermənistanın maraqlarını qorumamaqda, nəinki 44 günlük müharibədəki məğlubiyyətdə, o cümlədən Qarabağın ermənisizləşdirilməsində günahlandırıblar. Rəsmi Moskvanın cavabı isə bu olub ki, Nikol Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığından, Rusiya heç nə edə bilməzdi. Yəni, bu, fikir Bakı ilə İrəvan arasındakı konfliktin bütün mahiyyətinin məhz Qarabağ olduğunun vurğulanmasıdır. Ermənistan XİN isə bəyanatı ilə bəlkə fərqinə varmadan məhz həmin mahiyyətdən söz açıb.

Yəni rəsmi İrəvan separatçı rejimin özünü buraxmasına dair “fərmanın” Qarabağ erməniləri ilə bağlı məsələni Azərbaycan və Ermənistan arasındakı sülh gündəminə daxil etməyə maneçilik törətdiyini bildirirsə, o zaman Paşinyan və komandası nə üçün Rusiyanı günahlandırırdı? Axı Moskvanın dolayısı ilə vurğuladığı həm də bu idi ki, Ermənistan dövlət səviyyəsində separatçı rejimi rəsmən tanımayıb. O zaman necə olur ki, indi erməni baş diplomatiya idarəsi heç vaxt tanımadığı saxta quruluşun “qərarını” əsas götürməkdən danışır?

Ermənistanın Azərbaycana qarşı, təzahür formalarından asılı olmayaraq, ərazi iddiasının haqsız və ədalətsizdir. Prezident İlham Əliyevin bildirdiyi, eyni zamanda, bu idi ki, 2024-cü ilin yanvarınadək rəsmi İrəvan tərəfindən ayrı-ayrı mənfi təzahürləri danışıqlar prosesinə daxil etmək cəhdləri qeydə alınıb. Ölkəmizin qətiyyəti, iradəsi və gücü sayəsində belə sərsəmləmələrə meydan verilməyib.

Amma demək olmaz ki, Ermənistan Azərbaycana qarşı ərazi iddiasından əl çəkib. İrəvan Bakının ATƏT-in Minsk qrupunun ləğvi üçün müştərək müraciət və Ermənistan konstitusiyasına dəyişiklik tələbini yerinə yetirməkdən boyun qaçırırsa, deməli, yarıcan vəziyyətdə olan erməni avantürizmi, obrazlı desək, onun üçün qazılmış qəbirə enmək niyyətində deyil. “Dəmir yumruq”dan sonra “polad təpik”-mi istəyir, bunu zaman göstərəcək.

*

Sonda bir məqama da nəzər salaraq deyək ki, hazırda İrəvanda keçmiş separatçı rejimdən qalma tör-töküntülər səslərini çıxara bilirlərsə, bu, heç də adi məsələ sayıla bilməz. Hər halda, belələrinə Ermənistan hakimiyyətinin özünün şərait yaratdığının əlavə sübuta ehtiyacı yoxdur. Axı erməni iqtidarına Qarabağ ambisiyasının hansısa formada saxlanılması vacibdir. Paşinyan və komandasının üzvlərinin separatçıların qalıqlarından zəhlələri getsə də, sözügedən ambisiyanı gündəmdə saxlamaq naminə ikincilərdən, habelə Ermənistandakı müxalif revanşistlərdən “yararlanırlar”. Onlar dillərində sülh, niyyətlərində riyakarlıqla hərəkət edirlər. Nə zamanadək?

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

**REPLİKA**

# Gələrsən, görərsən!

**Avropada daşnak-separatçıların, revanşistlərin küyünə gedənlərin sayı az idi, biri də bu yandan çıxdı. Sərlövhədəki xitabımız Avropa Şurasının insan haqları üzrə komissarı Maykl O'Flahertiyə ünvanlanıb. Avropa Şurası Parlament Assambleyasının (AŞPA) plenar iclasında alovlu çıxış edən komissar O'Flaherti Bakıda “qanunsuz saxlanılan erməni məhbuslara və onlara qarşı aparılan saxta məhkəmə proseslərinə” toxunub. O qeyd edib ki, “regionda hər bir insanın hüquqlarına diqqət yetirmək, eləcə də Qarabağa qayıtmaq istəyənlərin özəl hüquqlarını təmin etmək lazımdır”.**



“Bakıda “qanunsuz saxlanılan erməni məhbusları” məsələsinin AŞPA-nın insan haqları üzrə komissarı kimi onun üçün prioritet sayıldığını tribunadan “qürurla” bəyan edən Maykl O'Flaherti erməni məhbusların saxlanma şəraitini və onların keçdiyi məhkəmə proseslərini diqqətlə izlədiyini bildirib.

Qarabağdakı qeyri-qanuni, separatçı rejimin “başbilənlərinin”, törətdikləri konkret əməllərinə görə məhkəmə prosesinin keçirildiyi təqsirləndirilən şəxslərin qara dosyelərindən xəbərsiz olan cənab O'Flaherti AŞPA-nın plenar iclasında Ermənistanın bu qurumdakı nümayəndə heyətinin üzvü Armen Gevorkyanın bu barədə sualını cavablandırarkən deyib: “Mən Bakıya səfərlə bağlı Azərbaycan hökuməti ilə danışıqlar aparıram. Bu, həm onlardan, həm də məndən müəyyən vaxt tələb edir”.

“Mən Bakı ilə üçüncü, dördüncü dəfə əlaqə saxlayacağam. Mən mütləq bu ölkəyə getmək və bu ölkənin özündə insan haqları ilə bağlı problemləri həll etmək istəyirəm” – deyən M.O'Flahertinin hay təbliğatına uyduğu şübhə doğurmur. Onun haypərəstliyinin əsl səbəbi isə dosyesində “gizlənir”. Deməli, Şimali İrlandiya əsilli Maykl O'Flaherti hüquq təhsilinə yiyələnib, bir neçə il bu sahədə çalışdıqdan sonra Romadakı Papa Qriqorian Universitetində katolik ilahiyyatı üzrə təhsil alıb. 1987-ci ildə keşiş təyin edilib, intəhası, az sonra bu “postundan” istefa verib. Əgər, o, Roma universitetində qriqorianlığı öyrənibsə, onda hay xəstəliyinə yoluxmaması mümkün deyildi. Onun haylara gizli sevdası buradan qaynaqlanırmış.

A.Gevorkyan O'Flahertiyə müraciətində maraqlı bir faktın üstünü açıb. O, komissara xatırladıb ki, bir neçə həftə əvvəl Bakıda saxlanılan erməni məhbuslardan biri Ruben Vardanyanın beynəlxalq vəkilinin ifadəsini ona təqdim edib. Guya, vəkil həmin arayışında “Bakıda erməni məhbusların dözülməz saxlanma şəraiti barədə” məlumat təqdim edib. ABŞ-dakı erməni lobbisinin satın aldığı şübhə doğurmayan donosbaz vəkilin ifadəsində daha nələri üfürdüyünü təxmin etmək olar. Əslində, bütün bunların hay dezinformasiyası olduğunu öz gözləri ilə görüb, qulaqları ilə eşitməsi üçün M.O'Flahertinin Bakıya gəlməsi məsləhətdir.

Müqayisə bir qədər qüsurlu görünə bilər. Amma Şəki xanı Hacı Çələbi xanın Nadir şaha cavabı ilə irlandiyalı hüquq müfiəçisinin Bakıya səfərlə bağlı müraciətləri də mahiyyət etibarı ilə eyni xarakterli hesab oluna bilər. Sadəcə olaraq, fərq ondadır ki, O'Flaherti buranı işğal etməyə deyil, “insan haqları ilə bağlı problemləri həll etmək” üçün gəlmək istəyir. Buyursun gəlsin, görsün və orada eşitdiklərindən deyil, burada gördüklərindən nəticə çıxarmaq imkanı qazansın.

***İ.HƏSƏNQALA***
***XQ***

---

# Ceyhun Bayramovun Əbu-Dabi görüşləri



**Aprelin 7-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Əbu-Dabi Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər naziri Abdullah bin Zayed Əl Nəhyan ilə görüşüb.**

Görüş zamanı Azərbaycan-BƏƏ əməkdaşlığının siyasi, iqtisadi, ticarət, energetika, humanitar aspektləri, regional və beynəlxalq təşkilatlar çərçivəsində tərəfdaşlıq, habelə bölgədə cari vəziyyət müzakirə olunub. İki ölkə arasında energetika, xüsusilə də alternativ enerji sahəsində aparılan işlər məmnunluqla qeyd olunub.

Ölkələrimiz arasında əməkdaşlığın inkişafında siyasi dialoqun, o cümlədən siyasi məsləhətləşmələr mexanizminin əhəmiyyəti qeyd olunub.

Ceyhun Bayramov qarşı tərəfi postmünaqişə dövründə regional bərpa və sülh gündəliyi barədə ətraflı məlumatlandırıb, BƏƏ-nin minasızlaşdırma sahəsində dəstəyinin, eləcə də işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirdiyi dəstəyin əhəmiyyəti məmnunluqla qeyd olunub.

*

**Xarici işlər naziri Ceyhun Bayramov Əbu-Dabi şəhərində İsrail Dövlətinin xarici işlər naziri Gideon Saar ilə də görüşüb.**



Görüşdə iki ölkə arasında siyasi, iqtisadi, ticarət, investisiyalar, humanitar sahələr üzrə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın rolu qeyd olunub.

Ölkəmizin Yaxın Şərq regionunda sülhün və sabitliyin bərqərar edilməsini, o cümlədən İsrail–Fələstin münaqişəsinin beynəlxalq hüququn normaları əsasında sülh yolu ilə həlli prosesini dəstəklədiyi bir daha qeyd olunub.

Qarşı tərəf işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhdidi ilə mübarizə səyləri, habelə Azərbaycan-Ermənistan sülh prosesi barədə ətraflı məlumatlandırılıb.

***XQ***

# Azərbaycandan Avropaya enerji körpüsü

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, müasir dövrdə enerji təhlükəsizliyi anlayışı artıq yalnız iqtisadi və texniki məsələ kimi deyil, milli təhlükəsizlik konsepsiyasının ayrılmaz tərkib hissəsi kimi qiymətləndirilir. Bu yanaşma xüsusilə qlobal enerji bazarlarında qeyri-sabitlik, təchizat zəncirlərindəki fasilələr və geosiyasi risklərin artdığı bir dövrdə daha da aktuallaşmışdır.

Bu çərçivədə enerji diplomatiyası da sürətlə transformasiya olunur. Əgər əvvəlki dövrlərdə enerji siyasəti daha çox "sərt güc" – yəni enerji resurslarından təsir və təzyiq vasitəsi kimi dəyərləndirilirdisə, bu gün Azərbaycan bu siyasəti "yumşaq güc" elementləri ilə birləşdirərək hibrid diplomatik model qurmağa nail olmuşdur. Bu model enerji resurslarının yalnız iqtisadi gəlir mənbəyi kimi deyil, həm də beynəlxalq əməkdaşlıq, texnologiya mübadiləsi, birgə investisiyalar və dayanıqlı bir masa arxasına toplayan və qarşılıqlı faydalı əməkdaşlıq imkanları yaradan lider dövlətə çevrilir.

Bir vaxtlar yalnız konseptual bir ideya olan Cənub Qaz Dəhlizi bu gün real nəticələr doğuran, Avropanın enerji təhlükəsizliyinə töhfə verən strateji bir layihəyə çevrilib. 25 milyard kubmetrdən çox ixrac olunan təbii qazın 13 milyard kubmetri Avropa İttifaqına üzv ölkələrə yönəldilib. Azərbaycanın bu istiqamətdəki fəallığı onun Pan-Avropa qaz təchizatçısı statusunu təsdiqləyir. Amma, bu, sadəcə olaraq, ixracın həcmi ilə ölçülmür – həm də etimadın, qarşılıqlı maraqların və dayanıqlı əməkdaşlığın göstəricisidir.

Bununla yanaşı, müzakirələr yalnız təbii qazla da bitmir. Eyni tribunalarda bərpa olunan enerji, enerji saxlanması və hidrogen texnologiyaları kimi mövzular da geniş şəkildə müzakirə edilir. Avropa Komissiyasının yüksək səviyyəli rəsmiləri də Azərbaycanı bu sahədə etibarlı və uzunmüddətli tərəfdaş kimi qiymətləndirərək,



dılmasına şərait yaradır. Bu modelin əsasında isə liderlik, siyasi iradə və uzunmüddətli baxış amilləri dayanır. Cənub Qaz Dəhlizi ideyasının ilk dəfə irəli sürüləndə qarşılaşdığı texniki və siyasi baryerləri xa-




inkişaf sahəsində tərəfdaşlıqlar qurmaq üçün alətə çevrilməsi ilə səciyyələnir. Bakı şəhəri bu proseslərin mərkəzində duraraq regional enerji diplomatiyasının koordinasiya mərkəzinə çevrilmişdir. Burada keçirilən beynəlxalq toplantılar, nazirlər səviyyəsində dialoqlar və çoxtərəfli forumlar vasitəsilə Azərbaycan tərəfdaş ölkələri ölkənin enerji diplomatiyasının beynəlxalq əlaqələrdəki vacib rolunu təsdiqləyirlər.

Dünyanın ənənəvi enerji mənbələrindən tədricən uzaqlaşdığı bir dövrdə Azərbaycan təbii qazla sabitlik təklifini verməklə yanaşı, həm də "yaşıl enerji" ilə gələcək perspektivlər vəd edir və enerji diplomatiyasının yeni bir modelinin yaratırlasaq onda bir daha aydın olur ki, bu gün onun uğurlu fəaliyyəti sadəcə, mühəndislik nailiyyəti deyil, həm də ən böyük diplomatik qələbədir.

***Şəbnəm ZEYNALOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

**Replika**

# Arşakyan da populist çıxdı

*Erməni viste-spiker Özbəkistanda hansı "mahnını" oxudu?*

**Bir müddət əvvəl Ermənistan parlamentinin Xarici əlaqələr komitəsinin sədri, hakim "Vətəndaş sazişi" partiyasının deputatı Sarkis Xandanyan sülh müqaviləsinin mətni ətrafında parlametlərarası müzakirənin təşkili ilə bağlı azərbaycanlı həmkarı Səməd Seyidova təklif ünvanladığını bildirmişdi. Xandanyanın dediyinə inansaq, cənab Seyidov bu təklifinə görə erməni həmkarını "populist" adlandırıb.**

Əlbəttə, deyə bilmərik ki, azərbaycanlı komitə sədri belə bir ifadəni işlədib, yoxsa yox. Ancaq işlədibsə, lap doğru edib. Çünki sülh müqaviləsinin imzalanmasına dair Azərbaycanın irəli sürdüyü iki şərt var. Söhbət ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı Bakının və İrəvanın birgə müvafiq müraciət ünvanlamasından və Ermənistan konstitusiyasının dəyişdirilməsindən gedir. Bir sözlə, Azərbaycan dövləti erməni işğalı və ərazi iddiası üçün hansısa tutacaq yerinin qalmamasında israrlıdır və məsələ prinsipial əhəmiyyət daşıyır. Populizm isə bu prinsipiallığı ciddi qarşılamamaq, gəlişigözəl ifadələrlə siyasi gəzişmələrə baş vurmaqdır.

Əlbəttə, erməni iqtidarının populistlərdən təşkil olunduğunu yaxşı bilirik. Nəzərə alaq ki, baş nazir Nikol Paşinyan da 2018-ci ildə xalqa belə vədlər verərək hakimiyyətə gəlib. Balıq isə başdan iylənir. Ancaq bir qədər konkretləşdirərək onu da bildirək ki, Ermənistan parlamentində S.Xandanyandan başqa da "populist" peyda olub. Erməni Milli Assambleyasının vitse-spikeri Akop Arşakyan Parlamentlərarası İttifaqın Özbəkistanda keçirilmiş 150-ci assambleyasındakı çıxışında rəsmi İrəvanın "sülh qaranquşluğunu" əks etdirən pafoslu fikirlər səsləndirib. O, ölkəsinin inkişafı ilə bağlı boğazdanyuxarı danışdıqdan sonra Azərbaycan – Ermənistan sülh prosesinin üzərinə gəlib. Barışın əldə olunmasının bəzən çətin proses olduğunu bildirən A.Arşakyanın sözlərinə görə, mövcud istiqamətdəki səylər səmərə verir.

Əlbəttə, biz də razıyıq ki, Bakı ilə İrəvanın sülh müqaviləsinin bütün bəndlərini razılaşdırmaları müsbət haldır və pozitiv ab-hava yaradır. Amma yuxarıda vurğuladığımız iki şərt var. O da məlumdur ki, rəsmi Bakı sözügedən razılığın əldə edilməsi ilə pararlel şəkildə həmin şərtlərin gündəmdə olduğunu açıqlamışdı. Bu, Azərbaycanın həmişəki mövqeyinə sadiqliyinin göstəricisi idi. Lakin erməni tərəfi, xüsusən baş nazir N.Paşinyan dərhal bildirdi ki, Ermənistan konstitusiyasının dəyişməsinə ehtiyac yoxdur. ATƏT-in Minsk qrupunun ləğvinə gəlincə, məsələyə yalnız sülh müqaviləsi imzalandıqdan sonra baxıla bilər. Ardınca isə erməni silahlı qüvvələri şərti sərhəddə atəşkəs rejimini pozdular. Belə hallar bu gün də davam edir...

Uzun sözün qısası, hər şey ortadaykən, A.Arşakyanın nüfuzlu tribunadan sülh müqaviləsinin imzalanmasından danışması, Ermənistanın buna hazır olduğunu yüksək səslə bəyan etməsi, yumşaq desək,



populistlikdir. Nəzərə alaq ki, populistliyin pataloji xəstəlik təzahürü boşboğazlıqdır. Ən böyük boşboğazlıq isə erməni vitse-spikerin Azərbaycana ünvanladığı çağırışdır. Qeyd edək ki, Arşakyan çağırışına saxta sentimentalizmə və pafosa bürünmüş ifadələr də qatıb. Elə qatıb ki, sadəlövh adam kövrələrdi: "Azərbaycanı xalqlarımız üçün dinc və firavan gələcəyə doğru bu mühüm addımda bizə qoşulmağa dəvət edirik".

A.Arşakyanın bu fikrindən sonra, istər-istəməz, 1956-cı ildə bəstələnmiş, sözləri Zeynal Cabbarzadəyə, musiqisi Andrey Babayevə məxsus, zamanında böyük sənətkarlarımız Şövkət Ələkbərova və Zeynəb Xanlarova tərəfindən ifa edilmiş "Dostluq" mahnısı yada düşür. Həmin mahnının "qardaş olub Hayastan–Azərbaycan", "Kür, Araz, Ararat, nə gözəldir bu həyat" kimi beynəlmiləl sözləri var idi və keçmiş SSRİ dövründə Azərbaycan–Ermənistan dostluq münasibətlərini tərənnüm edirdi.

Şübhəsiz, diqqətə çatdırdığımız mahnı ideoloji xarakter daşıyırdı. Çünki Sovet İttifaqı rəhbərliyinə ermənilərin Azərbaycana qarşı ərazi iddiasının olduğu yaxşı bəlli idi və bu mənfur niyyət dəfələrlə özünü göstərmişdi. Görünür, musiqi parçası vəziyyəti yumşaltmaq məqsədi daşıyırmış. O da faktdır ki, erməni xəstəliyinin ayıbını, az-maz da olsa, örtən SSRİ idi.

Sovetlər Birliyininin süqutuna doğru hayların Qarabağ avantürası start götürdü. Gənc A.Arşakyanın isə "xalqlarımız" deyərək, Özbəkistanda keçirilmiş mühüm tədbirdə yalnız mahnı oxuması çatışmırdı. Sanki işğal olmayıbmış, sanki iki müharibə baş verməyibmiş və sanki təmsil olunduğu hakim erməni komandası indi də sülh zəngulələri ilə siyasi saxtakarlıq etmirmiş, anti-Azərbaycan təbliğat aparmırmış. Necə deyərlər, utanmasan, oynamağa nə var?

***Ə.RÜSTƏMOV***
***XQ***

# AŞPA Gürcüstan məsələsinə qayıdır

(əvvəli 1-ci səhifədə)






Bununla bağlı Gürcüstan parlamentinin spikeri Şalva Papuaşvili isə bildirib ki, Gürcüstanın keçmiş prezidenti Mixael Saakaşvilini müdafiə edən siyasi qruplar uzun müddətdir ki, AŞPA-dan gürcü xalqına qarşı silah kimi istifadə edirlər. Gürcüstanın qanunverici orqanının rəhbəri xatırladıb ki, hələ 2022-ci ildə həmin qrupların iştirakı ilə bu qurum korrupsiyalaşmış biznes və işgəncə sisteminin yaradıcısı olan Saakaşvilini siyasi məhbus elan edərək onun azadlığa buraxılmasını tələb edib: "Bundan sonra, təbii ki, heç bir qərar və ya qətnamə təəccüb doğurmayacaq".

Papuaşvili onu da xatırladıb ki, bu ilin yanvarında gürcü xalqının suverenliyini pozan qətnamənin qəbulundan sonra Gürcüstan nümayəndə heyətinin bütün üzvləri AŞPA-nı tərk ediblər: "Bu günə qədər Gürcüstan parlamentinin təşkilatda öz nümayəndə heyəti yoxdur. Ona görə də, təbii ki, nümayəndə heyətinin səlahiyyətlərinin tanınması məsələsi də müzakirə edilə bilməz".

Parlamentin spikeri fevralın 5-də AŞPA prezidenti Teodoros Rusopulosa məktubda xatırladıb ki, qurum 2025-ci il yanvarın 29-dakı qətnaməsində Gürcüstan nümayəndə heyətinin etimadnamələrinin tanınması üçün şərtlər qoyub. Bununla da gürcü xalqının öz hakimiyyətini seçməklə bağlı suveren hüququnu pozub: "Çünki AŞPA, nümayəndə heyətinin tanınması üçün ilkin şərt kimi Gürcüstanda təkrar seçkilərin keçirilməsini göstərib.

Habuki oktyabrın 26-da keçirilmiş parlament seçkiləri ilə bağlı iddialar əsassızdır. Seçkilərin saxtalaşdırıldığına dair açıqlamalar heç bir sübuta əsaslanmır və qəsdən siyasi məqsədlə təhrif edilir. Seçki nəticələrinə əsaslı təsir göstərə biləcək hər hansı pozuntu barədə təsdiqlənmiş faktlar mövcud deyil".

Gürcüstan Mərkəzi Seçki Komissiyasından da bildirilib ki, seçkilər qanun çərçivəsində yüksək peşəkarlıqla keçirilib və bu, beynəlxalq müşahidəçilər, o cümlədən ATƏT-in hesabatlarında təsdiqlənib. Bundan əlavə, seçki prosesi ilə bağlı səsləndirilən narazılıqların araşdırılması üçün hüquq-mühafizə orqanlarına müraciət edilib, lakin indiyədək konkret sübutlar təqdim olunmayıb.

Məktubda daha sonra deyilir: "AŞPA-nın gürcü xalqının seçimini tanımaqdan imtina etmək cəhdi təkcə Gürcüstanın suverenliyinə və Avropa Şurasının özünün fundamental dəyər və prinsiplərinə zidd deyil, həm də siyasi motivli qərarın mövcud reallığa məhəl qoymaması və bununla da siyasi qütbləşməni daha da gücləndirə biləcəyinə dair presedent rolunu oynayır. Bu cür hərəkətlər qərəzli siyasi qruplara qisas imkanı verir ki, bu da xalqın suverenliyi kimi demokratiyanın əsaslarına və Avropa Şurasının insan hüquq və azadlıqlarının müdafiəsi kimi prinsiplərinə ziddir. Söz yox ki, bu cür qərarlar, ilk növbədə, inklüzivlik prinsipini pozur və AŞPA-nın özünə ziyan vurur.

...Bunlara baxmayaraq, Gürcüstan Avropa Şurasının xalqın seçiminə hörmət, çoxluğun hakimiyyəti, azlıqların hüquqlarının müdafiəsi və qanunun aliliyi kimi fundamental dəyər və prinsiplərinə sadiq qalır".

Xatırladaq ki, bu il yanvarın 29-da AŞPA Gürcüstanda yeni seçkilərin keçirilməsini tələb edən qətnamə qəbul edib. Həmçinin demokratik mühitdə yeni parlament seçkilərinin keçirilməsi üçün lazımi şəraiti yaratmağa çağırıb. AŞPA-nın qətnaməsindən sonra Gürcüstan nümayəndə heyəti bu qurumda fəaliyyətini dayandırıb. Yenidən Gürcüstanla bağlı müzakirələrin aparılması isə bu ölkənin daxili işlərinə qarışmaq kimi qiymətləndirilir.

Bu arada Qərb ölkələrini və fondlarını "inqilabi əhval-ruhiyyəni" maliyyələşdirməkdə ittiham edən Gürcüstan hakimiyyəti yerli təşkilatlara verilən qrantlara nəzarəti gücləndirir. Bununla bağlı parlamentə "Qrantlar haqqında" Qanuna dəyişikliklər təqdim olunub. Dəyişikliyə əsasən, xarici qrantın alınması üçün hökumətin və ya hökumət tərəfindən müəyyən edilmiş səlahiyyətli şəxsin razılığı tələb olunacaq. Müraciətdən sonra 10 gün ərzində qərar veriləcək.

Onu da qeyd edək ki, bundan sonra seçkidə iştirak edən siyasi partiyalar və şəxslər xarici təşkilatların dəstəyi ilə mühazirələr, seminarlar və digər bu kimi ictimai tədbirlər təşkil edə bilməyəcəklər. Eyni zamanda, xarici təşkilatların özlərinə də gürcü partiyaları üçün mühazirələr, seminarlar və digər ictimai tədbirlər təşkil etmək qadağan olunacaq.

Xatırladaq ki, bundan əvvəl, Qərb fondları qeyri-hökumət təşkilatları vasitəsilə seçkilərə müdaxilədə ittiham edilmişdi. Gürcüstanda aktiv fəaliyyət göstərən 30 min qeyri-hökumət təşkilatının (QHT) 90 faizi xaricdən maliyyələşirdi. Ölkənin 3,7 milyon əhalisi olduğunu nəzərə alsaq, bu, dünyada adambaşına düşən ən yüksək göstəricilərdən biridir. Yəni hər 148 Gürcüstan vətəndaşına, demək olar ki, bir QHT düşür. Onlar uzun illərdir Qərbin ruporu rolunu oynayırlar. Son hadisələr göstərir ki, müxalifət partiyaları və QHT-lər Qərbdən aldıqları plan və tapşırıqlara uyğun davranırlar. Artıq onlar xaricdən icazəsiz qrant ala bilməyəcəklər.

Qadağan olunmuş qrantların verilməsi və qəbul edilməsinə nəzarəti isə Antikorrupsiya Bürosu həyata keçirəcək.

Qanun layihəsinə dəyişikliklərdə istisnaları da var – xüsusilə, hökumətin icazəsinin məcburi olduğu qayda beynəlxalq idman assosiasiyaları, federasiyaları və komitələri tərəfindən verilən qrantlara, Gürcüstan hüdudlarından kənarda orta və ali təhsil almaq və elmi fəaliyyət üçün verilən fərdi təqaüdlərə, eləcə də Gürcüstanda fəaliyyət göstərən beynəlxalq təşkilat tərəfindən verilən qrantlara şamil olunmur. Bildirilib ki, layihəyə sürətləndirilmiş qaydada baxılacaq və qəbul ediləcək.

Yada salaq ki, Gürcüstan Zaqafqaziyada AŞPA-da fəaliyyətini dayandıran yeganə dövlət deyil. Azərbaycan da bu qurumun ikili standartları ilə qarşılaşıb. Ölkəmizin nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyası ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib. Bu qərar AŞPA-da Azərbaycan nümayəndə heyəti üzvlərinin etimadnamələrinin qəbul edilməməsi barədə avropalı deputatların çağırışlarından sonra verilib. Azərbaycanın quruma üzv olduğu 23 ildə keçilən yolun təhlili onu göstərir ki, ermənipərəst, islamofob qüvvələr bu təşkilatdan daim Azərbaycana qarşı vasitə kimi istifadə ediblər. Ölkəmizin müstəqil siyasəti, davamlı uğurları, hazırkı dövrdə ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsi bəzi dairələr tərəfindən böyük qısqanclıq hissi ilə qarşılanıb.

İstər Azərbaycanla, istərsə də Gürcüstanla bağlı yaranan vəziyyət ASPA-ya fayda gətirməyəcək. Ölkələrimizin bu gün beynəlxalq münasibətlər sistemində söz sahibliyi, ədalətə və beynəlxalq hüquqa əsaslanan siyasəti hər bir məsələdə öz sözünü deyəcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Xankəndidə “Yeni dünya nizamı”na çağırışlar



(əvvəli 1-ci səhifədə)

ADA Universitetinin rektoru Hafiz Paşayevin, Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun, Qarabağ Universitetinin rektoru Şahin Bayramovun, eləcə də Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynovun da iştirak etdikləri konfransda Yaponiya, ABŞ, Birləşmiş Krallıq, Çin, Hindistan, İtaliya, Almaniya, İspaniya, Türkiyə, Rusiya, Qazaxıstan, İordaniya Haşimilər Krallığı və digər ölkələrin ekspertləri, beyin mərkəzlərinin mütəxəssisləri müzakirələrə aktuallıq və ideya zənginliyi gətiriblər.

ADA Universitetinin rektoru Hafiz Paşayev forumun açılış mərasimində deyib: “Şanlı Qələbəmiz xalqımız üçün qürurlu 44 günlük döyüş, azadlıq, böyümə, yeni şəxsiyyətlərin yaranması baxımından fürsət oldu. İndi biz Qarabağ Universitetindəyik. Bundan yaxşı nə ola bilər? ADA Universitetini bugünkü konfransda təmsil etmək çox qürurvericidir”.

Hafiz Paşayev daha sonra qeyd edib ki, beynəlxalq məclis iştirakçı ölkələrin nümayəndələri arasında mühüm əlaqələrin qurulmasına imkan yaradacaq: “Bu gün belə bir mötəbər tədbirin iştirakçıları olan bizim üçün çox önəmli gündür. Bu forumun Qarabağ Universitetində keçirilməsi mühüm əhəmiyyət daşıyır. Biz bu gün Azərbaycanımızın adına sevinirik, lakin mən həm də rəhbərlik etdiyim universitetin adına çox sevincliyəm”. Rektor vurğulayıb ki, forumda müxtəlif ölkələrdən olan nümayəndələrin iştirakı onlar arasında mühüm əlaqələr yaratmaq baxımından da çox önəmlidir.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov isə Xankəndidə keçirilən “Yeni Dünya Nizamına Doğru” mövzusunda 7-ci ADA Siyasi Forumunun açılışında bildirib ki, rəhbərlik etdiyi ali təhsil ocağında tələbələrin keyfiyyətli ali təhsil almaları üçün əlverişli şərait yaradılıb. Qarabağ Universiteti “Yaşam boyu təhsil” layihəsini də diqqətdə saxlayır. Bu da təsadüfi deyil. Çünki həm indiki tələbələr, həm də gələcəkdə Qarabağ Universitetini seçəcək gənclər Azərbaycanın inkişafına mühüm töhfələr verəcəklər. Əsas məqsəd də Azərbaycanın ictimai-siyasi, eləcə də elmi həyatına mühüm töhfələr verən gəncləri yetişdirməkdən ibarətdir.

Rektor daha sonra qeyd edib ki, Qarabağ Universitetində müasir, tədqiqata əsaslanan, innovasiya və tələbə yönümlü təhsil modellərini inteqrasiya edirik: “Ümidvarıq ki, gələcək məzunlarımız və indiki tələbələrimiz köhnə həyatlarını, işlərini tərk edərək bölgəmizdə mənalı dəyişikliklərə səbəb olacaqlar. Biz inanırıq ki, bu məqsədlərə çatmaq üçün Qarabağ





Universitetində dünyasəviyyəli akademik mühit yaratmalıyıq. Əlbəttə ki, bunun asan bir iş olmadığını başa düşürük”.

Şahin Bayramovun sözlərinə əsasən, Qarabağ Universitetinin rəhbərliyi innovasiyaları təşviq etməklə rəqəmsal inkişafı sürətləndirməyi qarşıya mühüm vəzifə kimi qoyub. Bunun üçün akademiklər, tələbələr, tədqiqatçılar, biznes ictimaiyyətinin üzvləri, təcrübəçilər, əməkdaşlar bir araya gətirilib. Eyni zamanda, startapları, biznes layihələrini və texnologiyaya əsaslanan təşəbbüsləri dəstəkləyən innovasiya mərkəzi yaratmaq mühüm məqsəd kimi önə çəkilib.

Əlbəttə, bütün bunlar dövrün tələbidir, zamanın gerçəkliyidir, rəqəmsal inkişaf zamanın tələbidir. Rəqəmsallaşma müasir dövrümüzün dinamik sürətlə inkişaf edən, eləcə də bu və ya digər formada milli iqtisadiyyatlara və cəmiyyətlərə öz təsirini göstərən bir prosesdir. Bugün əminliklə qeyd etmək mümkündür ki, informasiya və kommunikasiya texnologiyalarının yeni inkişaf mərhələsinə qədəm qoyması həyatımızın bütün sahələrini transformasiya etmək gücünə malikdir.

Qabaqcıl ölkələrin təcrübəsi də göstərir ki, rəqəmsallaşma prosesi yeni iş yerlərinin açılması, həyat keyfiyyətinin yüksəldilməsi, məhsuldarlığın artırılması, şəffaflığın təmin edilməsi, eləcə də kiçik və orta sahibkarlığın inkişafına töhfənin verilməsi ilə iqtisadiyyata müsbət təsir göstərir.

“Yeni dünya nizamı: İqtisadi transformasiya və rəqəmsal inqilabdan gözləntilər” mövzusunda keçirilən panelin moderatoru ADA Universitetinin prorektoru, Milli Məclisin deputatı Fariz İsmayılzadə forum iştirakçılarına müraciətlə bildirib ki, forumda iştirak etmək üçün Füzuli Beynəlxalq Hava Limanından Xankəndiyədək yolda siz bir sıra dağıntıları gördünüz. Lakin bununla yanaşı, Azərbaycanın burada apardığı quruculuq işlərinin də şahidi oldunuz. Azərbaycan Qarabağda quruculuq işlərini davamlı olaraq aparmaqla regionda sülhə töhfə verir.

Yeri gəlmişkən, Azərbaycan Respublikası Prezidentinin Ağdam, Füzuli və Xocavənd rayonları üzrə xüsusi nümayəndəsi Emin Hüseynov Xankəndidə keçirilən “Yeni dünya nizamına doğru” mövzusunda forumda çıxışında da bu məsələyə toxunub. O, bu gün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında erməni faşizminin yer üzündən vəhşiliklə sildiyi yaşayış sahələrimizin yenidən qurulduğunu diqqətə çatdırıb.

Emin Hüseynov qeyd edib ki, Azərbaycan əraziləri işğal dövründə tamamilə dağıdılıb və məhv edilib. Lakin hazırda aparılan quruculuq işləri Qarabağın regionun mühüm iqtisadi mərkəzinə çevrilməsinə zəmin yaradacaq: “Biz azad edilmiş ərazilərdə ancaq xarabalıq görürük. Bəzi yerlərdə xarabalıq belə qalmayıb. Heç bir mədəni obyekt, toxunulmamış məscid qalmayıb, hətta ağac belə qoymayıblar. Hər şey talan edilib. Bütün bunlar onu sübut edir ki, yenidənqurma prosesi son dərəcə mürəkkəbdir”.

Prezidentin xüsusi nümayəndəsinin sözlərinə görə, hazırda Azərbaycan bir sıra regional infrastruktur layihələrini reallaşdırmaqda davam edir. Burada hava limanı inşa edilib, eyni zamanda, dörd su anbarı, iki su elektrik stansiyası, üç əsas boru xətti inşa olunub. Bundan başqa, səkkiz yaşayış məhəlləsinin tikintisi planlaşdırılır. Onlardan biri artıq inşa edilib. Həmçinin kəndlər layihələndirilir və inkişaf etdirilir. İki yaşayış massivinin üzərində iş gedir, biri artıq inşa olunur. Yenidənqurma layihələri ilə yanaşı, mədəni və tarixi layihələr də var. Bunlar arasında Cümə məscidinin bərpasını qeyd etməliyəm. Bu məscid Ağdamda yerləşir və yeganə tikili idi ki, struktur baxımından salamat qalmışdı, amma başdan-başa təhqir edilmişdi, çünki bu məsciddə donuzlar və inəklər saxlanılmış, tövləyə çevrilmişdi.

Qarabağın kənd təsərrüfatı sektorunda 15-17 min nəfərin işlə təmin olunmasının gözlənildiyini söyləyən Emin Hüseynov bildirib ki, bu, regionda ənənəvi əkinçilik və heyvandarlığın canlanmasına kömək edəcək. Sahibkarlığa və yerli biznesə dəstək nəticəsində isə 10 min –11 500 iş yeri yaranacaq. Bundan başqa, qabaqcıl inkişaf zonalarından biri olan Ağdam Sənaye Parkı istehsal və logistika sektorlarında 5 minə yaxın iş yeri təmin edəcək. Bölgənin mineral ehtiyatlarından istifadə mədənçıxarma və əlaqəli sənaye sahələrində 1500-2000 yeni iş yeri yaradacaq. Mədəni irs obyektlərinin və təbii attraksionların bərpası planları çərçivəsində turizm 1000-1500 iş yeri yaradacaq.

Forumdakı çıxışlarda qeyd edilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” çərçivəsində müasir infrastrukturun qurulması, keçmiş məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıdışı və rahat məskunlaşması üçün yeni yaşayış məntəqələrinin inşası sürətlə davam etdirilir.

Diqqətə çatdırılıb ki, “Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili” prioriteti üzrə 2024-cü ilin sonuna 62 min hektardan artıq ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib. Bu dövr ərzində 1400-dən artıq ailə Laçın, Cəbrayıl, Füzuli, Şuşa və Xocalı şəhərləri, Laçın rayonunun Zabux və Sus kəndləri, Xocalı rayonunun Ballıca kəndinə köçürülüb.

Keçən il ərzində işğaldan azad edilən ərazilərdə 6 ümumi təhsil müəssisəsi fəaliyyətə başlayıb, 3 məktəbəqədər təhsil müəssisəsinin fəaliyyəti təmin olunub. Yaşayış məntəqələrində əlçatan və keyfiyyətli tibb xidmətləri infrastrukturunun qurulması istiqamətində də işlər davam etdirilib. Ərazilərin yüksəkgərginlikli elektrik enerjisi ilə təchizatı üçün 739 kilometr 110 kv-luq, 262 kilometr 330 kv-luq uzunluqda elektrik verilişi xətləri çəkilib, 11 ədəd 110 kv-luq, 1 ədəd 330 kv-luq yarımstansiya tikilib.

Dövlət Proqramı çərçivəsində sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində zəmanət-subsidiya mexanizmi ilə bərabər, güzəştli kredit mexanizmi ilə də dəstək tədbirləri davam etdirilib. Eyni zamanda, Ağdam və “Araz Vadisi İqtisadi Zonası” sənaye parklarında, ümumilikdə, 400-dən artıq müəssisənin fəaliyyəti təmin edilib. Ağdam Sənaye Parkındakı müəssisələrdə istehsal olunan məhsulların ixracına başlanılıb.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan tarixi qələbə ölkəmizdə yol-nəqliyyat məsələləri ilə bağlı vəzifələri və hədəfləri də yeniləyib. İşğaldan azad edilmiş ərazilərdə dövlət başçısının şəxsi nəzarəti ilə dünyanın ən modern yol infrastrukturunun yaradılmasına başlanılıb. İşğaldan azad edilmiş ərazilərdə Prezident İlham Əliyevin şəxsi nəzarəti ilə dünyanın ən modern yol infrastrukturu yaradılması xüsusilə diqqətdə saxlanılıb.

Qeyd edilib ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında icra olunan layihələrin sayı 44-ə, avtomobil yollarının ümumi uzunluğu isə 3 min 40 kilometrə çatdırılıb. Ötən illər ərzində 7 yolun tikintisi yekunlaşdırılıb. Hazırda tikintisi həyata keçirilən 38 layihənin isə 2025-2026-cı illərdə tamamlanması nəzərdə tutulub. Bundan əlavə, 6 şəhərin (Şuşa, Füzuli, Qubadlı, Zəngilan, Kəlbəcər və Cəbrayıl) daxili yollarının, eləcə də 7 kəndə gedən avtomobil yollarının tikintisi davam etdirilib.

Onu da qeyd edək ki, forumda Fariz İsmayılzadə iştirakçılara Xankəndi barədə məlumat verərək bildirib ki, “Xankəndi – Xanın kəndi” mənasını verir: “Xankəndi qədim Azərbaycan diyarıdır. Bu kəndin təməli Qarabağ xanı tərəfindən qoyulub və ondan sonra Azərbaycan Respublikasının vəsaiti hesabına Azərbaycan memarları, inşaatçıları tərəfindən burada böyük şəhər yaradılıb”.

ADA Forumunun artıq 7-ci ildir ki, keçirildiyini vurğulayan Fariz İsmayılzadə qeyd edib ki, biz bu forumu ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirirdik. Bu il isə bizim yeni tərəfdaşımız var və bu, Qarabağ Universitetidir. Bu universitet bütün Azərbaycanın qürur mənbəyidir. Bu təhsil ocağının böyük hədəfləri və planları var. Onlara bu yolda böyük uğurlar arzulayırıq.

***XQ-nin analitik qrupu***

# Azərbaycan – qlobal məkanda regional güc

**Azərbaycan uzun illərdir ki, beynəlxalq münasibətlərdə öz rolunu fəal şəkildə gücləndirir, mühüm tədbirlərin və təşəbbüslərin təşkilatçısı kimi çıxış edir. Avropa və Asiyanın kəsişməsində yerləşməsi ölkəmizi dialoq üçün əlverişli məkana çevirir. Bu mənada, Qarabağ Universitetində 7-ci ADA Siyasi Forumu çərçivəsində 2 mühüm panel sessiyanın keçirilməsi dediklərimizi əyani şəkildə təsdiqləyir.**



Qarabağ Universitetində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin idarə heyətinin sədri Fərid Şəfiyevin moderatorluq edəcəyi birinci paneldə “Geosiyasi dəyişikliklər və onların regional suverenliyə təsiri” mövzusu müzakirə edildi. İkinci paneldə isə “Yeni dünya nizamı: İqtisadi transformasiya və rəqəmsal inqilabdan gözləntilər” mövzusuna həsr olundu. Paneldə müzakirələr ADA Universitetinin prorektoru, Milli Məclisin deputatı Fariz İsmayılzadənun moderatorluğu ilə aparıldı. Müzakirələrdə iqtisadi müstəqillik, texnologiyaların qlobal güc bölgüsünə təsiri və dayanıqlı inkişaf yanaşmaları da gündəmə gətirildi.

Əlbəttə, bu gün müasir dünya qlobal siyasətin, iqtisadiyyatın və cəmiyyətin bütün aspektlərinə təsir edən dərin dəyişikliklər dövrünü yaşayır. Rəqəmsallaşma və texnoloji irəliləyişlər qlobal iqtisadiyyatı və rabitəni kökündən dəyişdirir. Süni intellekt, blokçeyn və digər yeniliklər inteqrasiya proseslərini sürətləndirməklə yanaşı, həm də dünya üçün kibertəhlükəsizlik, məlumatların qorunması və resursların ədalətli bölüşdürülməsi kimi yeni problemlər yaradır. Eyni zamanda, iqlim dəyişikliyi, demoqrafik dəyişikliklər, miqrasiya və pandemiya ölkələr arasında daha sıx əməkdaşlıq tələb edir. Buna görə də, qlobal problemlərin daha effektiv həlli üçün qlobal miqyasda dialoqun aparılmasına həmişə zərurət var.

Bu da bir faktdır ki, geosiyasi dəyişikliklər hökumətlərin və beynəlxalq münasibətlərin müxtəlif aspektlərinə təsir edərək regional suverenliyə əhəmiyyətli təsir göstərir. Burada ilk aspekt güc balansının dəyişməsidir. Belə ki, güclərin geosiyasi balansında dəyişikliklər dövlətlər və regional bloklar arasında təsir dairəsinin yenidən bölüşdürülməsinə səbəb olur. Bu, iqtisadi və hərbi gücü daha az güclü ölkələrin suverenliyini zəiflədə, onları böyük dövlətlərin qərarlarından daha çox asılı vəziyyətə sala bilər.

Regional süverenliyə təsir göstərən ikinci amil iqtisadi qarşılıqlı fəaliyyətdir. Qloballaşma və iqtisadi qarşılıqlı asılılıq müstəqil iqtisadi qərarlar qəbul etməkdə dövlətlərin suverenliyini məhdudlaşdıra bilər. Eyni zamanda, beynəlxalq ticarət müqavilələrinin və maliyyə institutlarının milli iqtisadi siyasətlərə məhdudiyyətlər qoya bilmələrini də qeyd etmək vacibdir. Məsələn, ölkələrə qarşı tətbiq edilən iqtisadi sanksiyalar onların iqtisadi suverenliyini ciddi şəkildə məhdudlaşdırır.

Dövlətlərin süverenliyinə təsir göstərən amillər arasında informasiya sahəsi də var. İnformasiya texnologiyalarının və sosial şəbəkələrin inkişafı informasiya sferasında milli suverenliyə təsir göstərə bilər. Bundan əlavə, informasiya məkanına xarici müdaxilə milli informasiya təhlükəsizliyinə xələl gətirə və ictimai rəyə təsir göstərə bilər. Məsələn, hökumət strukturlarına kiberhücumların həyata keçirilməsi və ya sosial şəbəkələr vasitəsilə seçkilərə təsir göstərilməsi hazırda bütün dövlətləri narahat edir.

Dövlətlərin milli süverenliklətinə daha çox təsir amillər arasında hərbi münaqişələrin yer alması heç kimə sirr deyil. Hərbi münaqişələr və müdaxilələr dövlətlərin suverenliyini birbaşa poza bilən xarici təsirlərdən biridir. Ölkələrin daxili işlərinə kənardan müdaxilənin ərazi və siyasi proseslər üzərində nəzarətin itirilməsinə gətirib çıxara biləcəyi də hamıya məlumdur.

Bütövlükdə, geosiyasi dəyişikliklər dövlətlərin öz suverenliyini qorumaq və beynəlxalq əməkdaşlıqda iştirak etmək arasında tarazlıq yaratmalı olduğu mürəkkəb və dinamik mühit yaradır. Bu mənada, strateji mövqeyi, zəngin resursları və aktiv xarici siyasəti Azərbaycanı sürətlə dəyişən beynəlxalq müstəvidə mühüm oyunçuya çevirir. Qlobal koordinat sisteminin transformasiyası kontekstində ölkəmiz nəinki uyğunlaşmağa, həm də yeni dünya düzəninin formalaşmasına da öz töhfəsini verir.

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycanın 2020-ci ildə Qarabağ münaqişəsində qələbəsi və 2023-cü ildə ərazilərin yekun olaraq qaytarılması ölkənin beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirdi. Bu, həm də infrastruktur layihələrinə (Zəngəzur dəhlizi) təkan verdi, Azərbaycanın Xəzər, Transqafqaz və Avropa arasında tranzit qovşağı kimi əhəmiyyətini artırdı. Buna görə də, birmənalı şəkildə deyə bilərik ki, yeni dünya düzənində Azərbaycan Şərqlə Qərb arasında, sadəcə, “körpü” deyil, Bakı regional proseslərə təsir göstərmək və qlobal transformasiyada iştirak etmək iqtidarında olan müstəqil aktordur.

Beləliklə, hadisələrin gözlənilməz hala gəldiyi bir dünyada milli maraqların qorunması ilə bərabər sürətlə dəyişən dünyada qarşılıqlı hörmətə əsaslanan güclü əlaqələrin yaradılması istiqamətində güclü siyasət yürüdən Azərbaycan nümayiş etdirir ki, yeni geosiyasət şəraitində hər hansı bir hərbi və iqtisadi bloklara qoşulmayan dövlətlər ancaq düşünülmüş strategiya əsasında öz suverenliyini möhkəmləndirə bilər və dialoqun fasiləsiz aparılması, eyni zamanda, hər bir dövlətin prioritet saydığı sahələrdə əməkdaşlığın gücləndirilməsi strateji vəzifə olaraq qalmalıdır.

Əlbəttə, qlobal risklər hər zaman olacaq və məhz strateji düşünən dövlətlər sürətlə dəyişən reallıqlara uyğunlaşa biləcəklər. Azərbaycan yürütdüyü siyasət ilə sübut edir ki, geosiyasi dəyişikliklərin özü ilə gətirdiyi yeni çağırışlara adekvat cavab vermək potensialına malikdir. Coğrafiya tale olaraq qalır, lakin XXI əsrdə tale öz hüdudlarından daha geniş düşünə bilənləri də sevir. Azərbaycan məhz belə düşünən və siyasət yürüdənlərdəndir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Müasir Azərbaycan ərazisinin siyasi-coğrafi obrazı və milli ideya



I MƏQALƏ

### Ərazinin coğrafi obrazının fəlsəfəsi

İlk baxışdan coğrafi ərazi ilə milli ideya arasında hansı əlaqənin olması məsələsi absurd görünə bilər. Klassik elmi təsəvvürlər prizmasında, bu, doğrudan da, belədir. Lakin XX əsrin sonu XXI əsrin əvvəllərindən bir sıra filosof, coğrafiyaçı, kulturoloq, soioloq və digər elm adamlarının apardıqları müəyyən araşdırmalar fərqli təsəvvürləri meydana çıxardı. Məsələn, S.Hall, U.Hannerz, M.Xocson, C.Stidman, İ.Vallersteyn, D.N.Zamyatin və başqalarını tədqiqatları ərazinin coğrafi obrazı ilə sosium və dövlətin identikliyinin formalaşması arasında maraqlı bağlantıları üzə çıxardı. Bu tədqiqatlar sivilizasiya, mədəniyyət sistemi, tarixi-siyasi transformasiyalar, geosiyasət, siyasət və digər aspektlərdə aparılmaqdadır.

Məlum olmuşdur ki, hər hansı ölkənin ərazisinin coğrafi obrazı həm tarixi, həm də kültür (mədəniyyət sistemi) mahiyyətlidir. Bununla ərazinin coğrafi obrazının geomədəniyyət, geosiyasət, siyasət, geoiqtisadiyyat kimi anlayışlarla sıx bağlılığını araşdırmaq aktuallığı yaranmışdır. O cümlədən xüsusi virtual coğrafi obrazların formalaşması, funksionallaşması və yayılması prosesi ilə siyasətin, ölkənin və ərazinin mədəni təqdimatının qarşılıqlı asılı olduğu qənaətinə gəlinmişdir.

Nəzəri araşdırmaların incəliklərinə varmadan bizi maraqlandıran problem kontekstində mühüm anlamlara baxaq.

Yuxarıdakı qısa təqdimatdan aydın olur ki, hər hansı ölkənin ərazisinin coğrafi obrazı onun əhalisinin sosial, mədəni, ideya, ideoloji, psixoloji özəlliklərinə ciddi təsir edir. Bu proses uzunmüddətli olduqda həmin faktorlar heyrətedici tərzdə vəhdətdə olur – ölkənin coğrafiyası ilə cəmiyyətin mənəvi-mədəni, ideoloji və s. xüsusiyyətləri bir-birini ideya, təsəvvür və sosial fəaliyyət müstəvisində tamamlayırlar. Bunun fonunda iki anlayışın – “ölkənin ərazi bütövlüyünün pozulması” və “ölkənin pozulmuş ərazi bütövlüyünün bərpası”nın ideya kimi qarşılıqlı əlaqədə dərki məsələsi xeyli aktuallaşır. Həmin kontekstdə də “işğal edilmiş ərazi”, “verilmiş ərazi”, “itirilmiş ərazi” kimi anlayışların konkret cəmiyyətdə necə dərk edildiyi məsələsi də dövlət siyasətinin strategiyası aspektində əhəmiyyətli görünür. Əlbəttə, bizi həmin anlayışların müasir mərhələdə Azəbaycan cəmiyyətində anlamlarının fəlsəfi aspekti maraqlandırır.

Bu məsələnin aktuallığı bizim üçün həm də son illər Azərbaycan əraziləri ilə bağlı aparılan müxtəlif yönlü tədqiqatlarda vurğulanan alnayışlardan fərqli kontekstlərdə istifadə edilməsi ilə bağlıdır. Müstəqil Azərbaycanın dövlətçiliyi inkişaf etdirmək qətiyyəti fonunda ərazi haqqında təsəvvürlərin “necə gəldi” qaydada deyil, elmi əsaslı təsəvvürlərə görə ictimai və elmi mühitə daxil edilməsi çox vacib görünür. Çünki Azərbaycan Respublikası qarşısına çox möhtəşəm, nəhəng və sırf milli maraqlara uyğun məqsədlər qoymuşdur. Onlara çatmaq üçün elm adamları da öz töhfəsini verməlidirlər. Əlbəttə, bu proses kollektiv yaradıcı fəaliyyət tələb edir. İrəli sürülən tezislərin ayrıca müzakirəsi də vacibdir. Müxtəlif aspektlərdən yanaşmalar əsasında “azərbaycanlı üçün ölkə və dövlət ərazisi nə deməkdir?” sualına cavab axtarmaq mümkündür. Burada tarixi bilmək zəruridir, lakin kifayətedici deyildir. Fəlsəfi yanaşma və müxtəlif elm sahələri işığında problemi araşdırmaq olduqca vacibdir. Bu cür kompleks və sistemli tədqiqat olmadan ərazilərimizin coğrafi obrazını milli ideya fonunda adekvat yarada bilmərik.

### Milli düşüncədə ərazi bütövlüyünün pozulması

Biz azərbaycanlılar ərazi bütövlüyünün pozulmasını psixoloji artefakt və ideya olaraq necə təsəvvür edirik? Bu suala müxtəlif aspektlərdə cavab vermək olar. O, adi səviyyədə çox ağrılı və qəbuledilməz məsələ kimi şüurumuzda mövcud idi. Azərbaycan vətəndaşı, ümumiyyətlə, ərazi bütövlüyünün pozulmasına qarşı qəti mövqedədir: torpaqlar geri alınmalıdır. Bu məsələnin siyasi-nəzəri, tarixi, sosial, kulturoloji, ekoloji və s. aspektlərdə izahına da ciddi yer verilirdi. Nümunə kimi, Topxanada bir neçə ağacın qırılmasına Azərbaycan cəmiyyətinin çox çılğın reaksiya verməsini göstərə bilərik. Və yaxud Qarabağda erməni işğalı altında olan yerlərdə meşələrə, çaylara, təbii sərvətlərə olan vəhşi münasibəti qətiyyən azərbaycanlı şüuru götürmədi. Bunları namus qorunması səviyyəsində yaddaşında saxladı. Onun əyani təzahürləri 44 günlük Vətən müharibəsində qabarıq surətdə özünü göstərdi. Belə ki, azərbaycanlılar qalib gəlmək, yəni bizim isanlara, təbiətə, mədəniyyətə qarşı vəhşi münasibətdə olanları Vətəndən qovmaq müqəddəs bir amala çevrilmişdi.

Deməli, azərbaycanlı şüurunda ərazi bütövlüyünün pozulması torpaq, yurd, Vətən, din kimi faktorlarla yanaşı, həm də “təbiət” anlayışı, Qarabağın şüurumzdakı ərazi obrazı kontekstində öncədən (yəni ermənilərin aqressiyasına qədər olan müddətdə) yer tutmuşdu. Azərbaycanlının tarixi yaddaşında yurd¸ yuva, ailə, kimlik qavramları həmişə ərazi ilə sıx bağlı olmuşdur. Azərbaycanlının evinin olduğu məkan onun namus yeri, insan kimi kimliyinin mühüm bir hissəsidir. Onu bizim düşüncəmizdən, həyat tərzimizdən və fərdi ilə yanaşı, sosial kimliyimizdən ayırmaq mümkün deyildir.

Bu qənaət tədqiqatçıların coğrafi ərazinin fərdi və kollektiv şüurda obrazlaşmasında sivilizasiyanın özəlliyinin ciddi rol oynadığı haqqında gəldikləri qənaət fonunda çox əlamətdar görünür. Belə ki, Vətən müharibəsində Azərbaycan dövləti, cəmiyyəti, lideri və ordusunun qalib gəlməsinin kökündə bizim sivilzasiya olaraq fundamental və mental özəlliklərimiz dayanır. Konkret olaraq, hansı əlamətləri nəzərdə tuturuq? Öncə, vacib və incə bir məqama aydınlıq gətirək.

### “Ərazi bütövlüyü”nün siyasi-hüquqi anlayışı

Bizim ünsiyyətdə işlətdiyimiz “ərazi bütövlüyü” siyasi-hüquqi mahiyyətlidir və konkret məzmuna malikdir. Həmin məzmun “bütövlük” anlayışının siyasi və hüquqi anlamının dövlətin (ölkənin) ərazisinə tətbiqi əsasında formalaşır. Onun təsbit edildiyi “yer” isə beynəlxalq sənədlərdir (ümumiləşdiririk - yəni konvensiya, saziş, müqavilə, nizamnamə və s. bir yerdə). Həmin sənədlərdə ərazi bütövlüyü onların imzalandığı (şərtlərin razılaşdırıldığı məqam) zaman-məkan mövcudluğu kontekstində coğrafi ərazinin dövlətə aid olmasının dəqiq fiziki ölçüləri fonunda müəyyən edilir. Məsələn, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkənin ərazisinin bütövlüyünə aid olan bir coğrafi məkan sonrakı mərhələdə yenə də “ərazini bütöv” edən fiziki göstəricilərdən kənarda qaldı. Əgər Azərbaycan SSR zamanında Göyçə gölü Azərbaycanın ərazi bütövlüyünə daxil deyildisə və ya ərazimizin bütövlük rəmzindən kənarda idisə, ona qədər olan müddətdə birbaşa ərazi bütövlüyümüzə daxil idi (torpaq kimi, fiziki-coğrafi vahid kimi, dövlətin ərazisinin bütövlüyü rəmzlərindən biri kimi). Və yaxud sovet dönəmində Azərbaycan SSR-in “ərazi bütövlüyü” real tarixi, coğrafi, ölkə, sosial, mədəni, hüquqi kontekstdən çıxarılır və Kremlin istəyindən asılı olaraq fərqli ölçülər alırdı. Tarixən Azərbaycanın ərazi bütövlüyünün rəmzi olan torpaqlarımızın bir qismi telefon zəngləri ilə Ermənistanın ərazi bütövlüyünün təyinedici faktorlarından birinə çevrilirdi. Və sonrakı mərhələdə əks tərəfin təbliğatı bu yaramazlıqlarının “mədəni”, “tarixi” və “qardaşlıq” izahlarını verməyə başlayırdı. Məsələn, Göyçə gölünü “Göyçə” kimi deyil, “Sevan” kimi mənaladırırdılar və ona erməni anlamında siyasi-tarixi rəng verirdilər.

Əslində, bu anti-sivil və anti-hüquqi ənənə Çar Rusiyası dönəmində başlamışdı. O dövrdə minbir bəhanə ilə erməniləri azərbaycanlıların tarixən var olduqları ərazilərə köçürür və orada coğrafi adları erməniləşdirirdilər. Yəni imperiya yalnız ərazinin tarixi bütövlüyünü pozmaqla kifayətlənmirdi, məqsədyönlü şəkildə onun mədəni, tarixi, siyasi, linqvistik, idarəçilik, psixoloji “bütövlüyü”nü də pozurdu. Bu zaman paralel olaraq təbliğatları ilə azərbaycanlıların şüurunda ərazilərin coğrafi obrazını dəyişərək, qondarma erməni toponimlərindən istifadə etməklə özü, ailəsi, milləti, dövləti və coğrafiyası haqqında təhrif olunmuş təsəvvürlər formalaşdırırdılar. Azərbaycanlılar özləri – özlərinin tarixən malik olduqları coğrafiyaya, sərvətlərə, dəyərlərə şübhə ilə yanaşmağa, hətta onları təzyiq altında inkar etməyə başladılar. Başqa məqamları demirik, sadəcə XX əsrin əvvəllərində Zəngəzurda bizimlə dost olmaq istəməyən dairələrin fəaliyyətinin mahiyyəti və məzmunu ilə 1989-cu ildən başlayaraq Qarabağdakı addımlarını və sonra “20 Yanvar”ı fikrən xatırlayın və müqayisə edin.

Alimlərin apardıqları tədqiqatlar göstərir ki, Rusiya imperiyası Azərbaycanda dövlət ənənəsində mövcud olan qaydaların tam əksinə olaraq özündən qondarma inzibati bölgü aparmışdır. Bu yolla İrəvan quberniyasını Zəngəzurdan ayırmışlar və s.

Bütün bu kimi hadisələr azərbaycanlıların təsəvvürlərində Vətənin tamlığı, birliyi, ərazinin coğrafi olaraq Azərbaycana məxsusluğu ilə bağlı psixoloji natamamlıq kompleksi yaratdı. Bu, bizim milli və dövləti identikliymizə vurulan ən böyük zərbələrdən biridir! Nəticədə orta azərbaycanlılar (bu, dərin düşüncəli, fədakar, cəsur və qorxmaz ziyalılarımıza və siyasi xadimlərimizə qətiyyən aid deyildir, onlar hansı dildə danışmalarından asılı olmayaraq əsl türk, azərbaycanlı vətənpərvər insanlar idilər– F.Q.) coğrafi ərazi məsələsinə tarixi, mənəvi, ideoloji və mədəni həssaslıqlarını qismən itirdilər. Düşmən təbliğatı elə qurulmuşdu ki, harada yaşamasından asılı olmayaraq azərbaycanlı (əsasən türklər) gəlmə idilər. Belə anlatmağa çalışırdılar ki, “nəfəs alırsınız, şükür edin” və “elə müti olun ki, sizi məhv etməyək”! Bu şəraitdə hansı insan üçün ərazi bütövlüyünün coğrafi aspekti ciddi problem ola bilərdi? Mərkəz deyirdi ki, “get sovetlərin hansı regionunda istəyirsən yaşa, hamısı sənindir”! Reallıqda isə azərbaycanlı yerindən, yurdundan olur, yad mədəni dəyərlərin əhatəsində başqalarından asılı vəziyyətdə yaşamalı olurdu.

### Heydər Əliyev məharəti

Bu deqradasiya prosesinin qarşısını Heydər Əliyev böyük məharətlə aldı. Ulu öndər Azərbaycan dilini dövlət dili statusuna yüksəltməkə onun hüquqi, tarixi və siyasi haqqını düşmənlərə qəbul etdirdi. Heydər Əliyev kadrları milliləşdirməklə Azərbaycan SSR-də genişlənən erməniləşmə, ruslaşma, yəhudiləşmə tendensiyasına ciddi zərbələr vurdu. Ümummilli lider sosial-iqtisadi sferada azərbaycanlıların qalib gəlməsini təmin etməklə (bir neçə keçici bayraq almaq, respublikanı iqtisadi baxımdan tam təmin etmək səviyyəsinə yüksəltmək və Azərbaycan elmini xalqa xidmət istiqamətinə yönəltmək əsas əlamətlərdən idi), ümumiyyətlə, respublikada sosial, mədəni, mənəvi və ideoloji mühiti “Azərbaycanlaşdırdı”.

Bu, azərbaycanlıların şüurunda ərazi bütövlüyü anlayışının siyasi-hüquqi anlamı baxımından tarixi dönüş nöqtəsi idi. Ulu öndər hələ sovet dönəmində azərbaycanlıların vətənləri, ölkələri, mədəniyyətləri, sosial-psixoloji həyatlarında “bütövlük” termini kontekstində hansı tarixi faktorları dirçəltdi və hansı yenilikləri gətirdi? Burada azəbaycanlı psixologiyasında “ərazi bütövlüyü” anlamını da şüuraltı aktullaşdıran və ümumi səviyyədə bütövlüyü konseptuallaşdıran siyasi, ideoloji, psixoloji və mədəni məqamlar mövcuddur. Onları sovet dönəmində Heydər Əliyev dil, din, adət-ənənə və bütövlükdə Azərbaycan mədəniyyəti faktorları ilə yanaşı, tarix, elm və ədəbiyyat vasitəsilə rəmzləşdirməyin öhdəsindən gəldi. Bu prizmadan baxanda Heydər Əliyevin nəyə görə Azərbaycan tarixinin düzgün öyrənilməsinin, milli ziyalıların qorunmasının, yazıçı, alim, sənət adamlarının yüksək qiymətləndirilməsinin, dastanlarımızın əhəmiyyətini konkret tədbirlərlə sübut etməsinin səbəbləri daha aydın görünür.

Ümummilli lider tarixi həqiqətlər, mədəni faktlar, elmi təhlillər, yazıçı təxəyyülü, sənətkarların yaratdıqları obrazlar vasitəsilə Azərbaycanın bütövlüyünü qoruyurdu, onu müdafiə edirdi. Göstərirdi ki, Azərbaycan kökü əsrlərə gedən ənənəyə malik məkandır (dastanları var), azərbaycanlı intizamlı dövlət adamı ola bilir, məşhur əsərlər yazır, yüksək qabiliyyətə malik sənətkarlar yetişdirir, Respublika üçün şüurlu surətdə çalışan alimləri ərsəyə gətirir. Yəni Azərbaycan kökü qədimlərə gedən elə bir məkandır ki, onun dövlətçiliyi də, mədəniyyəti də, ərazisi də bütövdür!

“Bütövlüyün” bu cür konseptuallaşdırılması avtomatik olaraq azərbaycanlı şüurunda siyasi-ideoloji və oradan da fiziki-coğrafi ərazi bütövlüyü anlamına aparan siyasi, tarixi və mənəvi-psixoloji yol oldu! Bu, cəmiyyətin, ölkənin və ərazi bütövlüyünün psixoloji dərki baxımından böyük bir çevriliş idi! Ulu öndər azərbaycanlılarda və ölkəmizdə özgüvəni, özünəinamı, milli, mədəni, mənəvi, psixoloji, siyasi-coğrafi bütövlüyə ehtiyac təsəvvürlərini və duyğularını bərpa etdi. Bunun ən yüksək ideoloji zirvəsi Ulu öndərin milli ideyanı “ərazi bütövlüyünün bərpası” kimi müəyyən etməsində təsdiqini tapdı. Bununla azərbaycanlı şüurunda “ərazi btövlüyünün pozulması” obrazı “ərazi bütövlüyünün bərpası” obrazı fonunda neqativ məzmunda görünməyə başladı.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# “Böyük manipulyator”

*Mark ENDEVELD*

*(əvvəli ötən saylarımızda)*

Bu da lap yerinə düşür, çünki Emmanuel Makron 2017-ci ilin fevral ayında Əlcəzairdə səfərdə olanda, ona Malidə və Liviyada vəziyyəti normallaşdırmaq istəyini bildirir. Bu o deməkdir ki, hələ prezidentlik kampaniyasında gələcək prezident Liviya məsələsinə müdaxilə etmək üçün əlaqələr axtarırmış. Çünki 2011-ci ildə Nikola Sarkozi amerikalılarla Liviyaya Qərbin silahlı qüvvələrini yeridəndən bəri orada əsl 224 xaos hökm sürür. O vaxt Qərbin silahlı qüvvələrinin Liviyaya hücumu diktator Müəmmar Qəddafinin süqutu ilə nəticələndi. Daha sonra ölkə parçalandı və bundan da ən çox islamçılar mənfəət götürdülər. Əlcəzair də öz növbəsində Liviyanı odun üstündə olan süd kimi izləyir, ordusunu gizlicə Tunisə göndərir ki, lazım gəlsə, onun bu gənc demokratik qonşusu öz sərhədlərini Liviyadan qoruya bilsin.




2016-cı ilin payızından Yamina Benqiqi Liviya ilə əlaqə qurmaq üçün aktiv fəaliyyətə başlayır. Əslində, o, bu ölkəni heç də yaxşı tanımır. Bəzi həmsöhbətlərinə Yamina özünü Emmanuel Makron üçün işləyən bir adam kimi təqdim edir. Onun tanışlarından biri bizə etiraf etdi ki: “Makronun Əlcəzairə dəvəti onun sayəsində oldu. Yamina hamıya deyirdi ki, Makronun Əlcəzairdə sağ əli özüm olacam. Prezident seçiləndən sonra isə mən Liviyada onun sağ əli olacam...”.

Niyə bu qadın özünə bu qədər arxayındır? Bu gün prodüser heç bir şeyi boynuna almır. Deyir ki, Makronun Əlcəzairə səfərində mənim heç bir rolum olmayıb. Yelisey sarayının müşavirlərindən birinin dediyinə görə, bizim suallarımıza cavab verəndən sonra Yamina tez Bricit Makrona zəng vurub deyib ki, bəs ərin haqqında kitab yazırlar. Bu xəbər Yelisey sarayında hamını panikaya salır və deyilənə görə, prezidentin özünü də “narahat” edir.

### Xarici İşlər Nazirliyi oyundankənar vəziyyətdə

Emmanuel Makron prezident seçiləndən sonra xarici vasitəçilər Liviyaya müdaxilə etmək üçün basabas salacaqlar. Ölkənin şərqinə nəzarət edən Liviya Milli Ordusunun baş komandanı marşal Xəlifə Haftara və Misir tərəfindən dəstəklənən Abu Dabiyə xeyli müraciətlər olunacaq. Bu kontekstdə Yamina Benqiqi Brüsseldə “Robert-Şüman İnstitutu Avropa üçün” adlanan, əməli heç kimə dəqiq bəlli olmayan bir qrupun prezidenti olur. Bu qrupu idarə edənlərin arasında Əbdüləziz Buteflikanın yaxın adamı Əlcəzairli Sumeya Abdelatif da var. Bu, sonuncu, əsasən, diplomatik dairələrlə kəşfiyyat dairələri arasında fırlanır. Əslində, “Robert-Şüman İnstitutu Avropa üçün” qrupundan başlıca olaraq Denis Sassu N’Qesso istifadə edir ki, Avropada öz nöqteyi-nəzərini ifadə edə bilsin. Bir sözlə, bu Robert-Şüman İnstitutu Konqo-Brazzavil padşahının əlində güclü bir silahdır.

Bu qəribə qrupun daxilində Yamina Benqiqi Benabderrahman Tayeb adlı bir tanışını “Afrika və Yaxın Şərq üzrə məsləhətçisi” təyin edəcək. Bu adam Makron prezident seçiləndən az sonra onun Afrikadakı xüsusi elçisi olacaq...

Paralel olaraq Tayeb həm də başqa bir qrupun – “Geopolitik Klubu”nun prezidenti kimi də fəaliyyət göstərir. 2017-ci ildə o, dəfələrlə Konqo-Brazzavilə, Tunisə, eləcə də Yaxın Şərqə səfərlər edəcək. Bu səfərlərdə əsas məqsəd, bir vaxtlar Müəmmar Qəddafi tərəfindən yaradılmış Afrika Birliyinin əli ilə Liviyada sülh yaratmaqdır.

Hakimiyyətə gələn gündən prezident Emmanuel Makron Liviyada “sülhməramlı” rol oynamağı arzulayır. Bunun üçün o, çox məxfi şəkildə bir neçə yaxın adamı ilə Yelisey sarayında Afrikanın həyatını dəyişəcək “diplomatik zərbə” hazırlayır. Onun arzusu Liviya böhranının əsas qəhrəmanlarını bir stol arxasına yığmaqdır. Diplomatik planetdə hələ boşluqdur: Amerika Birləşmiş Ştatlarının könüllü olaraq Avropanın və Afrikanın siyasi səhnəsindən çəkilməsi, eləcə də İtaliyanın Tripolini (Livan) dəstəkləməsini dayandırması, əslində, Makronun xeyrinədir. Ona görə də 40 yaşına çatmamış prezident seçilən Emmanuel dan ulduzu kimi parıldayır. Beynəlxalq mətbuat onun prezidentlikdə atdığı ilk addımları yüksək qiymətləndirir. “The New York Times” və “Washington Post” qəzetlərində Makron liberal Donald Trampa rəqib kimi təqdim olunur. Bu təriflərdən vəcdə gələn Makron indi də Afrikaya böyük siyasi bir zərbə vurmağı planlaşdırır. Ancaq burda da yeni dövlət başçısı kampaniyada zamanı olduğu kimi hər şeyi gizlin idarə edir, yəni həmsöhbətlərinin sayını çoxaldır, ancaq heç birinə əsl niyyətini açmır... Makron həmişə başqaları ilə öz arasında divar çəkir. Onun xisləti belədir. Hətta seçki kampaniyası zamanı onun sirlərinin bir hissəsindən xəbərdar olan sadiq xidmətçiləri belə, indinin özündə də Yelisey sarayında onun gizlilik kultunu davam etdirirlər...

### Liviya ilə bağlı müəmmalar

2017-ci il iyul ayının axırında Yelisey sarayı Parisdən 12 kilometr aralıda yerləşən La Cel-San-Klou (İvlin) şəhərində Liviya ilə bağlı diplomatik konfrans keçiriləcəyini elan edəndə, Xarici İşlər Nazirliyində panika düşür. İnanılmaz görünsə də, nazirlikdə heç kəsin, hətta Xarici İşlər naziri Jan-İv Le Drianın özünün bu məsələdən xəbəri yoxdur. Düzdür, protokol xatirinə Xarici İşlər naziri bu konferansa dəvət olunur, ancaq nə onun fikrini soruşan olur, nə də ona söz verən. “Mən orda sadəcə olaraq, müqəvva kimi bir şey idim”, – deyə nazir acı-acı bir dostuna şikayət edir. Xarici İşlər Nazirliyinin başqa bir diplomatı təəssüflə etiraf edir ki: “Liviya məsələsində biz ancaq icraçı idik...”. Onları başa düşmək olar. Prezident tərəfindən Xarici İşlər nazirinə qarşı bu saymamazlıq onun ətrafındakı diplomatlara çox pis təsir edir. Ona görə bu konfransdan bir neçə ay sonra diplomatlar Yelisey sarayından acıq çıxmaq üçün hər yerdə səs-küy salırlar ki, bəs, “Liviya məsələsini həll edən Xarici İşlər naziri Le Drian olub!”. Nazirliyin nüfuzlu diplomatları şikayətlənirlər ki, prezident və onun ətrafı onların işinə qarışır və Xarici İşlər Nazirliyi ilə “paralel diplomatiya” aparır.

### Afrika biznesi davam edir

Makronun Afrikadakı “diplomatik zərbələri” davam edir. Belə ki, Fransanın dövlət başçısı 2018-ci ilin oktyabrında Beynəlxalq Frankofoniya Təşkilatına (OIF) rəhbərlik etmək üçün Ruandalı Luis Müşikivadonu təklif edir. Qəribə burasındadır ki, Ruanda məktəblərində Fransız dili yox, İngilis dili tədris olunur... Bundan başqa, 2017-ci ildə 98,7 faiz səslə yenidən Ruandanın prezidenti seçilən Pol Kaqam mütəmadi olaraq insan hüquqlarını pozmaqda günahlandırılır.

Makron üçün bütün bunlar o qədər də böyük əhəmiyyət kəsb eləmir. Onu əsas maraqlandıran soyqırımından iyirmi beş il sonra Ruanda ilə münasibətləri sabitləşdirməkdir. Bundan başqa, Fransa prezidenti Afrikanın ingilisdilli ölkələrinin qapılarını Fransız şirkətlərinə açmağa can atır. Xarici İşlər Nazirliyinin təcrübəli bir diplomatı təəssüflə qeyd edir ki: “Makronun Afrika siyasəti yoxdur. Onun Afrika ölkələri ilə bağlı planları sionizm xarakteri daşıyır. Makron və onun ətrafı üçün ancaq bir şey vacibdir – “biznes”. Afrika ölkələrində insan hüquqlarının pozulması onların heç vecinə də deyil”. Diktatorlara da elə lazımdır. (Sinizm əxlaq normalarını, mədəni və mənəvi dəyərləri qətiyyətlə rədd edən, ümumi qəbul edilmiş əxlaq normalarına mənfi və nihilist münasibətdir.)

Makronu Afrikada ancaq “biznes” maraqlandırdığı, onun 2017-ci ilin noyabrında Burkina Fasoda Uaqaduqu universitetinin səkkiz yüz tələbəsi qarşısındakı uzun-uzadı çıxışında daha çox nəzərə çarpır. Nitqinin əvvəlində Fransanın prezidenti iddia edir ki, “Fransanın Afrika siyasəti artıq yoxdur. Mən bura sizə dərs verməyə gəlməmişəm. Afrika ölkələrində azad seçkilər necə təşkil olunmalıdır, konstitusiya necə yazılmalıdır. Bunları sizə Fransa Respublikasının Prezidenti öyrətməli deyil...”.

Çıxışından sonra Fransa prezidenti tələbələrin suallarına cavab verir və cavablarında hətta onlara ata kimi nəsihətlər də verir. Tələbələrdən 229 biri ona Liviyadakı xaosdan sonra gündən-günə artan köləlik haqqında sual verəndə, Makron belə cavab verir: “Onları kölə vəziyyətinə salan kimlərdir? Afrikalıların özləridir də dostum...”.

Başqa bir tələbə qız Burkinada çoxlu Fransız əsgərlərinin olduğunu tənqid edəndə, Makron onun sözünü kəsir: “Siz fransız əsgərlərinin ölkənizdə olmasını ancaq və ancaq alqışlamalısınız!..”. Sonra bu görüşdə kondisionerlə bağlı xoşagəlməz bir hadisə baş verir. Məsələ burasındadır ki, Makronun tələbələrlə görüşü zamanı, prezidentə isti olmasın deyə Fransa səfirliyi zala iki böyük kondisioner gətirib qoşmuşdu. Tələbə qızlardan biri ondan soruşur ki, “siz bu görüşdən gedəndən sonra kondisionerləri də özünüzlə aparacaqsınız, yoxsa onlar bizim üçün qalacaq?”. Bu sualdan sonra Burkina Fasonun prezidenti Kabore nə üçünsə zaldan çıxanda, Fransa prezidenti onun arxasınca baxıb gülür: “Baxın, o, elə kondisioner məsələsini həll etməyə getdi!..”.

Düzdür görüşdən sonra hər iki tərəf iddia edir ki, burda heç bir diplomatik qəza baş verməyib... Makron da RFİ radiosuna verdiyi müsahibəsində bəyan edir ki, “yumor bizim münasibətlərimizin yaxşı olduğuna bir işarədir”.

***(ardı var)***

# Paşinyan gələn il hakimiyyəti itirə bilər

## *Ölkənin ikinci böyük şəhərinin nəzarətdən çıxması yaxınlaşan məğlubiyyətin mesajıdır*

**Martın 30-da Ermənistanın ikinci böyük şəhəri olan Gümrüdə və Sərdarabad vilayətinin (haylar bu tarixi Azərbaycan torpağını "Armavir" adlandırırlar – S.H.) Parakar genişləndirilmiş icmasında keçirilən mer seçkilərinin hakim "Mülki müqavilə" partiyasının məğlubiyyəti ilə başa çatması ölkədə geniş müzakirə edilməkdədir. Nəticələr müxalifət siyasi düşərgəsində canlanma yaradıb. Hakimiyyətin isə qayğılarını və narahatlıqlarını artırıb. İqtidar düşərgəsi bu seçkilərə gələn ilin iyununda baş tutacaq növbəti parlament seçkilərinin məşqi kimi baxırdı. Görünən odur ki, gələn ay hakimiyyətə gəlişinin yeddinci ili tamam olacaq iqtidar bu dəfə sınaqdan çıxa bilməyib.**



Qeyd edək ki, seçkilərin yekun nəticələri Ermənistan mərkəzi seçki komissiyası tərəfindən aprelin 6-da açıqlanıb. Aydın olub ki, Gümrüdə səsvermədə 47 min 434 seçici iştirak edib. Seçici fəallığı 42 faizdən bir qədər çox olub. Nəticələrə əsasən hakim "Mülki müqavilə" partiyası Ağsaqqallar şurasında 14 mandat qazanıb. İkinci yerdə 8 mandatla Ermənistan Kommunist Partiyası qərarlaşıb. "Ana Ermənistan" bloku 2 mandat, "Bizim şəhər" bloku 6 mandat, "Mənim güclü icmam" partiyası isə 3 mandat alıb.

Parakar genişləndirilmiş icmasında səsvermədə 11 min 528 seçici iştirak edib. Seçici fəallığı təxminən 55 faiz təşkil edib. Səsvermənin nəticələrinə görə, "Mülki müqavilə" "Birlik" blokuna uduzub. Beləliklə, hakim qüvvə 7, blok isə 12 mandat əldə edib. "Milli tərəqqi" partiyası 3 mandatla üçüncü yerdə qərarlaşıb.

Məlum olduğu kimi, Gümrüdə "Mülki müqavilə"nin namizədlər siyahısına başçılıq edən şəhər meri vəzifəsinin müvəqqəti icraçısı Sarik Minasyan hakimiyyəti təkbaşına formalaşdırmaq üçün kifayət qədər səs toplaya bilməyib. Müxalifətin namizədi, yəni Kommunist Partiyasının siyahısına rəhbərlik edən və müxalifət arasında ən çox səs toplayan şəhərin keçmiş meri Vardan Qukasyan isə müxalif rəqiblərindən də dəstək qazanıb. Nəticədə şəhərə rəhbərlik etmək imkanı əldə edib. Parakarda keçirilən seçkilər də hakimiyyət üçün eyni dərəcədə uğursuz olub. Burada "Birlik" blokunun lideri və "Həyat üçün ölkə" partiyasının üzvü Volodya Qriqoryan icmanın hazırkı rəhbəri və "Mülki müqavilə"nin üzvü Lüdviq Gülnazaryan üzərində qələbə qazanıb.

Yaranmış vəziyyət baş nazir Nikol Paşinyanı gələn il keçiriləcək seçkilərdə də eyni aqibəti yaşamamaq üçün hərəkətə keçməyə sövq edib. O, adətən, iş gününün sonunda partiyasının qərargahına gedir, burada tərəfdarları ilə saatlarla müzakirələr aparır. Məqsəd parlament seçkilərində məğlubiyyətin qarşısını almaqdır. Ancaq hakimiyyət düşərgəsi son vaxtlar təbəddülatlı günlərini yaşamaqdadır. Elə bir neçə ay öncə hakim partiyanın üzvü olan deputat Ovik Ağazaryanla bağlı baş verənləri yada salmaq kifayətdir. İndi isə iqtidar partiyasının üzvü olan daha bir deputat – Vilen Qabrielyanla bağlı oxşar proseslər yaşanır. Aprelin 8-də Qabrielyanın səlahiyyətlərinə rəsmən xitam verilib. Bu barədə protokolu respublika parlamentinin sədri Alen Simonyan imzalayıb.

Qabrielyan bir həftə əvvəl mandatdan imtina etməklə bağlı ərizə vermişdi. Ermənistan parlamentinin reqlamentinə görə, deputat bir həftə ərzində ərizəsini geri götürməzsə, ərizə qəbul edilmiş sayılır.

Maraqlıdır ki, bu məsələnin də kökü elə Gümrüdə hakimiyyət üçün uğursuz olan seçkilərə gedib çıxır. Qabrielyan martın 30-da şəhərdə seçkilər zamanı jurnalistlərin ünvanına bir sıra təhqiramiz ifadələr işlədib, o cümlədən söyüş söyüb. Onun həmin vaxt sərxoş vəziyyətdə olduğu ehtimal edilir. Daha sonra deputat sosial şəbəkədə paylaşım edərək davranışının yersiz olduğunu etiraf edib.

Bununla belə, V.Qabrielyan "Mülki müqavilə"nin idarə heyətinin üzvlüyünə namizədliyini irəli sürmək niyyətində olduğunu açıqlayıb. Onu da bildirək ki, deputat mandatından imtina edən Qabrielyan 2026-cı ildə hakimiyyətdə olmayacaqları ilə bağlı qalmaqallı açıqlama verib.

Mövcud durumu şərh edən siyasi texnoloq Vigen Akopyan "Sputnik Ermənistan" multimedia mərkəzində keçirdiyi mətbuat konfransında bildirib ki, "Mülki müqavilə" 2026-cı ildə hakimiyyəti itirmək təhlükəsini anlayır. V.Qabrielyanın gələn il hakimiyyətdə olmayacaqları ilə bağlı səs-küylü açıqlamasını şərh edən Akopyan deyib ki, sabiq deputatın bu fikirləri sərxoş vəziyyətdə söyləməsinə baxmayaraq, bu, orada hökm sürən əhval-ruhiyyəni düzgün əks etdirir: "Hakim partiya daxilində kamikadzeləri xatırladan və sona qədər getməyə hazır olan təxminən 7-8 nəfər fanatik, odioz fiqur var. Bununla belə, vəziyyəti az-çox adekvat qavrayanlar da mövcuddur. Onlar məhdud çevrədə, bir-iki qədəhdən sonra, necə deyərlər, içlərini boşalda bilirlər. Yəni ürəklərindən keçənləri deyirlər. Bu insanlar, bütövlükdə, ətrafda nə baş verdiyini anlayırlar. Onların yaxınları var ki, ətraflarında baş verənlərdən narazıdırlar. Vilen Qabrielyanın qalmaqallı bəyanatı da onun gələn il mümkün hakimiyyət dəyişikliyinin baş verəcəyini başa düşdüyünü nümayiş etdirir".

Ekspert hesab edir ki, hakimiyyətin mümkün dəyişilməsindən həm də sosioloji sorğuların nəticələri xəbər verir: "Sorğular obyektiv və subyektiv səbəblərdən ictimai əhval-ruhiyyəni, təbii ki, tam çatdırmır. Lakin, buna baxmayaraq, mövcud tendensiyaların göstəricisidir. Bu sorğulara əsasən, "Mülki müqavilə"nin reytinqi, bütövlükdə, 12 faizə belə çatmır".

Gümrü meri vəzifəsinə namizəd olmuş Ruben Mxitaryan da hakimiyyət dəyişikliyinin baş verməsinin gözlənildiyini bildirib. O, sosial şəbəkə hesabında yazıb: "Hamını təbrik edirik. "Mülki müqavilə" partiyası Gümrü və Parakarda layiq olduğu cavabı aldı. Müxalifət Gümrüdə heç kimə, necə deyərlər, suları bulandırmağa icazə vermədi. Mən müxalifətin digər üç namizədinə də minnətdaram. Ən əsası, hamımız göstərdik ki, prinsiplə yaşaya bilərik. Bizi qarşıda arzuolunan qələbələr gözləyir".

Ermənistanın "Joxovurd" qəzeti isə siyasi dairələrdəki mənbəyə istinadən yazır ki, baş nazir Paşinyan yaxın vaxtlarda İrəvan meri Tiqran Avinyanla bağlı məsələni həll etmək niyyətindədir. Qəzet bildirib ki, Paşinyan hakim partiyadakı "Avinyan qanadını" zərərsizləşdirməyi hədəfləyir, çünki sentyabrda "Mülki müqavilə" yeni idarə heyətini seçəcək. Nəşrin yazdığına görə, aprelin 2-də Paşinyanın sədrliyi ilə keçirilən Korrupsiyaya qarşı mübarizə siyasəti şurasının iclasında QHT sektorunun nümayəndələrindən biri bəyan edib ki, korrupsiya mövzusunun müzakirəsinə "hökumətin ən görkəmli nümayəndəsi, İrəvan merinin korrupsiya mexanizmlərinə qarışması" ilə başlamaq daha düzgün olardı.

Bütün bunlar Ermənistanda siyasi hərarətin yaxın vaxtlarda daha da yüksələ biləcəyini göstərir. Hazırda hər iki tərəf seçkilərə hazırlaşır. Əgər Paşinyan iqtidarı yenidən xalqdan mandat almaq istəyirsə, Azərbaycanla sülh sazişinin imzalanması istiqamətində də səylərini gücləndirməlidir. Sazişin imzalanması iqtidarın xalqa Azərbaycanla sülhün əldə olunmasına dair verdiyi vədlərdən birini yerini yetirməsi demək olardı. Rəsmi İrəvan sülhün müsbət nəticələrini təbliğ etməldir. İqtidar Azərbaycanla son illərdəki müharibənin, Qarabağdakı itkilərin və revanşist ritorikanın cəmiyyətdə yaratdığı travmaları sağaltmalıdır. Eyni zamanda, revanşist ritorikanı zərərsizləşdirmək üçün daha çox ictimai diplomatiya aparmalıdır. Bir sözlə, öz cəmiyyətini sülhə hazırlamağa çalışmalıdır.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**İlyas HÜSEYNOV,**
**politoloq**

– Ermənistanda keçirilən son seçkilər kifayət qədər geniş müzakirə edilir. Ölkənin siyasi hakimiyyəti bunu demokratiyanın nəticələri kimi təqdim etsə də, yekunlar hakim siyasi qüvvə üçün heç də ürəkaçan deyil. Xüsusilə, Rusiyanın 102 saylı bazasının yerləşdiyi Gümrü şəhərində əldə olunan nəticələr bir qədər düşünməyə vadar edir. Belə görünür ki, Ermənistan barədə təhlillərimizdə ölkənin monolit olmaması və hələ də müxtəlif dövlətlərin Hayastan daxilinə nüfuzetmə reallıqları barədə fikirlərimiz öz təsdiqini tapır.

Digər tərəfdən, Paşinyanı hakimiyyətdə görmək istəməyən qüvvələr nəinki ölkə xaricindədir, ölkə daxilində də belə şəxslər çoxdur. Məğlubiyyət və uğursuzluqları Paşinyanın üstünə ataraq siyasi xallar qazanmağa çalışan qüvvələr hər kəsə məlumdur. Bu, nəinki sabiq hakimiyyət nümayəndələrinin cəmləşdikləri Qarabağ klanıdır, hətta vaxtilə Paşinyana dəstək verən, onun ətrafında olan qüvvələr də bu gün hakim dairələri tənqid edirlər. Hesab edirəm ki, əgər Paşinyanı hakimiyyətdən uzaqlaşdıracaq qüvvə olacaqsa, o da vaxtilə Nikolla işləmiş şəxslərdir. Həmin şəxslər bir tərəfdən komandanın bütün daxili "mətbəxini" bilir, digər tərəfdən, bir sıra sirləri geniş ictimaiyyətə açmaqla ifşa kampaniyası nəticəsində Paşinyana qarşı reytinq qazana bilərlər.

Amma maraqlısı budur ki, bu gün "Real Ermənistan" ideologiyası ilə seçkiyə gedən Paşinyana inanan qüvvələr də çoxdur. Paşinyanı Baqrat Qalstanyan, yaxud "Daşnaksütyun" funksioneri İşxan Saqatelyan və ya Qarabağ klanının üzvləri, eləcə də birinci prezident Levon Ter-Petrosyan da devirə bilmir. Bacarsaydılar, bunu edərdilər. Söhbət yalnız növbətçi bəyanatlar verən və Paşinyanla televiziyada debata çıxmaqdan qorxan qüvvələrdən gedir. Bu da Nikola əlavə siyasi dividendlər qazandırır. İctimai rəyin nəticələri fərqli ola bilər. Mən ictimai rəylə işləyən bir analitik olaraq deyə bilərəm ki, burada bir sıra manipulyasiyalar da mümkündür. Ona görə də ölkə daxilində mövcud olan ab-hava, əhalinin vəziyyəti, sosial qayğılar və bu kimi məsələlər seçkilərdə həlledici olacaqdır.

Şübhəsiz ki, bunun Ermənistanla Azərbaycan arasındakı sülh prosesinə də təsiri var. Bizim üçün önəmli olan Ermənistanın Azərbaycanın tələblərini yerinə yetirməsi və sülh müqaviləsini imzalamasıdır. Amma Ermənistanda hakimiyyət dəyişikliyi, siyasi böhran, ictimai narazılıqlar, narahatlıqlar da diqqət çəkən məsələdir. Ona görə də biz bu məsələlərə diqqət ayırır, onları təhlil edir və bölgədə dayanıqlı sülhün təmin olunmasına çalışırıq.

# Zərərçəkənlər: Yaralılara, tibb işçilərinə artilleriyadan atəş açılırdı

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi aprelin 8-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Məhkəmə prosesi zərərçəkmiş şəxslərin dindirilməsi ilə davam etdirilib.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələrini izah edib.

Sonra təqsirləndirilən Ruben Vardanyan və onun hüquqlarını müdafiə edən vəkili Avraam Berman məhkəməyə müraciət edərək məhkəmənin iclas protokolları ilə təkrarən tanış olmaq istədiklərini bildiriblər.

İclasa sədrlik edən Zeynal Ağayev onlara protokollarla tanış olmaq üçün yenidən şərait yaradılacağını deyib.

İclasda Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, Ermənistan dövləti tərəfindən aparılan təcavüzkar müharibənin gedişində çoxsaylı cinayət faktları törətmiş cinayətkar birliyə təqsirləndirilən şəxs Ruben Vardanyan 2020-ci ilin dekabr ayında qoşulduqdan sonra həmin birlik tərəfindən törədilən cinayətlər nəticəsində zərərçəkmiş şəxslər dindirilib.

Zərərçəkən Vahid Əliyev təqsirləndirilən şəxslə tanışlığının olmadığını, R. Vardanyanı sosial şəbəkələr və media vasitəsilə tanıdığını bildirib. O, Ermənistan ordusunun hərbi təxribatı zamanı açılmış atəş nəticəsində yaralandığını, döyüş yoldaşlarının bir neçəsinin isə şəhid olduğunu və müxtəlif xəsarətlər aldıqlarını deyib.

Zərərçəkmiş Anar Cəlalov ifadəsində Ermənistan silahlı qüvvələrinin hərbi təxribatı zamanı atılmış artilleriya mərmisinin partlaması nəticəsində xəsarət aldığını bildirib. O, hadisə zamanı hərbi hissənin qərargah rəisi olduğunu söyləyib və əlavə edib: "Qarşı tərəfdən top atəşləri açılırdı. Həmin vaxt xidmət yoldaşlarımdan xəsarət alanlar və şəhidlik zirvəsinə ucalanlar oldu".

Bundan başqa, zərərçəkmiş Xocavənd istiqamətində atəşkəsin tez-tez pozulduğunu, qarşı tərəfin bütün atıcı silahlardan istifadə etdiyini bildirib.

İfadə verən zərərçəkmiş Emin Şahbazov dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zaman Ağdamda yaralandığını bildirib.

Kəllə-beyin travması almış hərbçi hospitala aparıldığını, orada danışa bilmədiyini, istəklərini həkimlərə yazı vasitəsilə çatdırdığını deyib.

O, yaralanması hadisəsini belə danışıb: "Düşmənin iki postu var idi. Onlar hərbi təxribat törətmək istəyərkən biz bunun qarşısını aldıq. Sonra onların artilleriya hücumu başlandı. Nəticədə, yaralandım.



Müxtəlif hospitallarda müalicə olunmuşam. Müalicəm indi də davam edir".

Zərərçəkmiş Hilal Həsənov dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zaman Ağdərə istiqamətində düşmənin hərbi təxribatının qarşısını alarkən yaralandığını bildirib və deyib: "Düşmən hərbi təxribat törədərək əvvəlcə artilleriya atəşi açır, sonra canlı qüvvə ilə hücuma keçməyə cəhd edirdi, lakin bu təxribatın qarşısı alındı. Şəhidlərimiz, yaralılarımız oldu".

Zərərçəkmiş Zamiq Həsrətov ifadəsində düşmən təxribatının qarşısını alarkən minaatandan atılan atəş nəticəsində yaralandığını deyib.

Zərərçəkmiş Elnur Həsənov dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zaman Ermənistan tərəfinin açdığı atəşlər nəticəsində dəfələrlə yaralandığını bildirib. O, 3 güllə yarası aldığını, bədənində olan qəlpələrdən 70-nin çıxarıldığını, 30-dan artıq qəlpənin hazırda bədənində olduğunu bildirib və deyib: "Hazırda xidmətdəyəm, xidmətimi davam etdirirəm".

Zərərçəkmiş Fariz Manafov da ifadəsində təqsirləndirilən şəxsi sosial şəbəkələr vasitəsilə tanıdığını, yaralandığını bildirib. F.Manafov hadisə zamanı qarşı tərəfin iriçaplı silahlarla və artilleriya silahları ilə atəş açdığını vurğulayıb və deyib: "Xocavənd rayonunun Çartaz kəndi istiqamətində motoatıcı taqım komandiri vəzifəsində xidmət etmişəm. Düşmən tərəfinin təxribatları tez-tez olurdu. İriçaplı silahlardan, artilleriyadan istifadə edirdilər".

O, hərbçi yoldaşlarından 14-nün yaralandığını, 2 əsgərin və 1 nəfər gizirin isə şəhid olduğunu deyib.

İfadə verən zərərçəkmiş şəxs, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində tibb xidməti rəisi olmuş Aqşin Balakişiyev deyib: "Düşmən təxribatı nəticəsində arxa məntəqədə düşmən artilleriyasından açılan atəş nəticəsində yaralandım".

O, çalışdığı səyyar tibb məntəqəsinin döyüş şəraitindən 5–10 kilometr arxada olduğunu, məntəqənin tibb məntəqəsi olmasını göstərən işarənin (qırmızı aypara şəkli) mövcudluğuna baxmayaraq, atəşə tutulduğunu söyləyib: "Orada bütün həkimlərin və sanitarların qollarında qırmızı bayraq olur. Bizim tibb məntəqəmizlə yanaşı, həm sanitar maşınlarımız, həm sanitarlarımız, həm də həkimlərimiz düşmən təxribatı nəticəsində artilleriya zərbələrinə məruz qalmışdı. Yəni beynəlxalq konvensiyanın tələbləri pozulub".

Zərərçəkmiş Habil Quliyev ifadəsində yaralandığını bildirib. "Düşmən mütəmadi olaraq atəş açırdı", – deyə o, əlavə edib.

Zərərçəkmiş Fərhad Tağıyev Ağdamda yaralı hərbi qulluqçuları təxliyə etmək üçün sanitar avtomobillə gedərkən nəqliyyat vasitəsinin vurulduğunu bildirib və deyib: "Avtomobilin üç tərəfi qızıl aypara şəkli ilə işarələnib. Yəni açıq-aydın bilinir ki, bu, yaralıları təxliyə edən maşındır. Maşınımız raketlə vuruldu. Nəticədə, mən və maşında olan digər 4 hərbçi yoldaşım xəsarət aldıq".

Onunla birlikdə həmin sanitar nəqliyyatında olmuş digər zərərçəkmiş Fərid Zeynalov F.Tağıyevin ifadəsini təsdiqləyib. O, maşının idarəolunan raketlə vurulduğunu söyləyib.

Zərərçəkmiş Hicran Sultanov Ağdamda düşmən təxribatının qarşısını alarkən yaralandığını bildirib və deyib: "Qrup komandiri vəzifəsində olmuşam. Döyüş yoldaşlarımızı – yaralılarımızı və şəhidlərimizi təxliyə edərkən tibb maşınını vurmaq istəyirdilər. Tibb maşınını vurmaları alınmadı. Düzgün nişan ala bilməmişdilər, atıcı səhv etmişdi. Hər halda, tank əleyhinə olan "Faqot"u iki nəfərə görə atmazdılar. Əsas mərmi bizdən 10–15 metr aralı düşdü. Bəxtimiz gətirdi ki, olduğumuz yer torpaq idi, boşluq idi. O qədər qəlpənin hamısı üstümüzə gəlmədi".

Zərərçəkmiş Ruslan Heydərov Xocavənddə snayper tüfəngindən açılmış atəş nəticəsində sağ çiynindən yaralandığını bildirib.

Digər zərərçəkənlər – Nəbi Babayev, Vüqar Məmmədov, Emil Nəbiyev, Mahir Zeynalov, Sübhan Əlirzayev, Əfran Kamilov, Təbriz Əhmədov, Cavidan Talıblı, Niyaməddin Əsgərov, Həsən Qurbanov və başqaları ifadələrində qarşı tərəfin müxtəlif silahlardan onların mövqelərinə atəş açdığını bildirib, özlərinin müxtəlif xəsarətlər aldıqlarını deyiblər.

Məhkəmə prosesində zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri də elan edilib.

Məhkəmənin növbəti iclası aprelin 15-nə təyin olunub.

***XQ***

# AİB-in enerji təchizatı zəncirində Azərbaycan önəmli həlqədir

**Asiya İnkişaf Bankı (AİB) gələcək nəsillər üçün böyük miras ola biləcək təhlükəsiz və səmərəli enerji təchizatı zəncirinin qurulması məqsədilə həm Azərbaycanla, həm də Asiya və Avropanın daha geniş coğrafiyası çərçivəsində əməkdaşlığın genişləndirilməsini dəstəkləməyə hazırdır.**




AİB-in Enerji Sektoru Departamentinin direktoru Cunho Hvan Cənub Qaz Dəhlizi və Yaşıl Enerji üzrə Məşvərət Şuraları çərçivəsində nazirlərin Bakıda keçirilən görüşlərində bildirib ki, təmsil etdiyi qurumun enerji siyasəti ekoloji standartlara ciddi riayət etməklə etibarlı, sərfəli və dayanıqlı enerjinin gerçəkləşdirilməsi prinsiplərinə əsaslanır.

Onun sözlərinə görə, iqlim dəyişikliyi və qlobal geosiyasi dəyişikliklər fonunda enerji təhlükəsizliyini prioritet məsələ etmək – özü də təkcə ayrı-ayrı ölkələr üçün deyil, bütün region üçün – həmişəkindən daha vacibdir. Bu, davamlı iqtisadi inkişafın əsasını təşkil edir. Davam edən qeyri-müəyyənlik kontekstində Cənub Qaz Dəhlizinin əhəmiyyəti xüsusilə diqqət çəkir. Bu dəhliz enerji bazarının dayanıqlığını artırmaq və şaxələndirmək üçün həyati vacib marşrut rolunu oynayır.

AİB-in departament direktoru təmsil etdiyi maliyyə qurumunun uzun müddətdir ki, Cənub Qaz Dəhlizinin etibarlı tərəfdaşı olduğunu, 500 milyon ABŞ dollarından artıq məbləğdə qismən kredit zəmanətinin "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsinə qoyulduğunu vurğulayıb.

Yeri gəlmişkən, AİB-in ölkəmizlə əməkdaşlığının bəzi məqamlarını diqqətə çatdırmaq istərdik. Əvvəlcə onu deyək ki, Azərbaycan və sözügedən maliyyə qurumu arasında əlaqələrin həyata keçirildiyi illər ərzində respublikamızın bankla tərəfdaşlığı getdikcə dərinləşib. AİB ətraf mühit, rəqəmsal inkişaf, dövlət – özəl sektor tərəfdaşlığı, enerji, ölkəmizin tranzit-logistika potensialının artırılması və müxtəlif infrastruktur layihələrinin maliyyələşdirilməsində yaxından iştirakı daim diqqətdə saxlanılıb.

AİB-in Azərbaycanla əməkdaşlığından bəhs edərkən onu da bildirək ki, son dövrlər ölkəmizin maliyyə-bank sisteminin sağlamlaşdırılması və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsi, eləcə də beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində çoxsaylı layihələr gerçəkləşdirilib. Dövlət başçısının 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiqlənən "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə bununla bağlı nəzərdə tutulan müəyyən tədbirlərin icrası diqqət mərkəzində saxlanılıb.

Xatırladaq ki, Azərbaycan Respublikası 1999-cu il oktyabrın 20-də Asiya İnkişaf Bankına üzvlüyə qəbul olunub. 2004-cü ilin noyabr ayından etibarən isə təşkilatın ölkəmizdə nümayəndəliyi fəaliyyətə başlayıb. Azərbaycanın AİB-in səhmlərində payı 0,447 faizə çatdırılıb. Ötən müddətdə Azərbaycan Respublikası AİB-dən ümumi dəyəri, təxminən, 5 milyard dollardan çox olan kredit, qrant və texniki yardımlar əldə edib.

Bu layihələr əsasən maliyyə, dövlət sektorunun idarə edilməsi, kənd təsərrüfatı, enerji, səhiyyə, su idarəçiliyi və nəqliyyat sahələrinə aiddir. Hökumətin Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsinə dəstək olaraq AİB-in Azərbaycana qısa və orta müddətli yardımı dövlət sektorunun idarə etməsi, nəqliyyat və enerji, eləcə də şəhər yerlərinin infrastrukturu və özəl sektorun inkişafı sahələrində əməliyyatları ehtiva edəcək.

Azərbaycanla AİB arasında səmərəli əməkdaşlıqdan danışarkən, onu da qeyd etməliyik ki, bank tərəfindən ayrılan investisiya əsasən infrastruktur sahəsinə yönəldilib. Məsələn, elektrik enerjisinin istehsalı, dəmir yolu tikintisi, yol salınması, su və kanalizasiya ilə bağlı çoxsaylı layihələrin gerçəkləşdirilməsi bunun bariz ifadəsidir.

Yuxarıda qeyd edilənlər barədə AİB-in Azərbaycan üzrə direktoru Sunniya Durrani-Camal Azərbaycan mediasına müsahibəsində deyib: "Azərbaycan ilə Asiya İnkişaf Bankı arasındakı tərəfdaşlıq yarandığı vaxtdan indiyədək bu maliyyə qurumu tərəfindən ölkənin dayanıqlı inkişafını dəstəkləmək üçün 5 milyard dollardan çox vəsait ayrılıb. Bu investisiyaların əsas diqqəti hökumətin prioritet sahələrinə, o cümlədən enerji, nəqliyyat, su təchizatı, kanalizasiya və digər şəhər xidmətlərinə yönəlib. Biz, ilk növbədə, dövlət sektoruna dəstək vermişik, lakin hazırda özəl sektorda, xüsusilə bərpaolunan enerji sahəsində iştirakımızı artırırıq. AİB-in infrastruktur layihələri əhalinin əsas xidmətlərə çıxışını yaxşılaşdırmağa, iqtisadi imkanları genişləndirməyə və sosial inteqrasiyanı gücləndirməyə kömək edib".

AİB-in Azərbaycan üzrə direktorunun sözlərinə görə, son üç il ərzində AİB ölkəmizin "yaşıl" enerji sahəsindəki proqramını fəal şəkildə dəstəkləyib və mühüm günəş elektrik stansiyalarının birgə maliyyələşdirilməsində iştirak edib. 230 meqavat gücündə "Qaradağ" Günəş Elektrik Stansiyası ölkədə AİB-in "yaşıl" enerji sahəsindəki ilk layihəsi olub və 2023-cü ilin payızında istismara verilib.

2024-cü ilin noyabrında COP29 zamanı AİB bərpaolunan enerji sektoruna yatırımlarını artırıb, "Masdar" və "SOCAR Green" ilə əməkdaşlığa başlayıb. Bu tərəfdaşlıq çərçivəsində 160 milyon dollar dəyərində saziş imzalanıb. Bunun 48 milyon dollarıdək hissəsi Biləsuvar Elektrik Stansiyası, 33,5 milyon dollaradək hissəsi isə Neftçala Elektrik Stansiyası üçün AİB-in kapital resursları hesabına maliyyələşdirilib. Həmçinin AİB tərəfindən idarə olunan "Leading Asia's Private Infrastructure Fund 2" (LEAP2) Biləsuvar Elektrik Stansiyası üçün 46 milyon dollaradək, Neftçala Elektrik Stansiyası üçün isə 32 milyon dollaradək vəsait ayırıb.

Bundan başqa, 2024-cü ildə AİB Azərbaycanda dəmir yolu nəqliyyatının inkişafına 171,5 milyon dollar ayırıb. Bunun 131,5 milyon dolları əsas dəmir yolu xəttinin modernləşdirilməsinə, 47 milyon dolları isə əməliyyatların rəqəmsallaşdırılmasına yönəldilib.

# Avropa "Yaşıl enerji dəhlizi"nə qapı açır

## *Sofiyada Azərbaycan – Türkiyə – Gürcüstan – Bolqarıstan enerji dəhlizi üzrə texniki işlərə start verilir*



**(əvvəli 1-ci səhifədə)**

Məlumata əsasən, texniki-iqtisadi əsaslandırmaların hazırlanması prosesinin başlanmasının texniki detalları iyun ayına qədər dəqiqləşdirilməlidir. İlk investisiyaların mövcud güclərdən maksimum dərəcədə səmərəli istifadəyə yönəldiləcəyi bildirilir.

Qeyd edək ki, aprelin 4-də "Azərbaycan Energetika, Gürcüstanın İqtisadiyyat və davamlı inkişaf, Türkiyənin Energetika və təbii sərvətlər və Bolqarıstanın Energetika nazirlikləri arasında "yaşıl" elektrik enerjisinin ötürülməsi və ticarəti sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. İmzalanma mərasimi Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasları zamanı keçirilib.

Sənədə əsasən, 4 ölkənin energetika nazirlikləri enerji sistemlərinin modernləşdirilməsi imkanlarının öyrənilməsi və elektrik enerjisinin ötürülməsi, eləcə də ticarəti imkanlarının genişləndirilməsini ehtiva edən birgə investisiya layihələrinin həyata keçirilməsi üçün dövlət və özəl sektorlar arasında əməkdaşlığın gücləndirilməsinə mücbət təsir göstərəcək. Memorandum enerji infrastrukturunun təkmilləşdirilməsində və bərpa olunan enerji mənbələrindən istifadənin stimullaşdırılmasında da önəmli rol oynayacaq.

Yeri gəlmişkən, aprelin 4-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi və Yaşıl Enerji Məşvərət şuraları çərçivəsində nazirlərin iclaslarında "Azərbaycan – Gürcüstan –Türkiyə – Bolqarıstan Yaşıl Enerji Dəhlizi" layihəsi üzrə nazirlərin 2-ci iclasında Yaşıl Enerji Dəhlizi üzrə Anlaşma Memorandumu imzalanıb. Energetika Nazirliyinin məlumatına görə, iclasda enerji təhlükəsizliyinin təmin olunmasında regionlararası "yaşıl" enerji infrastrukturunun qurulmasının vacibliyi və ölkəmizin zəngin bərpaolunan enerji resurslarının nəqli sahəsində geniş əməkdaşlığı təşviq edən layihələrin rolu vurğulanıb. Yeni yaşıl interkonnektorun əhəmiyyəti və layihənin həyata keçirilməsi istiqamətində atılacaq addımlar müzakirə edilib.

Energetika naziri Pərviz Şahbazov sözügedən iclasda Azərbaycan – Gürcüstan – Türkiyə – Bolqarıstan Yaşıl Enerji Dəhlizi üzrə Anlaşma Memorandumunun əhəmiyyətini yüksək dəyərləndirərək deyib: "Bu gün bu sənədi imzalamaqla mənbəyi Azərbaycan olan daha bir "yaşıl" enerji dəhlizinin yaradılmasına başladığımızı elan etmiş oluruq.

Azərbaycanın zəngin "yaşıl" enerji potensialı, iddialı layihələri, enerji ixracı infrastrukturunun yaradılması və ölkələrimiz arasında enerji təchizatı üzrə əməkdaşlıq təcrübəsi bu dördtərəfli təşəbbüsün gələcək uğuru üçün möhkəm təməl yaradır. "Yaşıl" interkonnektorlar vasitəsilə bərpaolunan enerji resurslarının ötürülməsi və ticarəti sahəsində irəliləyişlər əldə edərək, 4 ölkə arasında enerji inteqrasiyasını gücləndirəcək və regional enerji təhlükəsizliyinə yeni töhfə verəcəyik".

Sənəd 4 ölkə arasında "yaşıl" elektrik enerjisinin ötürülməsi və ticarəti potensialının artırılması məqsədilə birgə investisiya layihələrinin hazırlanması, elektrik enerjisi infrastrukturunun inkişafı, o cümlədən "ENTSO-E" sisteminə inteqrasiya prosesi üzrə əməkdaşlığı ehtiva edir.



# Transxəzər körpüsü Avropanı Mərkəzi Asiyaya yaxınlaşdırır

## *Səmərqənd sammitində marşruta yatırımı artırmaq qərara alınıb*

**Səmərqənddə keçirilən sammitdə Avropa İttifaqı və Mərkəzi Asiyanın 5 dövləti strateji tərəfdaşlığı genişləndirmək və inkişaf etdirmək niyyətində olduqlarını bəyan ediblər. Bu barədə "Euronews" kanalı məlumat yayıb.**

Bildirilib ki, Avropa İttifaqının prezidenti Antoniu Koşta, Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen, eləcə də Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan liderlərinin iştirak etdikləri toplantıda ilin sonunadək əlavə investisiyaların, xüsusilə də Transxəzər nəqliyyat dəhlizinə sərmayələrin cəlb edilməsi məqsədilə forumun keçirilməsi barədə razılıq əldə olunub. Bu dəhliz Avropa və Asiya regionları arasında yük ixracının müddətini əhəmiyyətli dərəcədə azaltmağa, həmçinin Özbəkistanda Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) yerli ofisinin yaradılmasına imkan verəcək. Eyni zamanda, sammitin hər iki ildən bir keçirilməsi ideyası da dəstəklənib.

Xatırladaq ki, Avropa İttifaqı Səmərqənddə keçirilən 2 günlük sammitin yekununa dair Mərkəzi Asiya ölkələri ilə yeni strateji tərəfdaşlıq elan edib. Forum qeyri-sabit geosiyasi və iqtisadi şəraitdə baş tutub. Bu, ABŞ Prezidenti Donald Trampın bir sıra ölkələrə, o cümlədən ABŞ-ın müttəfiqləri olan Böyük Britaniya və Avropa İttifaqına qarşı yeni ticarət rüsumları tətbiq etməsindən sonra baş verib. Yeri gəlmişkən, bazarlarda narahatlıq yaradıb bu addım dünya liderləri tərəfindən tənqid olunub.

Sammitdə Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen bəyan edib ki, Avropa İttifaqı Mərkəzi Asiya ölkələri üçün ümumi dəyəri 12 milyard avro olan investisiya paketi hazırlayıb. Həmin məbləğin 3 milyard avrosu nəqliyyat sahəsində layihələrin maliyyələşdirilməsinə, 2,5 milyard avrosu isə strateji xammalla bağlı layihələrə sərmayə qoyulmasına yönəldiləcək. Bununla yanaşı, nəzərdə tutulmuş ümumi vəsaitin 6,4 milyard avrosu su ehtiyatları, enerji və iqlim sahəsində layihələrə, 100 milyon avrosu isə peyk internetinin inkişafına sərf olunacaq.

Yeri gəlmişkən, Orta Dəhliz kimi tanınan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çin ilə Avropa ölkələrini Qazaxıstan, Xəzər dənizi akvatoriyası, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə birləşdirir. Son illər bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər Orta Dəhliz üzrə yükdaşımaların həcmini 8 dəfə artırmağa imkan yaradıb. Müqayisə üçün qeyd edək ki, 2021-ci ildə sözügedən marşrut üzrə daşınan yüklərin həcmi 560 min ton idisə, ötən il bu rəqəm 4,5 milyon tona çatıb. 2025-ci il üçün yükdaşıma proqnozu 4,9 milyon ton səviyyəsində nəzərdə tutulsa da, 2029-cu ilə qədər bu göstəricinin 10 milyon tona çatdırılacağı gözlənilir.

# Cəlilabad və Masallıda elektrik şəbəkəsi yenilənir



**Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, vətəndaşların dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə paytaxt və regionlarda yenidənqurma işləri davam etdirilir. Cəlilabad və Masallı rayonlarının bir sıra kəndlərində elektrik təsərrüfatının yenilənməsi də dövlət başçısının bu göstərişindən irəli gəlir.**

"Azərişıq" ASC-nin məlumatına görə, hazırda Cəlilabadın Komanlı, Rüstəmabad və Bəcirəvan kəndlərində 0,4 və 10 kV-luq yeni metal dayaqlar basdırılır, müasir elektrik xətləri çəkilir, açıq naqillər müasir tipli özünüdaşıyan izolyasiyalı naqillərlə (ÖİN) əvəzlənir. Köhnəlmiş sayğaclar həyətyanı sahələrdən kənarlaşdırılaraq yeni smart sayğaclarla əvəz olunur. Bundan başqa, 9 kompleks transformator məntəqəsinin (KTM) quraşdırılması nəzərdə tutulur.

Masallının Köhnə Alvadı kəndində də ötən əsrin 60-cı illərində quraşdırılmış elektrik şəbəkəsi yenilənir. Kənddə 0,4 kV-luq ÖİN çəkilişi və yeni sayğacların quraşdırılması davam edir. Bununla yanaşı, elektrik enerjisinə artan tələbat nəzərə alınaraq 10 KTM quraşdırılması planlaşdırılır. Lürən kəndində isə hazırda 10 kV-luq yeni dayaqlar basdırılır, ÖİN-3 kabel xətləri çəkilir.

Məlumatda qeyd edilir ki, "Azərişıq" ASC Cənub regionu ilə yanaşı, ölkənin bütün bölgələrində, eləcə də işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında da quruculuq və əsaslı təmir işlərini davam etdirir.

# KOB subyektləri tanıtma sərgilərinə hazırlaşır



**Mayın 13-16-da Bakı Ekspo Mərkəzində 18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı ("Caspian Agro") və 30-cu Azərbaycan Beynəlxalq Qida Sənayesi ("İnterFood Azerbaijan") sərgiləri keçiriləcək. Bu barədə XQ-yə Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) məlumat verilib.**

Bildirilib ki, sərgilərdə bitkiçilik, heyvandarlıq, quşçuluq və balıqçılıq məhsulları, qənnadı məmulatları, meyvə-tərəvəz, şirələr, çay, süd və süd məhsulları, kənd təsərrüfatı və qida sənayesi üzrə avadanlıqlar, eləcə də müvafiq sektorlar üzrə xidmətlər təqdim ediləcək.

Qurumun məlumatına əsasən, əvvəlki illərdə olduğu kimi, bu il də mikro, kiçik və orta sahibkarlıq subyektlərinin müvafiq sərgilərdə iştirakına dəstək göstəriləcək. Belə ki, sərgidə KOBİA tərəfindən təmin ediləcək dövlət dəstəyi hesabına kiçik və orta biznes subyektlərinin məhsullarının tanıdılması üçün xüsusi stend qurulacaq.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# “Qafqazın Xirosiması” xarabalıqdan boy atır

## İraqlı türkmən jurnalistin Ağdamda gördükləri, eşitdikləri və yazdıqları...

*(Xüsusi olaraq “Xalq qəzeti” üçün)*



**Azərbaycan Respublikasının Qeyri–Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəvəti ilə İraq və Suriya türkmənlərindən ibarət nümayəndə heyəti Qarabağa səfər edib. Onların 27 illik işğaldan sonra Azərbaycan əsgərinin azad etdiyi “Qafqazın Xirosiması”, “ruhlar şəhəri” Ağdama səfəri xüsusilə yadda qalıb. Nümayəndə heyətinin üzvü, İraq Türkmən Jurnalistlər Cəmiyyətinin xarici əlaqələr şöbəsinin müdiri, doktor Kürşat Çavuşoğlu səfər zamanı gördükləri və eşitdiklərini qələmə alıb. Onun eksklüziv olaraq XQ-yə təqdim etdiyi məqaləsini Azərbaycan türkcəsinə uyğunlaşdıraraq oxucuların ixtiyarına veririk.**

*

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəvəti ilə İraq və Suriya türkmənlərindən ibarət Türkmənistan nümayəndə heyəti İkinci Qarabağ müharibəsi nəticəsində işğaldan azad edilmiş Ağdam şəhərinə baş tutan səfərimiz uzun müddət yaddaşımızdan silinməyəcək. Qarabağın ermənilər tərəfindən işğalı barədə eşitdiklərim başqa, bu şəhərdə gördüklərim isə bambaşqa idi.











Əvvəlcə Qarabağ münaqişəsinin tarixinə qısa nəzər salaq. Münaqişə Sovet İttifaqının dağılması zamanı ermənilərin Azərbaycanın bu tarixi ərazisinə iddia etmələri ilə başladı. Kənardan ciddi dəstək alan haylar müstəqilliyinə yenicə qovuşmuş, hələ nizami orduya malik olmayan Azərbaycanın üzərinə hücum etdilər. Ermənilər 1991-ci il dekabrın 28-də Xankəndini, 1992-ci ilin fevralın 26-da Xocalını, mayın 8-də Şuşanı işğal ediblər. Daha sonra – 1992-ci il mayın 18-də Laçın, 1992-ci il oktyabrın 2-də Xocavənd, 1993-cu il aprelin 2-də Kəlbəcər yağı düşmən əlinə keçib. Bu qara işğal siyahısına 1993-cü il iyulun 23-də Ağdam şəhəri də əlavə olundu. Ağdamın ardınca 1993-cü il avqustun 23-də Cəbrayıl və Füzuli, 31-də Qubadlı, oktyabrın 29-da Zəngilan rayonları işğala məruz qalıblar.

Bu minvalla Azərbaycan torpaqlarının 20 faizini işğal edən ermənilərə gözün üstdə qaşın var deyən tapılmadı. Bir milyona yaxın insan yaşadıqları doğma yurdunu tərk etmək məcburiyyətində qaldı. Dünya bu ədalətsizliyə də göz yumdu. Şuşa Qarabağın tacı idisə, Ağdam onun ən qiymətli qaşı idi. Ümumi sahəsi 1.154 kvadrat kilometr olan Ağdam şəhəri Azərbaycanın ən qədim diyarlarından biri hesab olunur. İşğal zamanı şəhərin müdafiəsində minlərlə azərbaycanlı qəhrəmancasına şəhid olub.

Yadımdadır, 33 il bundan əvvəl, 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı Ağdama tibbi yardım gətirmişdik. Bir müddət orada qaldıq. O zaman şəhəri çox görmək istəyirdim. Amma ermənilərin minaladıqları ərazidə aparılan minatəmizləmə işlərinə görə, təhlükəsizlik səbəbindən Ağdamın mərkəzinə gedə bilmədim. Qismətimizdə yalnız 33 ildən sonra xarabalığa çevrilmiş şəhəri, salamat qalmış və indi təmir olunmuş Ağdam Cümə məscidini görmək var imiş.

Qarabağın hər tərəfində bərpa-quruculuq işləri gedir. Hayların “Qafqazın Xirosiması”na çevirdikləri ruhlar şəhəri Ağdamda binalar inşa edilir, yollar çəkilir. Burada yeni şəhər salınır. Azərbaycan 27 illik erməni işğalı zamanı yerlə bir edilmiş Ağdama yeni həyat bəxş edir.

Birinci Qarabağ müharibəsi zamanı ən strateji məntəqələrdən biri hesab edilən Ağdam 1993-cü il iyulun 23-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal ediləndə şəhər tamamilə dağıdılıb. Ağdamlılar Azərbaycanın ayrı-ayrı rayonlarına köç etməyə məcbur olublar. Ağdamın müdafiəsi uğrunda gedən döyüşlərdə 6 minə yaxın insan şəhid olub. Həmin şəhidlərdən 16-sı Azərbaycanın Milli Qəhrəmanıdır. Ağdam Birinci Qarabağ müharibəsində ən çox şəhid verən rayonlardan biridir. Düşmənlə savaş təkcə uzaqdan, güllə məsafəsindən deyil, yaxından, əlbəyaxa döyüşlərlə müşayiət olunub.

Erməni işğalına qədər Ağdam təkcə Azərbaycanın yox, Qafqazın ən gözəl şəhərlərindən biri olub. Ermənilər üçün gözdağı sayılan bu şəhərdə işğaldan əvvəl 153 min nəfər yaşayırdı. Həm də bu səbəbdən haylar Ağdamda daş üstündə daş qoymayıblar.

2020-ci ilin noyabrında bir güllə atmadan ermənilərin geri çəkildiyi zaman nisbətən toxunulmaz qalan yeganə tikili Ağdamın mərkəzində yerləşən Ağdam Cümə məscididir. XIX əsrdə inşa edilmiş qoşa minarəli Ağdam Cümə məscidi çox bərbad və baxımsız vəziyyətdə olub. Şəhəri yağıdan azad edən Azərbaycan əsgəri əvvəlcə məsciddə təmizlik işləri aparıb, minarələrə Azərbaycan bayrağını sancıb.

Hazırda Ağdam əsl tikinti meydançasını xatırladır. Şəhərdə sürətlə aparılan bərpa-tikinti işləri ilə yanaşı, rayon ərazisində minalardan təmizləmə də həyata keçirilir. Ağdamda geniş infrastruktur layihələrini başa çatdıran Azərbaycan hökuməti 2025-ci ilin sonuna kimi 10 min ağdamlının şəhərə qayıtmasını planlaşdırır. Sonrakı illərdə isə bu rəqəmin 100 minə çatdırılacağı gözlənilir. Bu məqsədlə şəhərin müxtəlif yerlərində yeni məhəllələr salınır, binalar ucaldılır, infrastruktur “ağıllı şəhər” konsepsiyasına uyğun şəkildə qurulur.

İşğaldan əvvəl bölgənin sənaye mərkəzi olan şəhərin eyni istiqamətdə inkişaf etdirilməsi hədəflənib. Ağdam Sənaye Parkı şəhəri yenidən məhz sənaye mərkəzinə çevirmək məqsədilə yaradılıb. Ağdam Sənaye Parkında yaradılan yeni müəssisələrin məhsulları daxili bazardan savayı, ixraca da yönəldiləcək. Bir daha vurğulamaq istərdim ki, Ağdamda nisbətən toxunulmaz qalan yeganə tikili – Ağdam Cümə məscidində aparılan təmir-bərpa işləri, texniki xidmət yekunlaşıb. Yəni Ağdam Cümə məscidinin işğaldan əvvəlki siması özünə qaytarılıb.

Bu ilin ikinci yarısından etibarən Ağdama dəmir yolu ilə rahat gedib-gəlmək mümkün olacaq. Artıq Ağdam dəmiryolu stansiyası kompleksinin tikintisi başa çatmaq üzrədir. Şəhərin və kəndlərin sürətlə yenidən qurulması və bərpası ilə yanaşı, burada yaşayacaq sakinlər üçün müasir infrastruktur da düşünülüb. Yeni binalarda və kəndlərdə məcburi köçkünlərin rahat yaşamaları üçün hər cür şərait yaradılıb. Yenidən qurulan Ağdam şəhəri ilə yanaşı, kəndlərdə də quruculuq işləri davam etdirilir. Böyük Qayıdış Proqramı çərçivəsində Sarıcalı, Kəngərli və Xıdırlı kəndlərində geniş və hərtərəfli tikinti-quruculuq işləri aparılır, infrastruktur layihələri həyata keçirilir. Mədəniyyət evinin, məktəblərin, uşaq bağçalarının, kənd bazarının tikintisi başa çatmaq üzrədir. Bir sözlə, 27 il doğma yurd-yuvasından didərgin düşmüş ağdamlılar həsrətində olduqları ata-baba evlərinə qovuşacaqları günləri sayırlar.

***Doktor Kürşat ÇAVUŞOĞLU,***
***İraq Türkmən Jurnalistlər Cəmiyyətinin şöbə müdiri***

---

**(əvvəli qəzetin ötən sayında)**

# Levon Ter-Petrosyanla bağlı dosyelər

## *Məxfilik qrifi qaldırılmış sənədlər nələri aşkara çıxarır?*



Əslində, Qarabağ məsələsi ilə bağlı danışıqlar prosesi Ter-Petrosyanın istefasından bir il əvvəl, yəni 1997-ci ildə fəallaşmağa başlanıb. Bunu şərtləndirən iki amil var idi: Birincisi, Azərbaycan qaz və neft kəmərlərinin çəkilişi ilə bağlı beynəlxalq müqavilələri imzalamağa başlamışdı və Qərb regionda sabitliyin və sülhün bərqərar olmasında maraqlı idi. Digər tərəfdən, həmin ilin yanvarında yeni format – Rusiya, ABŞ və Fransanın həmsədrliyi ilə ATƏT-in Minsk qrupu formalaşdı. Dövlət Departamentinin diplomatik yazışmalarının sübut etdiyi kimi, həmin mərhələdə bu problemi həll etmək və bununla da Qərb və Rusiyanın əməkdaşlıq edə və Avropada sülhə töhfə verə biləcəyini göstərmək hər üçünün maraqlarına uyğun idi. Odur ki, həmsədrlik təsis ediləndən bir ay sonra ABŞ Dövlət katibi Madlen Olbraytla Fransa Prezidenti Jak Şirak arasında Parisdə keçirilən görüşün gündəliyinə bu məsələ daxil edilib. Onlar vahid cəbhə yaratmaq və bu münaqişəyə son qoymaq zərurətini vurğulayıblar.

Açıqlanan məxfi sənədlərə görə, ABŞ və Fransa liderlərinin görüşündən sonra, 1997-ci ilin fevralında ABŞ Dövlət katibinin müavini Strob Talbot Ermənistanın xarici işlər naziri Aleksandr Arzumanyanla görüşüb və ondan prezident Ter-Petrosyana üç supergüclə sövdələşmənin nəzərə alınmasını çatdırmağı xahiş edib.

Ona “Bölgədə maraqları olan üç böyük ölkə məsuliyyəti öz üzərinə götürüb” mesajı verilib. Birləşmiş Ştatlarda, Fransada və Rusiyada münaqişə tərəflərini razılığa gətirmək üçün maraqların yaxınlaşması hiss olunurdu. Ağ evin xüsusi tapşırıqlar üzrə səfiri Ceyms Kollinz xəbərdar edir ki, “Ter-Petrosyan buna göz yummamalıdır, yoxsa təzyiqlər olacaq”. Məxfilikdən çıxarılan sənədə əsasən, Ter-Petrosyan təzyiqlər qarşısında geri çəkilib. Bundan Ermənistandakı “müharibə partiyası” xəbər tutub.

Vasitəçilərin danışıqları aktivləşdirmək cəhdlərində ciddi olduqları aşağıdakı diplomatik teleqram aydın göstərir: “Bir neçə gün sonra ABŞ Dövlət katibinin müavini əvvəlcə fransalı və rusiyalı həmkarları – Jak Blot və Boris Pastuxovla, sonra isə Rusiyanın xarici işlər naziri Yevgeni Primakovla görüşür. Hər üç görüşdə bir cəbhədə hərəkət etməyə və tərəfləri güzəştə getməyə məcbur etmək üçün təzyiqləri gücləndirməyə hazır olduqlarını vurğulayırlar. Məsələnin Helsinkidə keçiriləcək Yeltsin–Klinton görüşünün gündəliyinə salmaq qərara alınır.

ABŞ-ın keçmiş lideri Bill Klinton Rusiyanın sabiq prezidenti Boris Yeltsinə belə demişdi: “Mən xarici siyasət məsələlərində əməkdaşlığımızı genişləndirmək istəyirəm. Onlardan biri də Qarabağdır. Münaqişənin həlli bizim maraqlarımıza uyğundur və mən sizinlə birlikdə bu vəziyyətdən çıxmaq üçün işləməyə hazıram”. Yeltsin cavabında bildirib ki, Moskva Vaşinqtonun işə qarışmasına yalnız sevinir: “Paxıllıq etməyəcəyik, əminəm ki, sizin təsiriniz müsbət olacaq”.

Xarici işlər naziri Yevgeni Primakov isə Dövlət katibi Madlen Olbrayta “Atəşkəs ermənilərə və azərbaycanlılara etimad yaradıb, amma onlar güzəştə getməyə meyilli deyillər” – demişdi. ABŞ Dövlət Departamentinin məxfi sənədində deyilir: “Öymən (Türkiyən XİN-in rəhbəri) bir neçə gün əvvəl İstanbulda Rusiya Xarici işlər nazirinin birinci müavini İvanovla təkbətək söhbət edib. O, Moskvanın Dağlıq Qarabağ məsələsində irəliləməyə hazır olduğunu söyləyib. Əgər İvanov belə hiss edirsə, o zaman cəhd etməyə dəyər”. İki həftə sonra üç vasitəçi Vaşinqtonda görüşür və ilk dəfə öz ideyalarını birləşdirərək vahid sənəd hazırlayırlar. Bir müddət sonra həmin birgə sənəd Klinton, Yeltsin və Şirakın Paris görüşündə müzakirə olunur və qəbul edilir. Amma razılaşmanın baş tutmasına Ermənistandakı separatçı qüvvələr mane olur və Ter-Petrosyanın istefa çıxışında açıqlamadığı səbəblərdən bu mövzu qapanır.

Açıq görünməkdədir ki, Ter-Petrosyanı Paşinyana bağlamaq üçün cəhdlər edilir. Bu da məqsədlidir. Paşinyanın bu günə qədər bütün etdiklərinin ortağı kimi qələmə verilməsi Ter-Petrosyanı sıradan çıxarmaq cəhdidir. Həmin “köhnə qüvvələrin” yenidən hakimiyyətə gəlməsi üçün öncə Ter-Petrosyanın sıradan çıxarılması gərəkdir. Bu qüvvələr Azərbaycanla sülh danışıqlarının sona çatmasını istəmir, sülh əldə ediləcəyi təqdirdə rəqiblərin güclənəcəyini düşünürlər. Amma Ter-Petrosyanın Paşinyana məsləhəti konkretdir: “Sülh sazişi nəyin bahasına olursa-olsun, imzalanmalıdır!”.

Levon Ter-Petrosyanın fikrincə, Paşinyan sənədi imzalamaqdan çəkinir, çünki onu “satqın” adlandıracaqlar. “Bəli, bu kapitulyasiyadır, vəziyyət belədir. Heç bir faciə yoxdur, bundan daha güclü dövlətlər də bu yolu keçiblər”, – deyə o, bildirir.

Təhlillər göstərir ki, Paşinyanın Azərbaycanla sülh sənədinə imza atmasına mane olan qüvvələr həmin siyasi avantüristlərdir. Məxfi sənəd və indiyədək bilinməyən video, audio görüntüləri yayanlar da onlardır. Onsuz da Ermənistanın siyasi səhnəsində postpaşinyan dövrü üçün elə ciddi fiqur yoxdur. Gələn il nəzərdə tutulan parlament seçkilərində artıq 80 yaşı olan birinci prezident meydana çıxa bilərmi? Bu, ehtimal edilsə də, revanşistlər bəri başdan Ter-Petrosyanı siyasət səhnədən tamamilə silmək niyyətindədirlər.

***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

Üzeyir Hacıbəyli – 140

# Musiqili teatrımızın yaradıcısı

**Azərbaycan milli teatrı dedikdə müqtədir insanlar, əvəzolunmaz sənətkarlar, korifeylər ağlımıza gəlir, bu böyük şəxsiyyətlər bir daha yad olunurlar. Bu baxımdan Azərbaycan teatr tarixinin yaranmasında xüsusi yeri olan dünya şöhrətli dahi bəstəkarımız, XX əsrin böyük dühası Üzeyir bəy Hacıbəylinin adı ilk sıralarda yer alır.**



Milli teatrımızın yaranmasının 125 illiyi münasibətilə ümummilli liderimiz Heydər Əliyevin imzaladığı "Azərbaycanda dünyəvi peşəkar teatrın yaradılmasının 125 illiyi haqqında" adlı xüsusi sərəncamda göstərilirdi: "Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun yaratdığı "Leyli və Məcnun" operasının 1908-ci ildə ilk tamaşası ilə Azərbaycanda və bütün müsəlman Şərqində opera sənətinin təməli qoyuldu".

Xatırladaq ki, hələ 13 yaşında ikən Şuşada Əbdürrəhim bəy Haqverdiyevin hazırladığı "Məcnun Leylinin məzarı üstündə" adlı səhnəcikdə iştirak edən Üzeyir bəy sonralar opera və operetta janrının bünövrəsini atıb. Onun poeziya dahisi Füzulinin eyniadlı poeması əsasında bəstələdiyi " Leyli və Məcnun" operası, "Ər və arvad" operettası beləcə tarixə düşüb.

Ötən əsrin əvvəllərində Bakıda "opera" sözü tez-tez eşidilirdi. Şəhərin sakinləri teatr, sirk tamaşaları görmüşdülər, opera isə onlar üçün yeni idi. Nəhayət, 1908-ci il yanvar ayının 12 (25)-də, şənbə günü, böyük səbirsizliklə gözlənilən gün gəlib çatdı. Bütün qəzetlər ilk opera haqqında elan dərc etdilər və operanın premyerası oldu. Bu, Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun"u idi. Onda Üzeyir bəyin 22 yaşı vardı. Böyük istedad sahibi olan gənc bəstəkar elə bir şedevr yaratdı ki, onun parlaq şöləsi bu gün də bərq vurmaqdadır. 117 ildir ki, "Leyli və Məcnun " tamaşaçıların zövqünü oxşayır.

İlk operanın premyerası H.Z.Tağıyevin teatrında (indiki Musiqili Teatrda ) oldu. Salon ağzına kimi dolu idi. Azərbaycanın hər yerindən, hətta Qafqazın bir çox bölgələrindən də operaya baxmağa gəlmişdilər. Böyük aktyorumuz Mirzəağa Əliyev yazırdı ki, "Leyli və Məcnun"un ilk tamaşasına üç gün qalmış teatrın kassasına iki teleqram gəldi. Bunlardan biri Şamaxıdan şair Abbas Səhhətdən, digəri isə Batumdan jurnalist Heydər Abaşidzedən idi. Teatrda onlara yer saxlamağı xahiş edirdilər.

Məcnun rolunun bənzərsiz ifaçısı Hüseynqulu Sarabski isə özünün " Bir aktyorun xatirələri" kitabında o günləri xatırlayaraq belə yazırdı: "Axşam teatra gələndə gördüm qapının qabağında o qədər adam var, içəri girmək mümkün deyil. Dal qapıya keçdim, gördüm ora bundan betərdir. O gecə binanın dörd tərəfi camaatla dolu idi. Teatrın qapılarında və foyedə səs-küydən qulaq tutulurdu. Biletlər saat 4-dən qurtardığına görə camaat biletsiz içəri doluşurdu". Daha sonra H. Sarabski qeyd edirdi ki, " min xahiş və rica ilə teatra cəlb edilən camaat indi axın-axın teatrlara dolurlar. Aktyorlarımızı sənətkar cərgəsində tutub, onlara hörmət bəsləyirlər. Camaatımız operanın köməyilə teatra alışıb, hətta dramlara da axın-axın gəlirlər. Opera camaatımızı teatra çəkib teatral etdi. Deməli, opera musiqini yüksəldib camaatımıza bu mənfəəti verdi".

Beləliklə, görünməmiş bir müvəffəqiyyətlə Azərbaycanda opera teatrı fəaliyyətə başladı və onun şöhrəti uzaq-uzaq ellərə yayıldı. 1 mart 1926-cı ildə Bakıda keçirilən I Ümumittifaq Türkoloji qurultayın nümayəndələrindən biri, başqırd Şakirov "Leyli və Məcnun" operasına baxdıqdan sonra demişdir: " Heyrət ediləcək bir şeydir. Mən indi bildim ki, milli musiqi nə deməkdir. Leninqradda, Moskvada mən çox gözəl Avropa operaları dinlədim, fəqət onları anlamırdım, onlar mənə zövq vermirdi. Bunu isə anladığıma görə böyük bir zövqlə dinlədiyimdən məmnun qaldım".

Bir əsrdən çox səhnədə oynanılan "Leyli və Məcnun" operasında nə qədər aktyor və müğənni nəsli yetişmişdir. Həyatını Azərbaycan mədəniyyətinin, teatrının çiçəklənməsinə həsr edən Üzeyir bəy yazılarında səhnə problemlərindən müntəzəm olaraq söz açırdı. Rejissor işi, aktyor oyunu və onun yozumu, geyim məsələləri və s, onun müraciət etdiyi mövzular idi. Azərbaycan səhnəsinə qadın gətirilməsi üçün Üzeyir bəy Hacıbəyli daim mübarizə aparırdı.

Üzeyir bəy böyük qardaşı Zülfüqar bəy Hacıbəyli ilə Bakıda "Hacıbəyov qardaşlarının teatrı"nı da yaratmışdı. Bu teatrda opera və operettalar tamaşaya qoyulurdu. İlk operasının uğurundan ruhlanan Üzeyir bəy Hacıbəyli bir-birinin ardınca 6 opera yazdı. "Şeyx Sənan " (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşudbanu" (1912), "Əsli və Kərəm" (1912), "Harun və Leyla " (1915) və nəhayət, bütün operaların şahı sayılan "Koroğlu" böyük bəstəkar və dramaturqa şöhrət gətirdi, müxtəlif ölkələrdə və şəhərlərdə tamaşaya qoyuldu.

Onun əsərlərinə hər yerdə – Qafqaz, Türkistan eli, Rusiya, Amerika, Avropa, Afrikada da yüksək qiymət verdilər, tamaşaya qoydular.

Yazının əvvəlində qeyd etdiyimiz sərəncamda daha sonra belə yazılmışdır: "... Üzeyir Hacıbəyovun dramaturgiya sahəsindəki fəaliyyəti də milli mədəniyyət tariximizdə mühüm mərhələ olmuşdur. O, həm bəstəkar, həm də dramaturq kimi 1909–1913-cü illərdə yaratdığı əsərləri ilə Azərbaycan teatrına musiqili komediya janrını gətirdi".

Dahi bəstəkar 1909-cu ildə "Ər və arvad ", 1910-cu ildə "O olmasın, bu olsun", 1913-cü ildə isə dünyaca məşhur "Arşın mal alan" operettalarını yazıb. Üzeyir bəy librettolarında sadə xalq həyatından götürülmüş hadisələri ustalıqla qələmə alıb. Mütəfəkkirin əsərlərində həqiqi eşq öz təmizliyi, ülviliyi ilə bütün maneələrə qalib gəlir. Sədaqət, vəfa, mətanət, nikbinlik, azadlığa və əməyə məhəbbət, xəyanətə və zülmə nifrət Üzeyir bəyin opera və operettalarında əsas aparıcı xətt olaraq, ön sıralarda gedir və öz aktuallığını saxlayır. Təkcə "Arşın mal alan " operettası müxtəlif xalqların 67 dilinə tərcümə edilib, 120 teatrın səhnəsində oynanılıb, 4 dəfə (3-ü Bakıda, 1-i ABŞ-da) ekran həyatı yaşayıb.

Üzeyir bəy Hacıbəyli çətin şəraitə baxmayaraq, millətimizin inkişafı naminə çabalar göstərirdi. Yazırdı, yaradırdı. Azad fikirli sənətkarlar, millətini, xalqını sevən ziyalılar ona dayaq olur, maneçilik törədən qeyri-milli ruhlu şəxslərə qarşı çıxırdılar. Dahi sənətkar özü də hər zaman millətimizi geriliyə sürükləməyə çalışanlara qarşı barışmaz mövqedə durur, onlara tutarlı cavablar verirdi. Mədəniyyətimizin, incəsənətimizin, teatrımızın inkişafı naminə yorulmadan çalışmışdır. Bir-birindən gözəl əsərlər yaratmışdır ki, bu gün də o əsərlər yaşayır və nə qədər ki, həyat var bundan sonra da yaşayacaqdır.

Azərbaycan xalqının dahi oğlu Üzeyir bəy Hacıbəylinin yaratdığı əsərlər milli teatr tariximizin əsas sütunlarındandır. Bu sənət inciləri bu gün də dünya səhnələrində Azərbaycan teatr ənənələrini yaşadır, onu layiqincə təmsil edir.

***Səadət QARABAĞLI,***
***Üzeyirbəyşünas***

Cəfər Rəmzi – 120

**Həyatın sərt sınaqları ilə üz-üzə qalsa da, əyilməyən, amalı, məsləki yolunda fədakarlıq göstərən ziyalılarımızdan biri də şair, ədəbiyyatşünas, tərcüməçi, filologiya elmləri namizədi Cəfər Rəmzi – İsmayılzadə idi. Ömrünün iki onillikdən çoxu sovet rejiminin həbsxana divarları arasında keçməsinə baxmayaraq, o, əsl ziyalılıq mücəssəməsi sayılır.**

# Zindanlarda sönməyən işıq



Cəfər Rəmzi 1905-ci il aprelin 9-da Bakının Mərdəkan kəndində, əkinçi ailəsində doğulub. Burada ibtidai təhsil alıb, sonra bir müddət əkinçiliklə məşğul olub. Sovet hakimiyyətinin ilk illərində Mərdəkan gənclər özəyinin kitabxanasında işləyib və Bakı Darülmüəllimində (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) təhsilini davam etdirib. Bundan sonra uzun illər Bakı, Quba və Qazax orta məktəblərində müəllimlik edib. Qəlbində ədəbiyyata böyük sevgi yaratdığı şagirdlərindən biri də Xalq şairi Balaş Azəroğlu olub. APİ-nin tarix fakültəsini də (qiyabi) bitirib. 30 ildən çox Elmlər Akademiyasının İran filologiyası şöbəsində işləyib. "Yəğma Cəndaqinin poeziyası" mövzusunda namizədlik dissertasiyası müdafiə edib.

Cəfər Rəmzi bədii yaradıcılığa 15 yaşından başlayıb, şeirlərini əvvəlcə "Sufi" təxəllüsü ilə yazıb-yaradıb. Sonrakı dövrlərdə isə şeir, elmi əsər və tərcümələrini "Cəfər Rəmzi" imzası ilə dövri mətbuatda çap etdirib. Üç cildlik "Deyilən söz yadigardır" adlı məşhur kitabın toplayını və tərtibçisi olub. Klassik Şərq ədəbiyyatından seçmə nümunələri fars və ərəb dillərindən çevirərək çapa verib. Alim kimi XIX–XX əsrlər poeziyasında satira problemi ilə məşğul olub.

Müxtəlif illərdə Cəfər Rəmzinin "Şeirlər", "Günləri sayıram", "Ürəkdən gələn səslər", "Gecikən arzular", "Qəzəllər" adlı bədii kitabları, "Azərbaycan klassik ədəbiyyatında işlədilən ərəb və fars sözləri" lüğəti (iki dəfə) işıq üzü görüb. Tərcümə nəşrləri isə "Xarici yumor", "Behiştin narları", "Gəlin, birlikdə gülək", "Dünya xalqlarının yumoru" adları ilə çap olunub.

***Zəhmətlə ucalmış bəşər övladı səmaya,***
***Hökm etməkdə ulduzlara,***
***hökm etmədə aya...***

– deyən şair özü də çox zəhmətkeş yazar olub.

Mərhum dostumuz – Ədəbiyyat və İncəsənət Arxivinin keçmiş direktoru Maarif Teymur Cəfər Rəmzi haqqındakı məqaləsində onun yaradıcılığı və axtarış qayğılarını belə ifadə edib: "Qaranlıq bir yerdə 30 yaşlı bir gənc bardaş qurub kədərli oturmuşdu. Bədənində, sanki, elektrik cərəyanı var idi. Narahatlıqdan və fikirdən xeyli düşündü: "Axı mən nə etmişəm, bəlkə "Sufi" təxəllüsümlə mənə tələ qurublar, bəlkə azadlıq şərbətini içmək istəmişəm. Bəlkə…" Bu "bəlkə"lərə tam cavab tapmayan gənci iyul, 1935-ci ildə həbs etdilər. Yaxşı ki, uzaq Sibir cəhənnəminə sürgün etmədilər. O illərdə cəza idraklı insanların müxtəlif formada son aqibətləri idi. Yeganə səbəb isə onların zəkalı olmaları, vətənsevərliyi idi.

İllər sərnişin qatarı kimi, sıra ilə düzülərək bir-birini əvəz etdi. 21 il həbsdə — qaranlıq, üfunətli dörd divar arasında yaşayan gənc isə "Sufi" təxəllüslü şair Cəfər Rəmzi — İsmayılzadə Cəfər Balaəmi oğlu idi. Cəfər Rəmzi dünyaya göz açanda da məşhur 1905-ci il inqilabı baş vermişdi. Çarizm quruluşu azca laxlamışdı. İnsanlar azad yaşamaq istəyirdilər. Bu silkələnmədə balaca Cəfər boy atdı, yazdı, pozdu. 1913-cü ildə H.Z.Tağıyevin 4 illik ibtidai məktəbində oxudu, 1917-ci ildə yaxşı qiymətlərlə oranı bitirərkən Birinci Dünya müharibəsi başlandı da, bitdi də. İnsanlar azadlıq üçün susamışdılar. Bəşər tarixində yeni azadlıq meyarları yarandı: 1918-ci idə çarizm üsul-idarəsi dağıldı, yeni quruluş bərqərar oldu. Sən demə, xalqın həqiqi cümhuriyyətindən başqa, yaranan quruluşlar da uzağa getməyəcəkmiş. Ancaq getdi də. XX yüzilliyin yarandığı "sosializm", sovet quruluşunun da insana qarşı öz hücumları olacaqmış və oldu da".

Haqsız yerə tutularaq, başı bəlalar çəksə də, həbsxana həyatı onun Şərq və Qərb yazarlarının klassik irsini dərindən öyrənməsinə "kömək edib". Dərin araşdırmaçı-alim olub. Arxivdə saxlanan dolu sənəd qovluqları, albomlar, kitablar – Cəfər Rəmzinin yüzlərlə şeiri, məqalələri, xatirə və tərcümələri, tərcümeyi-hal sənədləri, nadir kitablar daha çox diqqəti cəlb edir.

Quruluşun, hakim dövranın, ədalətsizliyin hücumlarına mərdliklə sinə gərən Cəfər Rəmzinin yüksək məziyyətlərini professor İslam Ağayev belə dəyərləndirib: "Cəfər Rəmzi İsmayılzadənin zəhməti təqdirəlayiqdir. O, diqqətimizi əbədi fikrimizin daha dərin qatlarına yönəldir". Digər bir şərqşünas alimimiz, akademik Rafael Hüseynovun Rəmzi haqqında obrazlı formada dediyi sözlər də diqqət çəkir: "Kaş, xalq üçün beləcə faydalı işləri hobbiyə çevirmək çoxlarının həyat meyarı olaydı".

Cəfər Rəmzi 1996-cı il sentyabrın 11-də Bakıda vəfat edib. Mərdəkanda adına küçə var.

***Ə.ƏLİYEV***
***XQ***

Yeni nəşrlər

# "Diplomatik-siyasi ensiklopediya"

**Azərbaycan elm tarixində bir ilk olan bu beşcildlik sanballı toplunun nəşri onun müəllifi – tarix elmləri doktoru, professor, tanınmış elm və ictimai-siyasi xadim Ağalar Abbasbəylinin uzunmüddətli və məhsuldar zəhməti sayəsində başa gələn bir işdir. "İndigo" MMC-də buraxılmış ensiklopediyanın redaksiya heyətinin üzvləri AMEA-nın müxbir üzvü, hüquq elmləri doktoru, BDU-nun kafedra müdiri, professor Məsumə Məlikova, siyasi elmlər doktoru, Əməkdar jurnalist Xalid Niyazov və siyasi elmlər üzrə fəlsəfə doktoru, BDU-nun dosenti Qurban Məmmədovdur. Ayrı-ayrı cildlərə tanınmış hüquq və siyasi elmlər doktorları rəy veriblər.**

Cildlərdə A-dan Z-yə: "Aaxen konqresi"ndən "Zaman dəyişsə də, erməni xisləti dəyişməyib" qeydlərinə qədər dünyada gedən siyasi proseslərin, diqqətçəkən başlıca problemlərin, siyasi leksikonda yer almış terminlərin dəqiq izahı verilib, eləcə də ayrı-ayrı diplomatların, dövlət və siyasi xadimlərin portretləri təqdim olunub. Bu dolğun nəşr tarixi təcrübənin, diplomatik və dövlətçilik ənənələrinin öyrənilməsi baxımından mühüm önəm daşıyır. Bəri başdan qeyd edək ki, ensiklopediyanın hər cildinin əvvəlində müəllif onu hansı amala həsr etdiyini qısaca bildirir: Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyinə, İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində Böyük Qələbəyə, şəhidlərimizin əziz xatirəsinə ithaf bəyanları, eləcə də "Azərbaycanın gələcəyi naminə..." epiqrafı diqqət çəkir.

Bildiyimiz kimi, çağdaş dünyanın nizamı və münasibətlər "koleydoskopu" çoxəsrlik və çoxşaxəli inkişaf yolunun nəticəsidir. Beynəlxalq diplomatik durumun təfsiri, perspektivlərlə bağlı siyasi proqnozların verilməsi ensiklopediyaya marağı daha da artırır. İnamla söyləmək olar ki, geniş elmi yaradıcılıq fəaliyyətinin məhsulu olan 2832 sözün izahından ibarət 5 cildlik "Diplomatik-siyasi ensiklopediya" milli politologiya elminin mühüm nailiyyətlərindəndir.

Ensiklopediyanın cildlərində beynəlxalq münasibətlərdə rast gəlinən anlayış, termin və sözlərin mahiyyəti, məzmunu açılır, müxtəlif geosiyasi nəzəriyyə və doktrinalar, dövlət və siyasi xadimlər haqqında ətraflı məlumat verilir. Əlifba ardıcıllığı ilə Ağqoyunlu dövlətindən başlamış bu günkü müstəqil Azərbaycana, Babəkin başçılığı altında milli-azadlıq mübarizəsindən tutmuş Azərbaycan Demokratik Respublikasının tarixinə, ilk beynəlxalq qurumlardan bugünkü siyasi və qeyri-hökumət təşkilatlarına və görkəmli dövlət xadimlərinin fəaliyyətinə qədər məlumatlar yer alır. Qloballaşan dünyada BMT-nin və onun qurumlarının rolunun və əhəmiyyətinin artması ilə bağlı son məlumatlar da bu cilddə yerləşdirilən ayrı-ayrı məqalələrdə öz əksini tapmışdır.

Ensiklopediyada müstəqil Azərbaycan Respublikasının qurucuları, görkəmli dövlət xadimləri və diplomatları Əliyev Heydər Əlirza oğlunun siyasi portretləri, onların həyat və fəaliyyəti, xalq qarşısında misilsiz xidmətləri vətənsevər politoloji təhlilin süzgəcindən keçirilir. Cildlərdə digər siyasi xadimlər haqqında məlumatlara da yer ayrılıb.

Demək olar ki, ensiklopediyanın bütün cildləri üçün xarakterik sayılan xüsusiyyətlərdən biri leksikonda az rast gəlinən, lakin müəyyən ixtisas dairələri üçün vacib olan anlayış və izahat birləşmələrinin yer almasıdır. Bu baxımdan arxiya, atlantizm, birolyar dünya, denonsasiya, egida, xartiya, xunta, ideokratiya, imperativ, kart-blanş, kondominium, messianizm, polemologiya,royalizm, settlementlər, siyasi aktor, təshih, uniya kimi anlayışların sözlüklərə gətirilməsi təqdirəlayiqdir. Ensiklopediyada, həmçinin bir sıra beynəlxalq hökumət və qeyri-hökumət təşkilatlarının yaradılması, fəaliyyət tarixi və mövcud vəziyyəti haqqında da lakonik məlumatlar var.

Hər cildin əhatəsinə uyğun olaraq anlayışların sıralanması, arada isə hansı biri haqqında isə tutumlu bilgilərin verilməsi elmi-populyar şaxələndirmələrlə mahiyyətə varmağa xidmət edir. Bu da ensiklopediyanın adi sözlük səviyyəsindən daha geniş və əhatəli məlumatlar toplusu kimi dəyərini artırır.

Professor Ağalar Abbasbəylinin "Azərbaycanın gələcəyi naminə..." epiqrafı ilə hazırladığı 5-ci cild məlumat, fakt və materialların zənginliyi, rəngarəngliyi baxımından o biri cildlərdən seçilmir, hətta deyərdik ki, əksinə, onları lazımınca tamamlayır.

Bakı Dövlət Universitetinin kafedra müdiri, professor İsmayıl Əliyev bu sanballı eksiklopediyanı ətraflı şərh edərək yazır ki, müasir dövrdə leksikonumuzda elə terminlər və söz birləşmələri var ki, bunlar bütövlüklə diplomatiya və xarici siyasət məsələlərinə aiddir və onlara aydınlıq gətirilməsi, mənalandırılması və izahı tələb olunur. Bu baxımdan müxtəlif anlayışların mənalarının elmi-populyar üslubda açılması olduqca gərəklidir, bunların əlifba ardıcıllığı ilə cildlərə yerləşdirilməsi isə oxucu rahatlığını təmin edir. Ensiklopediyada beynəlxalq əhəmiyyətli qurum, proqram, layihə və sənədlərin də izahına aydınlıq gətirilir. Dünya siyasəti tarixində türklərin müstəsna rol oynadığını nəzərə alan müəllif ayrıca məqalədə tarixi və müasir türk dövlətlərinin siyahısını verib, eramızdan əvvəlki




III əsrdən başlayan və XX əsrin sonuna qədər olan dövrləri əhatə edən yüzlərlə türk dövlətlərinin adlarını tarixin yaddaşından ensiklopediyanın yaddaşına köçürüb.

"Diplomatik-siyasi ensiklopediya" elmi işçilər, diplomatlar, jurnalistlər və bütün Azərbaycan oxucuları üçün ən qiymətli ərməğandır.

***Əli DOSTƏLİ***
***XQ***

## NAXÇIVAN XƏBƏRLƏRİ

# Şəhid övladları üçün gəzinti



**Naxçıvan Şəhid Ailələri İctimai Birliyinin təşkilatçılığı ilə şəhid övladlarının Culfa rayonunun Ərəfsə kəndində yerləşən "Aquamarin" ailəvi istirahət mərkəzinə gəzintisi təşkil olunub.**

Həmin gün uşaqlar onlar üçün təşkil edilmiş əyləncəli oyunlarda iştirak ediblər. Mərkəzdə onlara müxtəlif xidmətlər də göstərilib.

Layihənin məqsədi Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən şəhid övladlarına mənəvi dəstək göstərmək, onlara cəmiyyətin diqqət və qayğısını hiss etdirməkdir. Muxtar respublikada belə xeyriyyə aksiyaları silsilə xarakter daşıyır.

# "Molla Nəsrəddin" irsinə sevgi

**Görkəmli yazıçı-publisist Cəlil Məmmədquluzadənin Ev Muzeyində Azərbaycanda XX əsrin ən böyük mətbuat hadisəsi olan "Molla Nəsrəddin" jurnalının nəşrə başlamasının 119 illiyi sevgi-sayğı ilə yad edilib.**



Cəlil Məmmədquluzadə Ev Muzeyinin direktoru Aytən Ələkbərova bildirib ki, Şərqdə ilk satirik jurnal olan "Molla Nəsrəddin" jurnalı 25 ilə yaxın ictimai tərəqqi yolundakı maneələrə, düşmən qüvvələrin xəyanətlərinə qarşı barışmaz mübarizə aparıb. Ətrafında eyniadlı ədəbi-publisistik məktəb yaratmış bu jurnal milli ədəbiyyatın, mətbuatın, ictimai fikrin yüksəlişinə sanballı töhfələr verib.

Əməkdar müəllim İman Cəfərli "Azərbaycan ədəbiyyatı və jurnalistikasında "Molla Nəsrəddin" mərhələsi, Naxçıvan Dövlət Universitetinin dosenti Nəzakət İsmayılova "Cəlil Məmmədquluzadə və "Molla Nəsrəddin" mövzularında çıxış ediblər. Onlar demokratik jurnalistikamızın həmişəyaşar ənənələrinin formalaşıb inkişaf etməsində də "Molla Nəsrəddin"in önəmli payı olduğunu vurğulayıblar.

Mərasimdə Naxçıvan Dövlət Milli Dram Teatrının aktyoru Məmməd Mehdiyev "Ölülər" tamaşasından İsgəndərin monoloqunu ifa edib.

Mərasim iştirakçıları ölməz ədibin irsini qoruyub təbliğ edən muzeyi ziyarət edərək, jurnalın nəşr tarixini və onunla bağlı tədqiqatları əks etdirən sərgi ilə tanış olublar.

# Dünya şöhrətli alim NDU-da

**Beynəlxalq Təlim Aylığı elan edilmiş apreldə dünyanın 6 ölkəsindən 21 təlimçi muxtar respublikanın qurumlarında ödənişsiz mühazirələr aparmağa başlayıblar.**

Naxçıvan Dövlət Universitetində təşkil olunmuş növbəti təlimi Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvü, ixtiraçı, professor Xəlil Kələntər keçib. Elektronika sahəsində dünya şöhrətli alim təlimdə LCD ekranlar, mikro-reflektor və mikro-deflektorlar, dəyişdirilmiş BLU strukturu, 3D üçün eynəyin sturukturu, ikiqat səth emissiyalı arxa işıqlandırma texnologiyaları və digər innovativ displey texnologiyaları haqqında ətraflı təqdimatla çıxış edib. Professor patentləşdirdiyi texnologiyalardan söz açaraq onların tətbiqindən də bəhs edib.



Xatırladaq ki, alim bir neçə ildir bu ali təhsil ocağı ilə əməkdaşlıq edir, təlim və tədqiqatlara dəstək verir. Onun universitetdə apardığı elmi araşdırmalar bir sıra yüksək indeksli beynəlxalq jurnallarda, o cümlədən Yaponiyada dərc olunub. Professorun NDU əməkdaşları ilə bir sıra ortaq elmi məqalələri də çap olunub.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***




# "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

*Ofis ləvazimatlarının illik satınalınması üçün*

## AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin 2026–2030-cu illəri üçün biznes planının satınalınması üçün açıq tenderində iştirakçılar Laman.r.ibrahimova@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix: 28 Aprel 2025-ci il, saat 17:00.

Prosedur üzrə əlaqələndirici şəxs:
Ləman İbrahimova,
Satınalma Üzrə Mütəxəssis,
Laman.r.ibrahimova@azal.az
Əlaqə telefonu: +994 12 497 26 00 / Dax: 5831.


# Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Və Nəqliyyat Nazirliyinin Kollegiyası Qərar

**№ 3-27/3-7-2/2025**

**Bakı şəhəri** **"17" mart 2025-ci il**

**"Sərnişinlərdən hava gəmisində daşınması qadağan edilmiş maddə və (və ya) predmetlərin götürülməsi, saxlanılması, geri qaytarılması və məhv edilməsi Qaydası"nın və "Mülki aviasiya sahəsində təhdidlərin qiymətləndirilməsi və risklərin idarəolunması Metodikası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Kollegiyasının 2021-ci il 26 yanvar tarixli KQ-1/21 nömrəli qərarında dəyişiklik edilməsi barədə**

"Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 mart tarixli 138s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. "Sərnişinlərdən hava gəmisində daşınması qadağan edilmiş maddə və (və ya) predmetlərin götürülməsi, saxlanılması, geri qaytarılması və məhv edilməsi Qaydası"nın və "Mülki aviasiya sahəsində təhdidlərin qiymətləndirilməsi və risklərin idarəolunması Metodikası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Kollegiyasının 2021-ci il 26 yanvar tarixli KQ-1/21 nömrəli qərarında dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

2. Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri** **Rəşad Nəbiyev**

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2025-ci il 17 mart tarixli 3-27/3-7-2/2025 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

**"Sərnişinlərdən hava gəmisində daşınması qadağan edilmiş maddə və (və ya) predmetlərin götürülməsi, saxlanılması, geri qaytarılması və məhv edilməsi Qaydası"nın və "Mülki aviasiya sahəsində təhdidlərin qiymətləndirilməsi və risklərin idarəolunması Metodikası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Kollegiyasının 2021-ci il 26 yanvar tarixli KQ-1/21 nömrəli qərarında edilmiş dəyişikliklər:**

1. "Sərnişinlərdən hava gəmisində daşınması qadağan edilmiş maddə və (və ya) predmetlərin götürülməsi, saxlanılması, geri qaytarılması və məhv edilməsi Qaydası"nın və "Mülki aviasiya sahəsində təhdidlərin qiymətləndirilməsi və risklərin idarəolunması Metodikası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Kollegiyasının 2021-ci il 26 yanvar tarixli KQ-1/21 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında "maddə və (və ya) predmetlərin" sözləri "əşya və maddələrin" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Sərnişinlərdən hava gəmisində daşınması qadağan edilmiş maddə və (və ya) predmetlərin götürülməsi, saxlanılması, geri qaytarılması və məhv edilməsi Qaydası" üzrə:

1.2.1. adında, 1.3-cü bənddə, 2-ci, 3-cü və 4-cü hissələrin adında, 3.2-ci (hər iki halda) bənddə, 4.1-4.3-cü bəndlərdə, 4.4-cü bəndin birinci (hər iki halda) və ikinci cümlələrində "maddə və (və ya) predmetlərin" sözləri "əşya və maddələrin" sözləri ilə əvəz edilsin;

1.2.2. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"Bu Qayda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 yanvar tarixli 3 nömrəli Qərarı ilə təsdiq edilmiş "Hava gəmisində daşınması qadağan edilən əşya və maddələrin Siyahısı" ilə müəyyən edilmiş hava gəmilərində daşınması qadağan edilən əşya və maddələrin götürülməsi, saxlanılması, geri qaytarılması və məhv edilməsi qaydasını müəyyən edir.";

1.2.3. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. Aviasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə sərnişinin üzərinə, əl yükünə və baqajına həyata keçirilən baxış zamanı Beynəlxalq Mülki Aviasiya Təşkilatının (BMAT) beynəlxalq standartları və tövsiyə olunan təcrübəsində nəzərdə tutulan və pərakəndə satışda olan, lakin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 yanvar tarixli 3 nömrəli Qərarı ilə təsdiq edilmiş "Hava gəmisində daşınması qadağan edilən əşya və maddələrin Siyahısı"na əsasən hava gəmisində daşınması qadağan edilmiş əşya və maddələr aşkar edildikdə, aviasiya təhlükəsizliyi xidmətinin əməkdaşı ilk olaraq həmin əşya və maddələri sərnişini yola salan şəxsə (şəxslərə) təhvil verilməsini təklif edir. Bu mümkün olmadıqda, həmin maddə və (və ya) predmetlərin götürülməsinə dair 2 (iki) nüsxədə akt tərtib edilir. Akt onu tərtib etmiş şəxs və sərnişin tərəfindən imzalanır. Aktın bir nüsxəsi aviasiya təhlükəsizliyi xidmətində qalır, digər nüsxəsi isə sərnişinə verilir və bu barədə qeydiyyat aparılır. Sərnişin həmin əşya və maddələrin bu Qaydanın 3.1-ci bəndində göstərilən müddət ərzində götürülməsi barədə məlumatlandırılır və bu barədə aktda müvafiq qeyd aparılır.";

1.2.4. 3.1-ci bənddə "maddə və (və ya) predmetlər (kəsici-deşici alətlər, qaz balonları, lak-boya məmulatları, mayelər və s.)" sözləri "əşya və maddələr" sözləri ilə əvəz edilsin;

1.3. həmin Qərarla təsdiq edilmiş "Mülki aviasiya sahəsində təhdidlərin qiymətləndirilməsi və risklərin idarəolunması Metodikası" üzrə:

1.3.1. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. Bu Metodika "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun, "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələbləri, habelə Beynəlxalq Mülki Aviasiya Təşkilatının (BMAT) beynəlxalq standartları və tövsiyə olunan təcrübəsi, Avropa Mülki Aviasiya Konfransının (ECAC), Beynəlxalq Aviasiya Nəqliyyatı Assosiasiyasının (IATA) o cümlədən mülki aviasiya sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrin tələbləri nəzərə alınmaqla hazırlanmışdır.";

1.3.2. 1.4-cü bənddə "təhlükəsizliyi üzrə" sözləri "təhlükəsizliyinə dair" sözləri ilə əvəz edilsin;

1.3.3. 2.1.2-ci yarımbənddə "aviasiyanın fəaliyyətinə" sözləri "aviasiyada" sözləri ilə əvəz edilsin;

1.3.4. 2.1.4-cü yarımbənddən "fəaliyyətinin" sözü çıxarılsın;

1.3.5. 4.3.1-ci yarımbənddə "qəza və insidentlərin" sözləri "aviasiya hadisələri və insidentlərinin" sözləri ilə əvəz edilsin;

1.3.6. 4.4.1-ci yarımbəndin birinci cümləsində "aviasiya" sözündən əvvəl "mülki" sözü əlavə edilsin;

1.3.7. 4.4.2-ci yarımbənddə "ICAO" abreviaturası "BMAT" abreviaturası ilə əvəz edilsin;

1.3.8. 4.4.5-ci yarımbənddə "milli aviaşirkətlərinin" sözləri "hava gəmisinin istismarçılarının" sözləri ilə əvəz edilsin;

1.3.9. 4.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"4.9. Yüksək riskli hava gəmisinin istismarçıları və aviadaşımalar barədə toplanan məlumatlar mülki aviasiyanın fəaliyyətinə aid olan təhdidlərin aşkar edilməsi və qiymətləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Qeyd edilən hava gəmisinin istismarçıları və aviadaşımalara aiddir:";

1.3.10. 4.9.1-ci yarımbənddə "aviaşirkətlər və aviareyslər" sözləri "hava gəmisinin istismarçıları və aviadaşımalar" sözləri ilə əvəz edilsin;

1.3.11. 4.9.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.9.2. qeyri-müntəzəm (çarter) və ya müntəzəm uçuşlar;"

1.3.12. 4.9.4-cü, 4.11.4-cü və 9.4.2-ci yarımbəndlərdə "aviaşirkətlər" sözləri "hava gəmisinin istismarçıları" sözləri ilə əvəz edilsin;

1.3.13. 4.11.3-cü yarımbənddə "məxsus" sözü "mənsub" sözü ilə əvəz edilsin;

1.3.14. 4.11.7-ci yarımbənddə "ekipaj üzvlərinin," sözləri "hava gəmisinin heyətinin," sözləri ilə əvəz edilsin;

1.3.15. 4.11.10-cu yarımbənddə "uçan aparatlarından (dronlardan)" sözləri "uçuş aparatlarından" sözləri ilə əvəz edilsin;

1.3.16. 4.20-ci bənddə "təyinatlı aviasiyaya" sözləri "xarakterli aviasiya fəaliyyətinə" sözləri ilə əvəz edilsin;

1.3.17. 7.1-ci bənddə "ICAO-nun" abreviaturası "BMAT-ın" abreviaturası ilə əvəz edilsin;

1.3.18. "Mülki aviasiya sahəsində təhdidlərin qiymətləndirilməsi və risklərin idarəolunması Metodikası"na 1 nömrəli Əlavə" – "Təhdid modellərinin siyahısı" üzrə:

1.3.18.1. 1 və 2 nömrəli cədvəllərin 3-cü hissəsində "göyərtəsində" sözü "bortunda" sözü ilə əvəz edilsin;

1.3.18.2. 5 nömrəli cədvəlin "Hava gəmisinin qaçırılması" sütunu üzrə:

1.3.18.2.1. 1-ci hissənin ikinci abzasının üçüncü cümləsində (hər iki halda) "aviaşirkətinin" sözü "hava gəmisinin istismarçısının" sözləri ilə əvəz edilsin;

1.3.18.2.2. 2-ci hissənin üçüncü cümləsində "Təyyarələrin" sözü "Hava gəmilərinin" sözləri ilə əvəz edilsin;

1.3.18.2.3. 3-cü hissənin ikinci cümləsində "təyyarə" sözü "hava gəmisinin" sözləri ilə əvəz edilsin;

1.3.18.2.4. 4-cü hissədə "ekipajın" sözü "hava gəmisinin heyətinin" sözləri ilə, "heyətin kabinəsinə" sözləri "hava gəmisinin heyətinin kabinəsinə" sözləri ilə əvəz edilsin;

1.3.18.2.5. 5-ci hissənin üçüncü abzasında "heyət və bort bələdçiləri" sözləri "uçuş və kabinə heyəti" sözləri ilə əvəz edilsin;

1.3.18.3. 6 nömrəli cədvəlin "Hava gəmisindən silah kimi istifadə edilməsi" sütunu üzrə:

1.3.18.3.1. 2-ci hissənin ikinci abzasında "aviaşirkətin" sözü "hava gəmisinin istismarçısının" sözləri ilə əvəz edilsin;

1.3.18.3.2. 5-ci hissə üzrə:

1.3.18.3.2.1. b) abzasında "heyət və bort bələdçiləri" sözləri "uçuş və kabinət heyəti" sözləri ilə əvəz edilsin;

1.3.18.3.2.2. d) abzasında "gəmisi ekipaj üzvlərini" sözləri "gəmisinin heyətini" sözləri ilə əvəz edilsin;

1.3.18.3.2.3. e) abzasında "ekipajın" sözü "hava gəmisinin heyətinin" sözləri ilə əvəz edilsin;

1.3.18.4. 7 nömrəli cədvəlin "Məsafədən idarə olunan aviasiya sistemlərinin (MİOAS) yaratdığı təhdidlər" sütunu üzrə:

1.3.18.4.1. 1-ci hissənin birinci cümləsində "dronlara" sözü "pilotsuz uçuş aparatlarına" sözləri ilə əvəz edilsin;

1.3.18.4.2. 2-ci hissənin ikinci abzasının birinci cümləsində "dron" sözü "pilotsuz uçuş aparatı" sözləri ilə əvəz edilsin;

1.3.18.4.3. 4-cü hissənin ikinci cümləsində "dronların" sözü "pilotsuz uçuş aparatlarının" sözləri ilə, üçüncü cümləsində "təyyarənin" sözü "hava gəmisinin" sözləri ilə əvəz edilsin;

1.3.18.5. 8 nömrəli cədvəlin "Hava hərəkətinin idarəedilməsi (HHİ) sistemlərinə kiberhücumlar" sütunu üzrə:

1.3.18.5.1. 1-ci hissənin ikinci abzasının ikinci cümləsində "aeronaviqasiya sistemlərinin provayderləri" sözləri "hava hərəkəti xidmətlərini təmin edən təchizatçıları" sözləri ilə, "aviadaşıyıcılar" sözü "hava gəmisinin istismarçıları" sözləri ilə əvəz edilsin;

1.3.18.6. 10 nömrəli cədvəlin "Hava limanı sistemlərinə kiberhücumlar" sütunu üzrə:

1.3.18.6.1. 1-ci hissədə "Rəsmiyyətin" sözü "Hava daşımaları üzrə rəsmiyyətin" sözləri ilə əvəz edilsin;

1.3.18.6.2. 2-ci hissənin üçüncü cümləsində "aviaşirkətlərin" sözü "hava gəmisinin istismarçılarının" sözləri ilə əvəz edilsin;

1.3.18.7. 12 nömrəli cədvəlin "Bort ehtiyatlarında gizlədilmiş KPQ, silah və ya toksiki maddələr" sütunu üzrə:

1.3.18.7.1. 3-cü hissənin üçüncü abzasında "aviaşirkətin" sözü "hava gəmisinin istismarçısının" sözləri ilə əvəz edilsin;

1.3.18.8. 13 nömrəli cədvəlin "Nəzarət olunmayan zonaya qarşı təhdidlər" sütunu üzrə:

1.3.18.8.1. 1-ci hissənin ikinci abzasında "satəhdid" sözü "sahədə" sözü ilə əvəz edilsin;

1.3.18.8.2. 5-ci hissənin e) abzasında (hər iki halda) "aviaşirkətlərin" sözü "hava gəmisinin istismarçılarının" sözləri ilə əvəz edilsin;

1.3.19. "Mülki aviasiya sahəsində təhdidlərin qiymətləndirilməsi və risklərin idarəolunması Metodikası"na – 2 nömrəli Əlavə Risklərin idarəolunması matrisası "Təhdid səviyyəsinə uyğun olan əlavə aviasiya təhlükəsizlik tədbirləri Planı"nın "Təhdid modelləri № (QMA)" sütununun 17-ci hissəsində "aviaşirkətlərin" sözü "hava gəmisinin istismarçılarının" sözləri ilə əvəz edilsin.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 68 (30762) 9 aprel 2025-ci il, çərşənbə

## İdman

### Özbəkistanda qızıl medal




**Azərbaycan ağırlıqqaldıranı Kamran Xappayev (61 kq) "Uzbekistan Open" turnirində qızıl medal qazanıb.**

Təmsilçimiz birdən qaldırma hərəkətində 103 kiloqram nəticə göstərərək birinci olub. O, təkanla qaldırma hərəkətində də eyni uğuru təkrarlayıb. Atlet bu dəfə 123 kq ağırlığı ram edib. Beləliklə, toplamda 226 kq nəticə göstərən K.Xappayev yarışın qalibi adını qazanıb.

### AFFA 3 klubu cərimələyib



AFFA-nın İntizam Komitəsinin iclasında Misli Premyer Liqasının XXIX turunda baş verənlər müzakirə olunub.

"Səbail" – "Turan Tovuz" oyunu bitdikdən sonra qonaqların futbolçusu Veysəl Rzayev azarkeşi vurmağa cəhd etdiyinə görə, 2 oyun cəzalandırılıb. "Turan Tovuz" klubu 2 min manat cərimələnib. Sınaq müddəti 3 ay təyin edilib.

"Sabah" – "Kəpəz" matçı bitdikdən sonra qonaqların azarkeşləri tərəfindən pirotexniki vasitədən istifadə edildiyinə görə Gəncə klubu 1500 manat ziyana düşüb. "Araz-Naxçıvan" – "Sumqayıt" görüşündə qonaqların azarkeşləri tərəfindən hakimlərin ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə və bu hal cari mövsümdə 3-cü dəfə təkrarlandığına görə klub 1000 manat cərimələnib.

### Karateçilərimiz Qran-pri qalibi olublar



**Azərbaycan karateçiləri Bakıda keçirilən Qran-Pri turnirində uğurla çıxış edərək, ümumkomanda hesabında 1-ci yeri tutublar.**

Təmsilçilərimiz 177 medal (42 qızıl, 49 gümüş, 86 bürünc) qazanıblar. Qazaxıstan (11 qızıl, 4 gümüş, 8 bürünc) 2-ci, Türkiyə (8 qızıl, 8 gümüş, 7 bürünc) 3-cü pillədə qərarlaşıb.

Yarışda 14 ölkəni təmsil edən 1200-ə yaxın karateçi iştirak edib. Yarışlar həm kata, həm də kumite üzrə müxtəlif yaş və çəki kateqoriyalarında təşkil olunub.

*LA ZAD*
*XQ*

## Gimnaziadanın gündəliyi

# 3 parabadmintonçumuz "qızıl" qazanıb

## *Komandamız 39 medalla uğur marafonunu davam etdirir*



**Serbiyada 15 yaşadək (U-15) idmançılar arasında keçirilən Gimnaziada İdman Oyunlarında Azərbaycan komandasının uğurlu çıxışı davam edir. Yarışın 2-ci gününün nəticələrinə görə, yığmamız qızıl medalların sayını 8-ə çatdırıb. Sərbəst güləş yığmamızın yarışın 1-ci günündə qazandığı 2 "qızıl"a, turnirin 2-ci günündə yunan-Roma güləşçilərimiz daha 3 "qızıl mükafat" əlavə ediblər.**

Digər 3 qızıl medalı isə parabadminton və qılıncoynatma komandalarımız qazanıblar. Bütün rəqiblərinə qalib gələn şpaqaçımız Mirnuray Abasova finalda çinli Ju Şiyindən də üstün olduğunu nümayiş etdirərərək 1-ci yeri tutub. Parabadminton yarışında isə Zəhra Salmanlı və Əli Məhərrəmov fəxri kürsünün ilk pilləsinə yüksələrək qalib adını qazanıblar. Parabadminton komandamız qızıl mükafatın davamını dünən – yarışın 3-cü günündə əldə edib. Bu dəfə Ayan Əliyeva fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.



***Millinin məşqçisi Teymur Abbasov XQ-yə açıqlamasında əldə edilən yüksək uğur üçün böyük səy göstərdiklərini bildirdi:***

– Gimnaziadaya ciddi şəkildə hazırlaşmışdıq. Yarış ərəfəsində Şamaxı Olimpiya İdman Kompleksində 10 günlük təlim-məşq keçdik. İdmançılarımız gözəl formadadırlar. Aprelin 7-də 2 idmançımız qızıl medal qazanmışdı. Aprelin 8-də qızıl medalların sayını 3-ə çatdırdıq. Bir idmançımız bürünc medala layiq görüldü.

Parabadminton yığmasını komanda yarışları gözləyir. ***Məşqçi yaxşı nəticəyə ümid etdiklərini dedi:***

– Komanda yarışlarında da 1-ci yerə iddia edirik. Fərdi yarışlarda məğlub etdiyimiz rəqiblərlə qarşılaşacağıq. Düşünürəm ki, nəticə yaxşı olacaq.

Oyunların 2-ci günündə komandamızın hesabına gümüş və bürünc medal yazdıran paraüzgüçülərimizin əldə etdikləri nailiyyətləri də xüsusi vurğulamaq olar. ***Yığmanın məşqçisi Faiq Əsgərov bu yarışın mükafat əldə edən hər iki idmançının ilk beynəlxalq turniri olduğunu dedi:***

– Gümüş medal qazanan Murad Məmmədovun 14 yaşı var. S9 kateqoriyasında 200 metr məsafəyə sərbəst üsulla üzmə yarışında 2-ci nəticəni göstərdi. Bu, onun ilk beynəlxalq yarışı idi. 6 ay ərzində onu yarışa hazırlamışıq. Perspektivli idmançıdır. Öz üzərində çalışır. Rəsul Süleymanov tam görmə məhdudiyyətlidir. Bu, onun da iştirak etdiyi ilk beynəlxalq turnirdir. Ondan da gözləntilərimiz çoxdur. Komanda, ümumilikdə, gimnaziadaya yaxşı hazırlaşıb. Yığmanın çıxışı davam edir.

Dünən komandamız, ümumilikdə, 11 növdə iştirakını davam etdirib. Təmsilçilərimiz qadın güləşi, qılıncoynatma, parabadminton, şahmat, 3x3 basketbol, üzgüçülük, paraüzgüçülük, taekvondo, stolüstü tennis, atletika və kamandan oxatmada qüvvələrini sınayıblar.

Azərbaycan sablyaçısı Cahan Sadıxova bürünc medal qazanıb.

Qız güləşçilərimiz gimnaziadada 1 qızıl, 3 gümüş və 2 bürünc, taekvondoçularımız isə 1 qızıl, 2 gümüş və 3 bürünc medal qazanıblar. Bununla da, Azərbaycan millisinin hesabındakı medal sayı 39-a yüksəlib.

Xatırladaq ki, aprelin 12-dək davam edəcək və 56 ölkədən 2 min 742 idmançının mübarizə apardığı yarışda Azərbaycan 18 idman növündə, ümumilikdə, 191 atletlə təmsil olunur.

*Leyla QURBANOVA*
*XQ*

# Taciklərin gəncəlilərə "Dostluq hədiyyəsi"



**Gəncədə Tacikistan Respublikası Prezidentinin İcra Aparatının "Dövlət Simfoniya Orkestrı"nın Estrada Ansamblı "Dostluq hədiyyəsi" adlı konsert ilə çıxış edib. Proqram Azərbaycanın Mədəniyyət Nazirliyi və Tacikistanın ölkəmizdəki səfirliyinin birgə təşkilatçılığı ilə gerçəkləşdirilib.**

Ansamblın ifasında səslənən xalq və müəllif mahnıları tamaşaçılar tərəfindən böyük coşqu və alqışlarla qarşılanıb. Tacikistanlı sənətçilərin ifasında səslənən Azərbaycan mahnıları isə tamaşaçıların xüsusi marağına səbəb olub.

F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında təşkil olunan konsert proqramını Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Tacikistanın Azərbaycandakı səfiri İlxom Abdurahmon, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Gürcüstanın Gəncədəki Baş konsulu Kaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, ADAU-nun rektoru Zəfər Qurbanov, hüquq-mühafizə orqanlarının rəhbərləri, bələdiyyə sədrləri, Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının məsul əməkdaşları, idarə, müəssisə və təşkilat rəhbərləri, o cümlədən şəhər ictimaiyyəti izləyiblər.

*XQ*

# İngilis professor Ədəbiyyat Muzeyində

**Londonda yerləşən Middlesex Universitetinin fəxri professoru Paul Gibbs Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin qonağı olub. O, universitetdə Təhsil Araşdırmaları və Təqaüd Mərkəzinin qurucusudur. Paul Gibbs transdisiplinar nəzəriyyə, təhsil fəlsəfəsi və ali təhsilin marketinqi sahələrində geniş araşdırmalar aparıb. O, bu mövzularda 180-dən artıq əsərin müəllifidir.**



Bununla yanaşı, Paul Gibbs Sidney Texnologiya və Kembric universitetlərində qonaq professor, Şərqi Avropa Universitetində Doktorantura Təhsilinin İnkişafı Mərkəzinin direktorudur. O, ATLAS R&B Araşdırma İnstitutunda (ABŞ) və Oksford Yeni Kollecindəki Ali Təhsil Siyasəti Mərkəzinin fəxri üzvüdür. Alim, müəllim və tədqiqatçı Paul Gibbsin 30-dan çox doktorantı var.

Azərbaycanın ədəbiyyatı, tarixi və mədəniyyəti ilə maraqlanan professor Paul Gibbs ekspozisiya şöbəsinin müdiri Tomiris Babanlının təqdimatında muzeylə yaxından tanış olub. Klassik ədəbiyyatımıza, xüsusilə Nizami Gəncəvi irsinə dərindən maraq göstərən professor ədəbiyyatımızın, tariximizin parlaq səhifələri əks olunan ekspozisiyadan, poetik nümunələrdən böyük zövq alıb.

Sonda muzeyin rəylər və təəssüratlar kitabına: "Bu muzey Azərbaycanın mədəniyyətinə və əsrarəngizliyinə uyğun yaradılmış kolleksiyadır" sözlərini yazan Paul Gibbsə xatirə olaraq "Şirvan şairləri" kitabı (ingilis dilində) hədiyyə edilib.

*XQ*

## HAVA

# Abşeronda külək, bölgələrdə yağış və duman...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 9-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecəyə doğru bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var.**

Güclü şimal-qərb küləyi əsəcək, günün ikinci yarısında mülayimləşəcək. Gecə 10-14°, gündüz 15-18° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 757 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-75, gündüz 55-60 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi şimal və qərb rayonlarından başlayaraq fasilələrlə yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Arabir güclənən qərb küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 17-22°, dağlarda gecə 2-7°, gündüz 7-12° isti olacaq.

*QQ ASIMOV*
*XQ*

# Töküləndə saç – bibəriyyədir əlac

**Son zamanlar gözəllik mütəxəssisləri bibəriyyə suyunun saç tökülməsini dayandırdığını və hətta yeni saçlar çıxardığını bildirirlər. Saç tökülməsi və seyrəlmə problemi olanlar da buna "rozmarin"lə çarə axtarırlar.**



Lakin onun xeyri kimi, zərəri barədə də, yəqin ki, çoxları bilmir. Fitoterapevtlər bununla bağlı diqqətli olmağı tövsiyə edirlər.

Bildirirlər ki, bibəriyyə suyunun saça zərər verməsi, adətən, yanlış istifadə və ya həddindən artıq tətbiq nəticəsində baş verə bilər.

Bibəriyyə saç sağlamlığı üçün faydalı ola biləcək bir bitkidir, lakin bəzi hallarda arzuolunmaz təsirlər də yaradır. O bəzi insanlarda allergik reaksiyalara səbəb olur. Dəridə qaşınma, qızartı, səpgi və ya şişkinlik kimi əlamətlər müşahidə oluna bilər. Bibəriyyə suyu yalnız saç köklərinə fayda verəcək miqdarda istifadə edildikdə təsirlidir. Ona görə də həkim-kosmetoloq və ya fitoterapevtlə məsləhətləşmək lazımdır.

*Z.HÜSEYNLİ*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov və redaksiyanın kollektivi qəzetin əməkdaşı Ruslan Rəfizadəyə həyat yoldaşı

**İRADƏ RƏFİZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Muğansutikinti" Məhdud Məsuliyyətli Cəmiyyətin kollektivi MMC-nin sədri Vaqif Qurbanova qardaşı

**MEHMAN QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Milli Konservatoriyasının nəzdində Musiqi Kollecinin direktoru professor Nazim Kazımov və kollektivi kollecin sabiq müəllimi, qabaqcıl təhsil işçisi

**İRADƏ RƏFİZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun həyat yoldaşı Ruslan Rəfizadəyə və övladlarına dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3401
SİFARİŞ 648
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00